AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

TEHRAN ƏLİŞANOĞLU



# NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNUN BEŞ İLİ AKADEMİK İSA HƏBİBBƏYLİ İLƏ

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU**

**TEHRAN ƏLİŞANOĞLU**

# NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNUN BEŞ İLİ AKADEMİK İSA HƏBİBBƏYLİ İLƏ

**(məqalələr)**

**Bakı – 2018**
**"Elm və təhsil"**

***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 18 sentyabr 2018-ci il 11 saylı iclasının qərarı ilə nəşr olunur.***

Elmi redaktoru: **Tahirə Məmməd**
**filologiya üzrə elmlər doktoru, professor**

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun beş ili akademik İsa Həbibbəyli ilə.** Bakı, "Elm və təhsil", 2018, 128 səh.

Kitabda akademik İsa Həbibbəylinin AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru olaraq, son beş ildə ədəbi-ictimai fəaliyyətindən, institutda həyata keçirilən elmi-təşkilati islahatlardan, ədəbiyyatşünaslıq elminin son nailiyyətlərindən, habelə akademikin ədəbiyyat tarixçiliyi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid sahələrində əldə etdiyi böyük yaradıcılıq uğurlarından söz açılır.

# YUBİLEYDƏN YUBİLEYƏ UÇ, ROMANTİKAM!

## *AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illiyinə*[*]

AMEA-nın vitse-prezidenti, millət vəkili, akademik İsa Həbibbəyli 2013-cü il 19 iyun tarixindən Ədəbiyyat İnstitutunun direktoru olaraq fəaliyyətinə İnstitutun 80 illik yubiley təntənələrindən başladı...

Ədəbiyyat İnstitutu AMEA-nın ən qədimi, əsasında duran strukturlarından biridir. O qədər qədimi ki, tarixini nerədən hesablamalı: 1923-1929-cu ilin Tətəbbö Cəmiyyətindənmi, 1929-1933-cü illərin Elmi tədqiqat institutundanmı, 1932-ci il 12 dekabr qətnaməsindən, Zaqafqaziya Azfilialındanmı, ya 1935-ci il Azərbaycan filialındanmı, ya bəlkə 1945-ci il ayrıca AMEA-nın təsis tarixindən? – müəyyənləşdirmək də müşkül. Hər birisi Ədəbiyyat İnstitutuna şöhrət, şan, özgə bir məna və dividend gətirəsi tarix… Bütün bu rəqəmləri biz akademik İsa Həbibbəylinin yubiley günlərində qələmə aldığı "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu" oçerkindən, nadir foto-şəkillərlə bəzədilmiş eyniadlı broşüründən (elmi redaktoru: f.ü.e.d., prof. Asif Rüstəmli) öyrənirik. Necə edəsən ki, həmən start nöqtələrindən birisinin üzərində dayanıb: İnstitutun hesabını o tarixdən aparasan, ona qədərki olanları isə "tarixəqədərki tarix"ə yozasan. Akademik İsa Həbibbəyli AMEA Rəyasət Heyətinin 17 oktyabr 2013-cü il tarixli qərarına söykənərək, bəyan etdi: "Beləliklə, 22 mart 1933-cü ildə tanınmış tənqidçi Əli Nazim Mahmudzadənin rəhbərlik etdiyi SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialı Azərbaycan Bölməsinin Ədəbiyyat sektoru Akademiya sistemində Ədəbiyyat İnstitutu-

---

[*] Məqalə "525-ci qəzet"in 2018-ci il 2 noyabr sayında dərc olunmuşdur.

nun yaranma tarixi kimi hesab oluna bilər…" ("Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu", Bakı, 2013, s. 6)

... Və sonra biz Ədəbiyyat İnstitutunun 80 yaşını bütün 2013-cü il boyu (16 yanvar 2014-cü ildə respublika miqyasında yubiley zirvəsinəcən) bayram etdik. Bu bizə lazım idi, az qala sovet dönəmindən bəri, uzun sürən tarixi dekadansdan sonra bu, çox vacib idi...

Bir məşhur deyimi bir azca çevirsək: predmetin tarixini bilmədən bugününü (nəzəriyyəsini) biləməzsən, nəzəriyyəsini bilmədən Sabahını (tarix!) yapamazsan. İlin sonuna akademik İsa Həbibbəylinin elmi redaktorluğu və layihə müəllifliyi ilə unikal bir biblioqrafik göstərici işıq üzü gördü: "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşrləri. Kitablar" (redaktor: fil.ü.f.d. Əmin Əfəndiyev, tərtibçilər: Zakirə Əliyeva, Sona İbrahimova). Biblioqrafiyada Ədəbiyyat İnstitutunun 1926-cı ildən 2012-ci ilin sonunacan ortaya qoyduğu və Azərbaycan, rus və digər dillərdə nəşr etdirdiyi 2289 adda ədəbi tənqid və ədəbiyyatşünaslıq, klassik ədəbi irs və dünya ədəbiyyatı kitabları haqqında məlumat yer almışdı. Göstərici vacibdi; tarix aynasında özünü, sözünü, izini görməsən, yolunu, yönünü, yöntəmini innən beləsinə necə təyin edə, gedə bilərsən?! Akademik İsa Həbibbəyli nəşrə yazdığı "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və ədəbiyyatşünaslıq elminin inkişafı məsələləri" adlı ön sözündə göstəricini AMEA sistemində konkret bir elmi-tədqiqat institutunun ilki kimi qutlayırdı: "Oxuculara təqdim edilən "Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının əsərlərinin biblioqrafiyası" Azərbaycan ədəbiyyatşünaslıq elminin bir əsrə yaxın dövrdəki inkişafının mükəmməl elmi salnaməsidir. Çoxillik böyük zəhmətin və axtarışların nəticəsində meydana çıxan bu nəşr milli ədəbiyyatşünaslıq elminin inkişaf yolunu, ideya xəttini, çətin-

liklərini və uğurlarını real surətdə təsəvvür etməyə, elmi şəkildə öyrənib ümumiləşdirməyə imkan yarada bilən mötəbər mənbədir...” (“Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşrləri. Kitablar. Biblioqrafik göstərici”. Bakı, “Elm və təhsil”, 2013, s. 12-13)

Örnək lazım idi. Örnək vacib idi. Və “ilk” son olmadı. Tezliklə biblioqrafik göstərici Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu əməkdaşlarının illik fəaliyyətini əks etdirən müntəzəm nəşrə çevrildi. “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Biblioqrafik göstərici-2013” (Bakı, “Elm və təhsil”, 2015) institut əməkdaşlarının il ərzində 823 adda kitab və məqalə ilə mətbu çıxış etdiyindən xəbər verdi. “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Biblioqrafik göstərici-2014” (Bakı, 2016) – 1247 adda; “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Biblioqrafik göstərici-2015” (Bakı, 2016) – 1367 adda; “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının elmi əsərləri. Biblioqrafik göstərici-2016” (Bakı, 2017) – 1624 adda; “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşlarının elmi əsərləri. Biblioqrafik göstərici-2017 (Bakı, 2018) – 1584 adda elmi kitab və məqalənin yarandığını müjdələdi. Və az bir zamanda baxıb gördük ki, heçdən az qala tarix qədər tarix yaratmışıq!

Əlbəttə, bu uğur göstəriciləri heçdən peyda olmamışdı. Hərəkət gərəkirdi. Az qala son sovet dönəmindən sürən tarixi donuqluqdan qurtulmağımız üçün o zaman hərəkət vacib idi. Hələ bir əsr öncə Əlibəy Hüseynzadə “Həyat və meyli-füyuzat” məqaləsində deyirdi ki: hərəkət olmayan yerdə həyat da yoxdur. Bu ki, bir məşhur lətifədə deyildiyi tək, olmasa belə, dayanıb-durmuş qatarı tərpətməklə ilk əvvəl görüntüsünü yaratmalıydıq. Bir yazımda bunu yazmışam: İsa Həbibbəyli hərəkətə gənclərdən, institutda ilk ba-

xışda nəzərə çarpmayan elmi gəncliyi yaradıcılığa sövq etməkdən başladı. Bütöv bir məcmuə, İnstitutda 1946-cı ildən dərc olunan “Ədəbiyyat məcmuəsi”nin XXV cildini tamlıqda gənc alimlərin ixtiyarına verdi (bax: “Ədəbiyyat məcmuəsi”, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Gənc alimlər üçün Xüsusi buraxılış, XXV cild. Baş redaktor: İsa Həbibbəyli. Bakı, 2014, 357 səh.). Daha sonra 2 fevral 2015-ci il, Gənclər Günündə məcmuənin təqdimat mərasimi və müzakirəsini keçirdi. Jurnalda hər biri öz elmi gücü-biliyi-səriştəsi daxilində 46 gənc alim ədəbiyyatın sözünü deyirdi. Məlum oldu ki, hər növ ətalətə rəğmən, nə qədər böyük potensialımız varmış!

...Və qatar tərpəndi. Gənclik yaş deyil ki, keyfiyyətdir. İnstitutun ömrünü ədəbiyyata verən qocaman və ortayaş nəsil alimləri də çağlayan gəncliyə baxıb, uzun illərin apatiyasından qurtuldular. Demə, varmış sübh! İndən belə institutda bütün aktların – elmi tədbirlərin, hazırlanan tədqiqatların, keçirilən konfransların, ədəbi proses gəlişmələrinin, hər növ gündəm mövzularının başında duran qocamanlar oldusa, onu tamamlayan, başa vuran gənclər oldular. İsa Həbibbəyli böyük təşkilatçılıq səriştəsi və tükənməz gənclik enerjisi ilə İnstitutda illərdən bəri yatmış potensialı oyatmış, hərəkətə gətirə bilmişdi.

Oyanmış enerjini, təbii ki, yönəltmək gərəkir. İnstitutda mövcud tədqiqat şöbələri sırasında yeni struktur vahidləri, təzə şöbələr və sektorlar yarandı. Mövcud tədqiqat şöbələri: “Azərbaycan şifahi xalq ədəbiyyatı və yazılı abidələr” (şöbə müdiri: f.ü.e.d., prof. Məhərrəm Qasımlı), “Qədim dövr Azərbaycan ədəbiyyatı” (f.ü.e.d., prof. İmamverdi Həmidov), “Orta əsrlər Azərbaycan ədəbiyyatı” (müxbir üzv Əlyar Səfərli; hazırda f.ü.e.d. Fəridə Əzizova), “Yeni dövr Azərbaycan ədəbiyyatı” (f.ü.e.d. Zaman Əsgərli; hazırda

f.ü.e.d., prof. İslam Qəribli), "XX əsr Azərbaycan ədəbiyyatı" (f.ü.e.d., prof. Şirindil Alışanlı), "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" (f.ü.e.d. Elçin Mehrəliyev; hazırda müxbir üzv Tehran Mustafayev), "Cənubi Azərbaycan ədəbiyyatı" (f.ü.e.d., prof. Teymur Əhmədov), "Ədəbiyyat nəzəriyyəsi" (f.ü.e.d., prof. Tahirə Məmməd), "Türk xalqları ədəbiyyatı" (f.ü.e.d., prof. Məmməd Əliyev), "Dünya ədəbiyyatı və kompravistika" (f.ü.e.d., prof. Gülər Abdullabəyova) və o sıradan üzərinə gələn yeni vahidlər: "Nizamişünaslıq" (şöbə müdiri: müxbir üzv Nüşabə Araslı), "Ədəbi tənqid" (f.ü.e.d. Vaqif Yusifli), "Mətbuat tarixi və publisistika" (f.ü.e.d., prof. Asif Rüstəmli), "Azərbaycan mühacirət ədəbiyyatı" (f.ü.e.d. Nikpur Cabbarlı), "Erkən yeni dövr Azərbaycan ədəbiyyatı" (f.ü.e.d., prof. Mahirə Quliyeva), "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri" (f.ü.e.d. Almaz Binnətova), "Azərbaycan-Asiya ədəbi əlaqələri" (f.ü.e.d., prof. Bədirxan Əhmədli), "Ədəbiyyatşünaslıq plyus" (f.ü.e.d., prof. Vüqar Əhməd), "Uşaq ədəbiyyatı" şöbələri, "Füzulişünaslıq" (f.ü.e.d., prof. Ataəmi Mirzəyev), "Ədəbi cərəyanlar" (akademik İsa Həbibbəyli) sektorları İnstitutun tədqiqat predmetinin əhatəsini genişləndirdi, spektrlərini artırdı.

Akademik İsa Həbibbəylinin gəlişinə qədər Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu özünəqapalı bir tədqiqat müəssisəsi təəssüratını yaradırdı; cəmiyyətdə (o cümlədən ədəbi instansiyalarda) yeri, statusu barədə rəylər yetərincə periferiyada dolaşırdı (Oralarda nələrsə edirlər...). Elmi-ədəbi dövriyyədə bircə "Ədəbiyyat məcmuəsi" vardı ki, zaman-zaman görünürdü; yeri gəlmişkən, İnstitut 2016-cı ildə məcmuənin yaranmasının 70 illik salnaməsini "Ədəbiyyat məcmuəsi-70" (Bakı, 2016) biblioqrafik göstəricisi ilə qutladı. İsa Həbibbəyli dövri nəşrə çevirərək, məcmuələrə ge-

niş auditoriyalar qazandırdı, başlıcası bu nəşrlərin varlığını hiss elətdirdi; mövcud "Ədəbiyyat məcmuəsi" (baş redaktor: AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli), "Ədəbi əlaqələr" (baş redaktor: AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli, baş redaktorun müavini: f.ü.e.d., prof. Məmməd Əliyev) jurnallarının üzərinə daha birisi – "Poetika.izm" (baş redaktor: AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli, baş redaktorun müavini: f.ü.e.d., prof. Tahirə Məmməd) əlavə olundu.

İnstitutda "Təhsil" şöbəsi (f.ü.f.d. Samir Səttarov) yarandı və doktorantlarla, dissertantlarla yanaşı, İnstitut kənardan ilk magistrantlarını da qəbul etdi. İldə yüzdən artıq kitabın nəşri "Elmi nəşrlər və proqnozlaşdırma" şöbəsinin (f.ü.f.d. Töhfə Talıbova) işini intensivləşdirdi. "Elmi informasiya və tərcümə" şöbəsi (f.ü.f.d. Zakirə Əliyeva) təsis olundu və biblioqrafik göstəricilər, www.literature.az portalı İnstitutun fəaliyyətinin əsl diaqnostik mərkəzi statusu qazandı. Arxivimiz zənginləşdi, saxlanclarımız artdı və "Elmi irsin toplanması və sistemləşdirilməsi" şöbəsi (Rəna Mustafayeva) möhkəmləndi. Əlaqələrimiz genişləndi və "Beynəlxalq əlaqələr" şöbəsi (f.ü.f.d. Xanım Zairova) fəaliyyətə başladı.

İnstitutun rəhbərliyinə bacarıqlı və gənc kadrlar gəldi (direktor müavinləri: f.ü.e.d., prof. Əlizadə Əsgərli, f.ü.f.d. Aygün Bağırlı, Rəşad Qasımov; elmi katib: f.ü.f.d. Mehman Həsənov; direktor köməkçisi Pənah Hacıyev). Tüm görünənlərdən: idarəetmədə gender bərabərliyi də dürüst və yerində; üstəlik İnstitutda neçə mühüm postlar da: Yeni Azərbaycan partiyası təşkilatı (f.ü.f.d. Xədicə İsgəndərli), Kadrlar şöbəsi (Zemfira Səidova), Ümumi şöbə (Samirə Kərimova), Mühasibat (Sevinc Şirəliyeva), Həmkarlar İttifaqı (f.ü.f.d. Nərgiz Abdullayeva), Gənc alimlər şurası

(f.ü.f.d. Eşqanə Babayeva), Qadınlar şurası (f.ü.f.d. Aynur Xəlilova) zərif cinsin himayəsi, qayğısı və kurasiyasında.

Ədəbiyyat və humanitar elm naminə işimiz, fəaliyyətimiz və qəlbimiz genişləndikcə bir zaman sığındığımız "beşinci mərtəbə"yə artıq sığmadıq, "altıncı mərtəbə" sorağında AMEA-nın dairəvi mərtəbələri boyu 2-ci mərtəbədən 8-ciyəcən genişləndik; nüfuzumuz artdıqca ərzimiz, ərazilərimiz də artdı. Akademik İsa Həbibbəyli Ədəbiyyat İnstitutunun tarixində görünməmiş texnoloji inqilab elədi; ənənəvi kitabxana (Gülbəniz Bağırova) yanında Elektron kitabxana və qiraət otağı, ənənəvi nəşrlərlə yanaşı Elektron portal (www.literature.az), ənənəvi məclislərin yerində İnstitutun texnoloji avadanlıqla tam təchiz olunmuş, əsl enerji generatoru – Elektron Akt zalı yarandı. O elektron zalı ki (H.Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas korpus, IV mərtəbə): həftənin az qala beş günü, səhər və günün ikinci yarısı ən müxtəlif elmi tədbirlərlə nəfəs verib nəfəs alır. Hətta bəzən zamana sığmayıb şənbə günləri də, bəzən isə olur ki, yay məzuniyyətindən də günlər qoparıb, daim məclislərlə qaynayıb-daşır. Onlarla miqyaslı tədbirlər: beynəlxalq konfranslar ("Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri", "Azərbaycan mühacirət ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr", "Nəsimi-600", "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı", "Molla Pənah Vaqif və Azərbaycan realizmi", "Çingiz Aytmatov-90" və s.), elmi sessiyalar ("Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala", "525-ci qəzet" məktəbi: zaman və ədəbi proses", "Afaq Məsud dünyası", "Azərbaycan ədəbiyyatında soyqırım və deportasiyaların bədii əksi: reallıqlar və çağırışlar" və s.), dünya şöhrətli simalarla görüşlər (Nobel mükafatçısı Volye Şoyinka, ünlü qazax şairi Oljas Süleymenov, görkəmli macar türkoloq alimi akademik Ge-

orgi Xazai, tanınmış türk tədqiqatçıları Əhməd Bican Ərcilasun, Osman Fikri Sərtkaya, Yavuz Akpınar və b.), telekörpülər (Naxçıvan, Moskva, Avropa şəhərləri, Orta Asiya paytaxtları), yubiley təntənələri və anım günləri (akademiklər Məmməd Arif, Məmməd Cəfər Cəfərov, Azadə Rüstəmova, Yaşar Qarayev və b. xatirəsinə), imzalanan müqavilə və sənədlər, kitab təqdimatları, əsər müzakirələri, ədəbi proses aktları və s. bu kimi aktual gündəmi ifadə edən tədbirlər; və ya da gündəlik iş rejimi, dissertasiya müdafiələri, elmi şuralar, direktoryanı müşavirələr, imtahan sınaqları, dərs saatları, mühazirələr və s. bu kimi icbari işlər Elektron zalın sadəcə həyat ritmi və fəaliyyət sxemini müəyyən edən fakt və faktorlardır...

Beş ilin çoxsaylı uğur hadisələrini bir bayram qutlamasında axıracan çözmək müşkül; və əslində, lüzumsuz çabadır. Bircə o əyyamları yada salanda ki: nəinki hər gün, hər saatlıq ədəbiyyatşünaslıq qovğalarımız, hər növ elmi tədbirlər, aylıq elmi şuralar və hətta dissertasiya müdafiələri, nə qədər sıcaq olsa belə, "beşinci mərtəbə"nin uzun məsafələri boyu otaqbaotaq dolanıb-gəlib son, İnstitut direktorunun geniş-yığcam kabinetinə yığışar və sığışardı; nerədən nerəyə gəlmişik! – bu uğurlara sevinc pafoslarını qatmamaq olmur! Zaman indi başqa sürət və başqa cürət istəyir; zaman bugün bizdən çeşidli, çoxsəsli, çoxüzlü, çoxtəzahürlü hərəkət istəyir! Belə ki, son beş ilin sürət qatarında uzun məsafələr qət edib, qətiyyət və ürək rahatlığı ilə deyə bilirik: müstəqilliyin nəfəsi Ədəbiyyat İnstitutuna, ən nəhayət, 80 yaşın yubiley təntənələri ilə gəldi...

Əlbəttə, bu həm də o zaman idi ki, AMEA-nın prezidenti akademik Akif Əlizadənin rəhbərliyi altında bütövlükdə Azərbaycan Milli Elmlər Akademiyasında islahat saatları yaşanırdı. Azərbaycan Respublikasının Prezidenti cə-

nab İlham Əliyev 2015-ci ilin 9 noyabr tarixində AMEA-nın 70 illik yubiley yığıncağında Elmlər Akademiyasının dünənini, bugününü və sabahını yüksək qiymətləndirmiş; akademiya qarşısında açılan geniş perspektivlər müstəvisində dəyərli tövsiyələri ilə birgə humanitar elm daşıyıcılarına həm də bizim iyirmi beş illik müstəqilliyimizin tarixini yazmağın zamanı çatdığını söyləmişdi. Digər humanitarlarla yanaşı, Ədəbiyyat İnstitutunun 44 filoloji doktoru, 95 filoloji fəlsəfə doktoru, bütünlükdə 260 işçidən ibarət, monolit və işgüzar elmi kollektivi də artıq bu ana, bu tapşırığa müsəlləh və müntəzir idi. İl ərzində AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu bütünlükdə səfərbər olaraq, 2016-cı ilin 18 oktyabr Müstəqillik gününə, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə, kollektiv əməyin bəhrəsi olan, iki cilddə, 1888 səhifədə fundamental bir tədqiqat – "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" monoqrafiyasını ortaya qoya bildi. Akademik İsa Həbibbəylinin yazdığı kimi: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin alimlərinə çağırışına cavab olaraq meydana çıxmış "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabı Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqil Azərbaycanın 25 illik yubileyinə hədiyyəsi, elmimiz qarşısında hesabatı" idi (İsa Həbibbəyli, Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, I cild, Bakı, "Elm və təhsil", 2016, s. 36).

***

Hər dövr öz tarixi fiqur və şəxsiyyətlərini yetirir. Bizim Ədəbiyyat İnstitutunun tarixində akademik Məmməd Arifin (1939-1950; 1957-1959-cu illərdə İnstitut direktoru),

professor Mirzağa Quluzadənin (1952-1957; 1968-1979-cu illərdə İnstitut direktoru), müxbir üzv Yaşar Qarayevin (1985-2002-ci illərdə İnstitut direktoru) adı ilə bağlı fərqli zamanlar olub. Müstəqillik epoxası akademik İsa Həbibbəylinin adına yazıldı. İsa Həbibbəyli ötən yüzilin yetmişinci illərinin – Azərbaycanda Heydər Əliyev epoxasının yetirməsidir. Ədəbiyyatşünaslıqda akademik Məmməd Cəfərin (1980-1981-ci illərdə İnstitut direktoru) nəzəriyyə məktəbini keçmiş, elə ilk monoqrafiyası "Romantik lirikanın imkanları"ndan (1984) milli ideal, romantizm hərəkatı və romantizm ədəbiyyatı, ümumən klassik ədəbiyyat araşdırıcısı kimi ad və böyük uğur qazanmışdır. İsa Həbibbəylinin milli ədəbiyyatşünaslıq elminin hər növ incəliklərinə bələd universal filoloq kimi yetişməsində AMEA-nın müxbir üzvü Əziz Mirəhmədovun (1981-1985-ci illərdə İnstitut direktoru) ədəbiyyat tarixçiliyi məktəbinin öz payı var. Cəlil Məmmədquluzadə haqqında "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyası (1997), çoxsaylı kitab və məqalələri Mirzə Cəlilşünaslıqda yeni mərhələ açmaqla, İsa Həbibbəylinin realizm axtarıcılığında sonrakı uğurlarının da rəhni olmuş, eyni zamanda ədəbiyyatşünaslıqda yeni bir istiqamətin – "mühitşünaslığ"ın əsasını qoymuşdur. İsa Həbibbəyli bütövlükdə Mirzə Cəlilin Azərbaycançılıq təlimi və ədəbiyyat məktəbindən keçmişdir. Dahi ədibin əsərlərini bugün də durmadan dünya xalqlarının dillərinə çevirtdirib təbliğ etməklə alim həm bu irsə dərindən bağlılığını, həm də o böyük yola sədaqətini daim sübut etmədədir.

İsa Həbibbəyli ictimai xadim və şəxsiyyət olaraq ulu öndər Heydər Əliyevin dövlətçilik məktəbini keçmiş, bugün də layiqli müdavimi olaraq qalır. Bunu alim və elm təşkilatçısının fəaliyyətinin Naxçıvan dövründə, Naxçıvan Dövlət Universitetinin rektoru olaraq işində, 1997-ci ildən

günümüzəcən millət vəkili olaraq fəaliyyətində görürük; qələmə aldığı "Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti" (1998), "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" (2002), "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" (2013), "Ədəbiyyatda Heydər Əliyev obrazı: Tarixi gerçəklikdən ideala" (2018) kitabları akademikin Heydər Əliyev irsinə dərindən nüfuz etdiyini göstərir; başlıcası, Azərbaycançılıq, dövlətçilik – Heydər Əliyev yolu akademik İsa Həbibbəylinin bütün yaradıcı fəaliyyətində söykəndiyi dayaq prinsipləri və  prioritetlərdir.

...Belə ki, dayanıb-durmuş qatarı hərəkətə gətirmək bir hünərdirsə, onu zamanın sürət və tempi ilə yükləmək daha böyük hünərdir. Kardinal istiqaməti düşünsək, bizdə ədəbiyyatşünaslıq platformasının daim üç sürət amili, yainki əyləci olmuşdur; yenə də eynəndir: ədəbiyyat tarixçiliyi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid. Birisinə ayaq sıxmaq kifayətdir ki, qatar platformadan tərpənsin. Akademik İsa Həbibbəyli hər üçünə eyni qədər önəm və sürət verdi...

2016-cı ilin sonları, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 1 dekabr tarixli elmi şurasında akademik İsa Həbibbəyli İnstitutun 2017-2018-ci illər üzrə elmi-tədqiqat işlərinin istiqamətləri haqqında danışarkən, perspektiv tədqiqat planlarının cəmisinin, cüzi istisnalarla, ədəbiyyat tarixçiliyi istiqamətində olacağını bəyan etdi və qərarını əsaslandırdı. İnstitutda "Ədəbiyyat nəzəriyyəsi" və bir sıra köməkçi şöbələri çıxmaqla, bütün şöbələrdə Azərbaycan ədəbiyyatının ən qədim dövrlərindən müstəqillik dövrünəcən milli ədəbiyyatın müxtəlif tarixi mərhələləri tədqiqat obyektidir. Amma tədqiqat planlarında şairlərin, yazıçıların, ədiblərin həyat və yaradıcılığı, əsərlər və mətnlərin araşdırılması əvəzinə, növbənöv "problemlər", nəzəri

müddəalar yer alır, az qala bütün institut "nəzəriyyə" ilə məşğuldur. Akademik İsa Həbibbəyli bu "xəstəliy"in ideoloji kökünü də yada saldı; vaxtilə hələ 1960-cı illərdən, süni "sovet xalqı" yaratmaq niyyətilə, sovet hakimiyyətinin o zamankı baş ideoloqu Mixail Suslovun humanitar elmləri bacardıqca milli tarixlərin araşdırılmasından uzaq salmaq planları belə bir "nəzəriyyəbazlıq" meyillərinə rəvac vermiş, ətalətlə bugün də hökmranlığını sürüməkdədir. Həmən zərərli tendensiyadan yaxa qurtarmaq, şöbələrin bir qayda olaraq öz tədqiqat predmetlərinə qayıtması zamanı gəlmişdi; bu isə o demək idi ki: hər iki-üç ildən bir bu və ya digər klassik haqqında kitablar, toplular, monoqrafiyalar meydana gələ, işıq üzü görə bilərdi...

Nəticələr özünü çox gözlətmədi: İsa Həbibbəylinin "Ədəbi şəxsiyyət və zaman" (Bakı, "Elm və təhsil", 2017), Məhərrəm Qasımlının "Folklor və ədəbiyyat araşdırmaları" (Bakı, "Elm və təhsil", 2017), Fəridə Əzizovanın "Klassik ərəb poeziyasında Azərbaycan şairləri: genezis, poetika" (Bakı, "Elm və təhsil", 2017), Siracəddin Hacının "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanı insanlığın ana yasasıdır" (Bakı, 2015), Zəhra Allahverdiyevanın "Məhsəti Gəncəvinin rübailəri" (Bakı, "Elm və təhsil", 2016), Ataəmi Mirzəyevin "Azərbaycan epik şeirinin təşəkkül dövrü" (Bakı, "Elm və təhsil", 2016), Rəhim Əliyevin "Cavidannamə - monoteizmin dördüncü kitabı" (Bakı, "Alatoran", 2016), Mahirə Quliyevanın "Quran və Azərbaycan ədəbiyyatı" (Bakı, "Elm və təhsil", 2016) və "Molla Pənah Vaqif irsi xalq yaradıcılığı ilə klassik poeziyanın qovşağında" (Bakı, "Elm və təhsil", 2018), Zaman Əsgərlinin "Mirzə Fətəli Axundzadə" (Bakı, Avropa, 2017), Şahbaz Şamıoğlunun "Mirzə Fətəli Axundzadə: müasirləri ilə əlaqələri və bədii yaradıcılığı" (Bakı, "Elm və təhsil", 2017), Lütfiyyə

Əsgərzadənin “Hüseyn Cavid: mühiti və müasirləri” (Bakı, 2016), Asif Rüstəmlinin “Cəfər Cabbarlı və milli istiqlal hərəkatı” (Bakı, 2018), Baba Babayevin “Abdulla Şaiqin nəsr yaradıcılığı” (Bakı, 2018), Esmira Fuadın “XX əsr Güney Azərbaycan epik şeiri” (Bakı, “Elm və təhsil”, 2016), Mühacirətşünaslıq şöbəsinin hazırladığı “Məhəmməd Əmin Rəsulzadə. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr” (tərtibçi Nikpur Cabbarlı, Şamil Vəliyev; Bakı, “Elm, 2016”) və “Ceyhun Hacıbəyli. Əsərləri” (tərtibçi Abid Tahirli; Bakı, “Elm”, 2017), Bədirxan Əhmədlinin “Azərbaycan mühacirət ədəbiyyatı” (Bakı, “Elm və təhsil”, 2017), Tehran Əlişanoğlunun “Milli nəsrdə Azərbaycan obrazı: tarix və müasirlik kontekstində” (Bakı, “Elm və təhsil”, 2017), “Mir Cəlal. Sabirin sənət dünyası” (tərtibçi: Alxan Bayramoğlu, 2017), Qəzənfər Paşayevin “Abbas Zamanov” (Bakı, Gənclik, 2016) və “Hüseyn Kürdoğlunun poetik dünyası” (Bakı, “Sabah”, 2017), Yaşar Qasımbəylinin “Rəsul Rza və ədəbi çağdaşları” (Bakı, “Elm və təhsil”, 2018), XX əsr şöbəsinin hazırladığı “Yaşar Qarayev: yaxından və uzaqdan” (tərtibçi Şirindil Alışanlı, Aygün Bağırlı; Bakı, “Elm”, 2016) və “XX əsr Azərbaycan ədəbiyyatı məsələləri IV kitab. İlyas Əfəndiyev” (tərtibçi Şirindil Alışanlı; Bakı, “Elm”, 2017), Rahid Uluselin “Bir qalanın bürcləri: Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, Nizami Cəfərov” (Bakı, “Elm və təhsil”, 2017), Əlyar Səfərlinin “Seçilmiş əsərləri” (Bakı, “Elm və təhsil”, 2017), Pərvanə Məmmədlinin “Azərbaycan jurnalistika tarixi (sovet dövrü)” (Bakı, “Sabah”, 2017), Vaqif Yusiflinin “Bölgələrdə ədəbi həyat” (Bakı, “Elm və təhsil”, 2017), Elnarə Akimovanın “Çağdaş poeziya və ədəbi təmayüllər” (Bakı, “Elm və təhsil”, 2016), Nərgiz Cabbarlının “Qurtuluşdan sonra. Yeni nəsil ədəbiyyatı” (Bakı, 2017), Gülər Abdullabəyovanın

“Azərbaycanda və Avropada maarifçilik” (rus dilində. Bakı, Mütərcim, 2016), Yelena Teyerin “Nizami Gəncəvinin əsərlərinin Polşada tərcümə və öyrənilməsi” (rus dilində; 2017), Almaz Ülvinin “Özbək ədəbiyyatı” (Bakı, “Elm və təhsil”, 2016), Nizami Məmmədov-Tağısoyun “Qaraçay ədəbiyyatı” (Bakı, “Elm və təhsil”, 2016), Cavidə Məmmədovanın “Azərbaycan və Böyük Britaniya poeziyası” (Bakı, “Elm və təhsil”, 2016), İslam Qəriblinin “Hüseynbala Mirələmov: tarix və müasirlik” (Bakı, “Elm və təhsil”, 2016), Mərziyyə Nəcəfovanın “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” (Bakı, 2017), Lalə Həsənovanın “Çağdaş paradiqma: icmallar, məqalələr, düşüncələr” (Bakı, 2018), Fikrət Əhmədovun “Səhənd” (Bakı, “Nurlar”, 2017); habelə İnstitut Elmi Şurasından keçərək çapda olan: “Nizamişünaslıq” şöbəsinin “Nizami Gəncəvi”, “Yeni dövr” şöbəsinin “Ə.Haqverdiyev”, Əlizadə Əsgərlinin “Bəxtiyar Vahabzadə”, Xədicə İsgəndərlinin “Nəbatinin poetikası”, Salidə Şərifovanın “Klassiklər və müasirlər söz müstəvisində”, Ağahüseyn Şükürovun “Əli Tudənin yaradıcılıq yolu” və s. onlarla monoqrafiya və kitabın nəşrini son illərdə Ədəbiyyat İnstitutunun kollektiv surətdə ədəbiyyat tarixi axtarıcılığının ilk bəhrələri hesab etmək olar...

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda, plan-prospekti hələ ötən əsrin 80-ci illərindən cızılmış, ilk dörd cildi “ədəbiyyatşünaslıq elmimizin patriarxı” (ifadə Qəzənfər Paşayevə məxsusdur) akademik Bəkir Nəbiyevin İnstituta rəhbərlik etdiyi 2003-2012-ci illərdə işıq üzü görmüş “Azərbaycan ədəbiyyatı tarixi” çoxcildliyi hazırlanmaqdadır. Hazırda beşinci cildi nəşrdə olan, son 6-7-ci cildləri üzərində iş gedən çoxcildliyin bu qədər uzun bir zaman məsafəsində ərsəyə gəlməsi, özlüyündə müstəqillik düşüncəsində yeni bir tarixçilik konsepsiyasına hacət olduğundan

xəbər verirdi. Həmin tarixi zərurətdən çıxış edərək, akademik İsa Həbibbəyli "Ədəbiyyat məcmuəsi"nin 2015-ci il XXVI cildində yeni bir "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası"nı irəli sürdü; layihə elmi instansiyalarda müzakirələrdən sonra, geniş əsaslandırılmış variantda ("Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri") mətbuatda və ayrıca kitab şəklində (Bakı, 2018) çap olundu. Eyni zamanda Ədəbiyyat İnstitutunda on cilddə yeni ədəbiyyat tarixinin hazırlanmasına rəvac verildi. Konsepsiyanın praktik tətbiqi, şəksiz ki, həm də onun nəzəri-metodoloji önəmini şərtləndirir.

Akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" əsəri milli ədəbiyyat tarixçiliyi nəzəriyyəsinin yüz ildən artıq inkişafı yolunda irəliyə atılmış böyük addımdır. Konsepsiyada milli ədəbiyyatın gəlişməsinə əvvəlki yanaşmalar, təsnifatlar, dövrləşdirmə prinsipləri geniş, təfərrüatlı və tənqidi baxışla nəzərdən keçirilməklə, Azərbaycan ədəbiyyatı tarixinin yenidən və yeni dövrləşdirmə layihəsi təklif olunur: "Azərbaycan ədəbiyyatı tarixinin aşağıda təqdim olunan dövrləşdirmə modeli ümumdünya ədəbi proseslərinin gedişatı müstəvisində Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində milli ədəbiyyatın keçdiyi təkamül proseslərinin daxili inkişaf qanunauyğunluğundan, təbii məntiqindən doğan elmi təsnifatdır: 1. Qədim dövr Azərbaycan ədəbiyyatı: Etnosdan eposadək; 2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər); 3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər); 4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər); 5. Erkən yeni dövr Azərbaycan ədəbiyyatı (XVII-XVIII əsrlər); 6. Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrü (XIX əsr); 7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX

əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək); 8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-ci illər); 9. Milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi (1960-1980-cı illər); 10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən)".

Konsepsiyada hər bir tarixi mərhələnin azərbaycançılıq mövqeyindən, tarixi gəlişmə və bədii inkişaf məntiqindən izahı, tarixi mündəricəsi, başlıca tendensiyalar vurğulanmaqla yığcam təhlili verilir; klassiklərin və ədəbi şəxsiyyətlərin aparıcı missiyası şərh olunur; irs və varislik məqamları diqqətə alınmaqla milli ədəbiyyatın bütöv bir orqanizm kimi tədricən yetişməsi, böyüməsi, nəhəng fenomenə çevrilməsi, dünya ədəbiyyatları sırasında yeri və mövqeyi təsbit edilir. Qətiyyətlə demək olar ki, akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" əsəri eyni zamanda bugün Ədəbiyyat İnstitutunda hazırlanan Azərbaycan ədəbiyyatı tarixi oncildliyinin geniş və dürüst plan-prospekti rolunu oynayacaqdır. Bu, müstəqillik düşüncəsi ilə hasilə gələn və hazırda milli ədəbiyyat realiyalarını hərtərəfli və dolğun əhatə edən ilk sistemli ədəbiyyat tarixi layihəsidir.

Nəzəri düşüncə hər bir ədəbiyyatşünasın haqqı və borcudur; nəzəriyyəsiz elm olamaz, olsa da qayətdə bietibar olar. Bununla belə, İnstitutda böyük nəzəriyyə məsələləri əsasən İnstitutun ən böyük, "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində (şöbə müdiri f.ü.e.d., prof. Tahirə Məmməd) və əsasən günün aktual tələblərinə yönəlik böyük layihələr əsasında çözülür. Bu baxımdan şöbənin lap bugünlərdə, bayram təntənələrinə yaraşan məqamda çapdan çıxmış "Ədəbiyyat nəzəriyyəsi" ikicildliyini (Bakı, 2018) əsl "beşilliyin hədiyyəsi" hesab etmək olar. Yenicə ərsəyə gəlmiş Nəzəriyyə kitabı həm də onunla əlamətdardır ki, ümumən Niza-

mi Gəncəvi adına Ədəbiyyat İnstitutunun tarixində kollektivin hasilə gətirdiyi ilk Nəzəriyyədir. Müstəqillik fenomeni, bütün sovet dönəminin 70 il ərzində görə bilmədiyi işi sərbəst düşüncənin beş ili ərzində başa gətirmişdir. Qutlu olsun! Buna qədər də İnstitut nəzəriyyəçilərinin işi və gücü İnstitutda daim görünən olmuş və başlıca olaraq, yenə də "ilklər"dən olan nəzəriyyə jurnalı "Poetika.izm"in fərqli və seçkin mündəricatında ifadəsini tapmışdır. İnstitutda nəzəriyyənin məxsusən gəlişməsi son zamanlar burda ədəbi "izmlər"ə aşırı maraqda da qabarıq nəzərə çarpır: realizmdən postmodernəcən... Bu ki, akademik İsa Həbibbəylinin Nəzəriyyə şöbəsinin nəzdində açdığı "Ədəbi cərəyanlar" sektorunu bu istiqamətdə sorunlara cavab axtarışlarının ilkin təzahürü kimi almaq və anlamaq olar.

Ədəbi tənqidin Ədəbiyyat İnstitutunda mövqeyinin möhkəmlənməsi və institusional bir alət kimi funksionallaşması akademik İsa Həbibbəylinin "Ədəbi tənqid" şöbəsini yaratması və onu tanınmış tənqidçi, f.ü.e.d. Vaqif Yusifliyə etibar etməsi ilə başladı. Akademikin başqa bir təşəbbüsü – bir zamanlar İnstitutda mövcud olan (1976-1984-ci illər) və sonralar da (Yaşar Qarayevin və Bəkir Nəbiyevin İnstituta rəhbərliyi zamanında) ara-sıra davam tapan, ədəbi prosesin illik yekunlarının müzakirəsi ənənəsini bərpa etməsi oldu. Başlıcası: həmin tədbirlərdə ədəbi növlər (poeziya, nəsr, dramaturgiya, ədəbi tənqid və ədəbiyyatşünaslıq) və müxtəlif ədəbi problemlər üzrə oxunan məruzələrin toplu şəklində ardıcıl nəşr olunması bütöv bir ədəbi tənqid fəaliyyəti olaraq göründü və tədricən Ədəbiyyat İnstitutunun ölkənin ədəbi həyatında yerini periferiyadan ön sıralara çıxardı. "Ədəbi proses-2013" (Bakı, "Hədəf nəşrləri", 2014), "Ədəbi proses-2014" (Bakı, "Hədəf nəşrləri", 2015), "Ədəbi proses-2015" (Bakı, "Hədəf nəşrləri", 2016), "Ədəbi

proses-2016" (Bakı, "Hədəf nəşrləri", 2017), "Ədəbi proses-2017" (Bakı, "Hədəf nəşrləri", 2018) – ədəbi tənqid topluları nəinki ölkədə son beş ilin ədəbiyyat mənzərələrini ümumən və təfərrüatlarında izləməyə imkan verir, akademik İsa Həbibbəylinin iqrar etdiyi kimi: həm özlüyündə də bir "ədəbi proses hərəkatı" yaratmışdır. Biz də onun ən ön sıralarında...

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ədəbi prosesə daha bir qatqısı akademik İsa Həbibbəylinin "Plyus bədii yaradıcılıq" layihəsidir. Bədii təfəkkürlə elmi təfəkkürün inteqrasiyasına böyük önəm verən akademik İnstitut əməkdaşlarının bədii yaradıcılığını konsentrə edən ayrıca "Ədəbiyyatşünaslıq plyus" şöbəsini (f.ü.e.d., prof. Vüqar Əhməd) təsis etmiş, az bir zamanda şöbə "Plyus bədii yaradıcılıq" ədəbi almanaxının (ideya müəllifi: akademik İsa Həbibbəyli, tərtib edənlər: Vüqar Əhməd, Dilbər Rzayeva) iki kitabını (Bakı, "Elm və təhsil", 2017; 2018) ərsəyə gətirmişdir. Zira araşdırma predmeti gözəllik və bədiiyyat olan instansiyanın eyni zamanda gözəllik və bədiiyyat yaratmasına nə söz?!

Akademik İsa Həbibbəyli "Plyus bədii yaradıcılıq" layihəsini artıq bir neçə ildir AMEA miqyasında həyata keçirilən "Fizika və lirika" tədbirlərinin bir parçası hesab edir. Sanballı elmi məruzələrlə, elmi və bədii təfəkkürün birliyini qapsayan kitab təqdimatları ilə yadda qalan bu hadisə-tədbirlər artıq beynəlxalq maraq kəsb etmişdir; və yaxın zamanlarda MDB ölkələrindən alimlərin iştirakı ilə "Fizika və Lirika: Dünya təcrübəsi və Birlik ölkələrinin elm və ədəbiyyatının reallıqları" Beynəlxalq elmi konfransının Bakıda və Moskvada keçirilməsi də nəzərdə tutulmuşdur. Proyektdən danışarkən, akademik İsa Həbibbəyli İnstitutun elmi şurasının 15 oktyabr 2018-ci il tarixli iclasında vurğuladı:

hələ altmış il öncə, bir zamanlar “Komsomolskaya pravda” qəzetinin səhifələrində başlamış “Fizika və lirika” debatları bugün Azərbaycanda uğurla davam edir... Və özümüzdən onu əlavə edək ki: bugün “Lirika və fizika”nın romantik qanadlarında dünyanın elm mərkəzlərindən birinə – Dubna-ya yol açmaq humanitarilərdən, həqiqətən də, böyük hünər istəyir... Akademik İsa Həbibbəylinin rəhbərliyi ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu bu hünərin sahibidir!

85 yaşın mübarək, doğma İnstitutum!

***Oktyabr 2018***

# İSA HƏBİBBƏYLİ MƏKTƏBİ*

Akademik İsa Həbibbəylinin Ədəbiyyat İnstitutuna rəhbər gəlişi qəfil, qəfil olduğu qədər də qanunauyğun, zərurətdən oldu. Nə zamandır başı naşı ya peşəkar, birbaşa ya dolayısı "postmodern oyunlar"a qarışan İnstitut ən nəhayət, durumun dərkinə varmalıydı, vardı da...

Diskurs necədirsə, mənzərəni də o müəyyən edir. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda həmişə Rəhbər sözü həm də rəhbər Sözdür. Tarix ötüb-keçmişdir üstündən və bu mənada Ədəbiyyat İnstitutu həm də günün ədəbiyyatşünaslıq (Ədəbiyyat haqqında Söz) lüğətidir demək olar. İnstitutda binayi-qədimdən akademik Məmməd Arif zəmanəsinin sözü qalmada (F.Vəlixanlı, N.Araslı, S.Quliyeva...), akademik Məmməd Cəfər zamanlarının izləri görünmədə (Ş.Alışanlı, S.Osmanlı, R.Əliyev, Q.Bayramov...), müxbir üzvlər: Əziz Mirəhmədov dəst-xətti bariz (Z.Əsgərli, İ.Qəribli, A.Bayramoğlu, A.Salmanov...), Yaşar Qarayev məktəbinin tələbləri hökmfərma (T.Məmməd, C.Yusifli, B.Əhmədov, R.Ulusel, T.Əlişanoğlu...), akademik Bəkir Nəbiyev əyyamının nəfəsi hələ də duyulmada (Q.Paşayev, N.Cabbarlı, E.Mehrəliyev...). Gəl ki, indi Söz – təzə, naşı, cavan, cavanlarındır. İsa Həbibbəyli meydanı qeyd-şərtsiz cavanlara verdi...

İsa Həbibbəyli özü də elmdə təzə, cavandır, - desəm, qəbahət olmaz; bugünlərdə 65 yaşının tamam olduğunu bildim, 65 yaş qocaman elm üçün nədir ki?! Daim təzəlik-tərlik, olmayan yerdən Söz ehtirası-eşqi-ovu da elə cavanlıq iksirindən doğmurmu?! İsa Həbibbəylinin səs-səda doğurmuş "Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri" mo-

---

* Məqalə "525-ci qəzet"in 2014-cü il 22 dekabr sayında cüzi ixtisarla dərc olunmuşdur.

noqrafiyasının nəşrindən (Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1997) nə keçibdi ki?! Filoloji elmlər doktoru, professor, Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir və daha sonra həqiqi üzvü, millət vəkili, AMEA vitse-prezidenti! – cəmisi həmin bu monoqrafiyanın intəhasız kölgəsinə sığmırmı?!.

Yazısından belə görünür ki: akademik özünü ədəbiyyatda Məmməd Cəfər məktəbinin yetirməsi sayır, müəlliminə hörmət dolu "Böyük ədəbiyyatşünaslıq uğrunda" məqaləsində yazır: *"XX əsrin altmış-səksəninci illərinin ədəbiyyatşünaslıq elmi üzrə görkəmli sayıla biləcək elm xadimləri sırasında bir neçə böyük şəxsiyyəti ayrıca qeyd etmək lazımdır. Fikrimcə, ədəbiyyatşünas-şəxsiyyətlər epoxası olan bu tarixi mərhələnin elmi-nəzəri dərinlik və əhatəlilik baxımından ən uca zirvəsi Məmməd Cəfər Cəfərovdur..."* (525-ci qəzet, 2 iyun 2014) Amma mənimcə, İsa Həbibbəyli ədəbiyyatşünaslıqda daha da çox Əziz Mirəhmədov xətti-istiqamətinin davamı kimi göründü: ədəbiyyatda fakt-faktura həqiqəti və bir də ideoloji faktor... Həm də birbaşa polemik, təzə söz kimi; monoqrafiyasında nə vaxtdan bəri mübahisəsi gedən problemi, bəs ki: Cəlil Məmmədquluzadənin doğum tarixi 1966-dır, yainki 1969? – birdəfəlik, dəlil-isbatlarla çözə bildi və Azərbaycan realizminin daha üç il cavanlaşmasına imza atdı...

Odur-budur, İsa Həbibbəylini yazdıqlarında həmişə təzəlik axtarışlarına təşnə görürük. Mən onun iri formatda 696 səhifəlik "Ədəbi-tarixi yaddaş və müasirlik" adlı məqalələr toplusuna (Bakı, "Nurlan", 2007) dərindən baxmışam; hər səhifəsi açıq problemlərin açılmamış düyünlərinə aşina... "Kitabi-Dədəm Qorqud"un "yeni tədqiq mərhələsi"ndən "Ələsgər sorağı"na (Folklorşünaslıq), "Azərbaycandan dünyaya": Nizami Gəncəvidən Ustad M.Şəhriyara

(Klassik ədəbiyyat), "Ədəbiyyatımızda Anar zirvəsi"ndən Vaqif Yusifliyə (Çağdaş ədəbiyyat), "Ədəbiyyatın tərifi"ndən "Dialoq haqqında monoloq"acan... (Ədəbiyyat nəzəriyyəsi); "Ustad Mirzə Cəlil Məmmədquluzadə", "Mirzə Ələkbər Sabirimiz", "Böyük ədib və mütəfəkkir Əli bəy Hüseynzadə", "Hüseyn Cavid və sənəti"... – hər yerdə bir vurğu və rakurs aşkar-barizdir: təzə fakt axtarıcılığı və ideoloji təzəlik!

Amma ki, bir baxın, bəxtimizə düşən postmodern epoxa məhz onunla xarakterizə olunur ki: hər hansı sahədə faktik deyilməmiş nəsə qalmamış, qalmışsa da marağı-dadı-hacəti qalmamış. O sıradan ədəbi müstəvidə; çarə – min dəfə deyilmişin min birinci yozumuna sevinə bilməkdədir...

Misallar üçün heç də uzaq getməyəcəm. Ədəbiyyat İnstitutunda fəaliyyətə başlayalı, hər kəsdən hərəkət tələb edən akademikin özünün son ildə, son aylarda neçə məqaləsi dərc olunmuş...

Belə ki: "Böyük ustadım akademik Məmməd Cəfər Cəfərovun xatirəsinə" ünvanladığı "Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsi, görüşləri və "nazimi-ustad" məsələsinə yenidən baxış" adlı məqaləsində (525-ci qəzet, 18 və 25 oktyabr 2014) İsa Həbibbəyli Mirzə Fətəlinin ədəbiyyat islahatlarından bütün bəlli nöqtələri bircə-bircə keçib, gəlib israr edir o məqamın üstündə ki, ədəbiyyat tariximizin hər əyyamı hər dəfə məhz həmin nöqtədən-başlanğıcdan təkan alır: Mirzə Fətəli Axundzadənin Məhəmməd Füzuliyə asi çıxmaqlığı məsələsi... Və: 1, 2, 3, 4 ... düz 10 arqument göstərərək, nəticəyə gəlir ki, burda heç bir "asilik" yoxdur ("asilik" – mənim ifadəmdir- T.Ə.), "obyektiv reallıq" var: *"10. Nəticə: Mirzə Fətəli Axundzadənin fikrincə, Məhəmməd Füzuli klassik romantik şeirin ustadı, yeni realist ədəbiyyatın nazimidir. Bu isə təkcə səhv, yanlışlıq,*

*realizmin müdafiə olunması, nəzirəçiliyin qarşısının alınması deməк olmayıb, həm də obyektiv reallıqdır”.*

Həm o da “obyektiv reallıqdır” ki: postmoderndə Tarix yoxdur, yalnız bugün var; Fukuyamanın yüngül əliylə post-tarix əyyamları Tarixin şaqulunu çevirib qorizontal qoymuş, hər nöqtəsini bugünmüş kimi müasirliyə müncər etmişdir...

O cümlədən İsa Həbibbəylinin qosqocaman Mirzə Fətəlidən ədəbiyyatımızın ən cavan yetirməsi Rəşad Məcid yaradıcılığına transfer edən növbəti, “Roman” və poetikası” məqaləsi də (“Kredo” qəzeti, 6 dekabr 2014) məhz müasirliyi aktualizə etmədə. Bugünə müncər olanda “klassik romantik şeir” ənənəsi (eşq, sevgi fəlsəfəsi) necə “realist ədəbiyyat”da həzm və “nəzm” olunur... – akademik burda mahiranə ustadlıqla isbat eləyir: *“Ümumiyyətlə, “Roman” liro-epik poeması insanın mənəvi bütövlüyünə inam haqqında dəyərli bir epitafiyadır. “Roman” – şeirlə yazılmış macəravari serialdır. Poema janrında yazılmış “Roman” mövzu və mahiyyət etibarilə insanın mənəvi bütövlüyünün və ucalığının romanıdır...”*

Göründüyü kimi, söhbət heç də prozaik romandan yox, eyniadlı kitabdan gedirmiş, təzəlik də məhz bundadır: *“Roman” – Rəşad Məcidin liro-epik şeirlərinin bütöv bir silsiləsidir. Nəhayət, “Roman” Rəşad Məcidin ədəbiyyatda, şeirdə bədii möhürüdür və özünütəsdiqidir. Ümumiyyətlə, Rəşad Məcidi “Roman”dan doğulan şair kimi də, bədii obraz kimi də təsəvvür etmək olur...”* Akademikin qəti və rəhbər sözü şairin romantik-realist sırada yerini təyin edir: *“Rəşad Məcidin romantik-realist üslubu da “Roman”la oturuşmuş bir sistem kimi möhkəmlənir...”* Və bir növ Rəşad Məcidi ədəbiyyatımız üçün kəşf etmiş olur: *“Daxili monoloqlardan yaranmış orijinal bədii əsər kimi “Roman”*

*Rəşad Məcidi Azərbaycan ədəbi mühitinin ön mövqeyinə çıxarır. Rəşad Məcid müstəqillik dövrü Azərbaycan romantik-realist şeirinin tanınmış nümayəndəsi səviyyəsində qəbul olunur”...*

Daha bir misal və daha bir addım. *“Yazıçı Hüseynbala Mirələmova tənqidçi-yazıçı cəmiyyətinin münasibəti”nin “nədənsə birmənalı olmadığı”*nı önə çəkərək, akademik Nizami Cəfərovun kitabına yazdığı Ön Sözdə akademik İsa Həbibbəyli məqama “de-fakto” aydınlıq gətirir: *“Artıq de-fakto Hüseynbala Mirələmov adlı bir yazıçı Azərbaycan cəmiyyətinin gözü qarşısında böyük ədəbiyyata sədaqətini ifadə edən cəlbedici, oxunaqlı, düşündürücü əsərlər yazmaqda, pyesləri tamaşaya qoyulmaqda davam edir...”* (Ön söz, yaxud mənəvi-ictimai mühitin bədii dərki// N.Cəfərov, Hüseynbala Mirələmovun yaradıcılığı və ya ədəbi tərcümeyi-halı. Bakı, AzAtaM, 2014, s. 3). Və 480 səhifəlik, həm də *“Nizami Cəfərovun ədəbiyyatşünaslıq üzrə birinci geniş həcmli monoqrafiyası”*nın ardınca Hüseynbala Mirələmovu “sistemli bir yazıçı” olaraq rəsmən tanıyır və təsdiqləyir: *“O, artıq hansı mövzuda yazırsa-yazsın, cəmiyyət miqyasında düşünən, həyat materialını cəlbedici ədəbiyyat mətninə çevirməyi bacaran, son nəticədə vətəndaş-publisist sözünü ən müxtəlif tərzdə deməyi ilə fərdiləşən sistemli bir yazıçıdır”...*

Beləliklə, görürük ki: az bir müddətdə klassikadan müasirliyə, ədəbi prosesin ən qaynar nöqtələrinəcən cəsarətlə müdaxilə edib rəhbər sözünü söyləyən İsa Həbibbəylinin İnstituta gətirdiyi bu “hərəkət üslubu” onu hər növ “ətalət və bataqlıq” girdabı, hər cür “postmodern oyunlar”ın hədəfi olmaqdan yayındırıb, durumun əsl ifadəçisinə, məktəb və örnəyə çevirməkdədir. Bunu təkcə akademikin özü deyil, yaratdığı qeyd-şərtsiz hərəkət ab-havası da təsdiqlə-

məkdədir; Qəzənfər Paşayev və Vaqif Yusifli, Elnarə Akimova və Nərgiz Cabbarlı, Bədirxan Əhmədov və Asif Rüstəmli, Şəmil Sadıq və Eşqanə Babayeva, Fidan Nizaməddinqızı və Aynurə Paşayeva... (habelə bir çox başqaları) – artıq inam və böyük şövqlə ədəbi prosesdə və beynəlxalq tədbirlərdə, layihələr və çıxışlar şəklində, idarəetmədə və kluarlarda İnstitut rəhbərinin başlatdığı hərəkət işini əsl hərəkata çevirməkdədirlər...

Hərəkət – hər şeydir!, məqsəd də bunda. Akademik İsa Həbibbəylini, cavanlığında Naxçıvan Dövlət Universitetində nə xariqələr-xariqüladələr yaradıbsa... – bunu mən şair Rüstəm Behrudinin 525-də getmiş çox səmimi portret-qeydlərindən bildim ("İçində işıq gəzdirən adam və yaxud Aristoteldən deyilən mühazirə"// 525-ci qəzet, 4 oktyabr 2014), – yenə o ruhda, o əzmdə, o miqyasda görürük. Doğrudur, Akademiyada bir-birinin ardınca, təcili, inqilabi dəyişmələr məhz yuxarıdan islahatların təzahür və nəticələridir; bu ki: cavanlaşma tendensionu mütləqdir! Amma kor olar o göz ki, Ədəbiyyat İnstitutunda əlahiddə fövqəladələri, fövqəl-hərəkatı görməyə, duymaya, etiraf etməyə... Çox təəssüf, ədəbiyyatın qara fəhləsi olduğumdan, çox istəsəm də bu Miqyasların bir çoxusuna (beynəlxalq simpoziumlar, tele-körpülər, elm festivalı, konfranslar, elmi sessiyalar...) elə də qatılmaq imkanım olmur, buna görə oxucu məzur tutsun, cəmisindən tərif deyə bilməyəcəm, amma gördüyümü, bildiyimi, oxuduğumu şahidlik etməyə nə gəlibdi ki...

Ədəbiyyat İnstitutunun ədəbi prosesdə sorağını çıxaran ən çox professor Qəzənfər Paşayevdir, - desəm, yanılmaram məncə. "Ədəbiyyat qəzeti"nin az qala hər sayında bu və ya digər qutlamaları, xeyir-duaları, təqdimatları ilə ("Akademik İsa Həbibbəyliyə məktub", 17 oktyabr 2014; "Hörmətli redaksiya!" , 7 noyabr, 2014; "Koroğlu" operası-

nın tamaşası haqqında düşüncələrim", 5 dekabr 2014; "AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərova məktub", 12 dekabr 2014) sanki atılan hər addımlara ikiqat dəstək verməyə çalışır. Yeri gəlmişkən, hər növ ədəbi siyasətlərə həssaslığı, çevikliyi, adekvat reaksiyası ilə mən Qəzənfər müəllimi Bəkir Nəbiyev məktəbindən bilirəm (haqqında yazdığı "Ədəbiyyatşünaslıq elmimizin patriarxı", Bakı, "Ozan", 2010 – kitabı da az söz demir!); amma bu qədər intensiv, ardıcıl, nəfəs dərmədən, məhz "hərəkət"də (və hərəkatda!) təmsilçiliyini, doğrusu, təsəvvür eləməzdim. Qocaman ədəbiyyat adamına alqışlar! Görünür, hər aşığın dövranından ziyadə, meydanı da gərəkmiş...

Amma məsələn, tənqidçi Vaqif Yusiflini elmdə, həqiqətən də, İsa Həbibbəyli məktəbinin favoriti saymaq olar, mənimcə. Nə olsun ki, Vaqif Yusifli imzası ədəbi tənqiddə 1970-ci illərdən məşhurdur; nə olsun ki, uzun illər AYB himayəsində, "Azərbaycan" jurnalının redaktor müavini kimi fəaliyyəti kölgədə davam tapmış, tənqidçi ədəbiyyatda əsl gənclik çağlarını məhz İsa Həbibbəylinin İnstitutda təsis etdiyi "Ədəbi tənqid" şöbəsinə rəhbər təyinat alandan sonra yaşayır. Heç lap son zamanlaracan Vaqif Yusifli imzası ətrafında bugünkü qədər tərif ardınca tərif, tənqid üstündən tənqid gördünüzmü? Az qala tənqidçinin ədəbi prosesdə hər addımı izlənir, səs-küyə rəvac verir (Məxsusən də "Böyük kitab" yazmaq* haqqına tapınandan sonra!) Təbii ki, bu sözləri mən dərin qısqanclıqla deyirəm. Yenə də bizdə ədəbi-tənqidi prosesin özü də, gözü də Vaqif Yusifli! Akademik Tofiq Hacıyevdən sitat: "Vaqif bu günümüzün Yaşar Qarayevidir, Aydın Məmmədovudur. Bu gün Vaqif kimi istedad sahibi bir neçə tənqidçimiz olsa, bu günündən giley-

---

* Vaqif Yusiflinin Azərbaycan romanı haqqında eyniadlı geniş tədqiqatı nəzərdə tutulur – müəl.

ləndiyimiz, sorağında olduğumuz ədəbi prosesi var görərdik...” (“Ədəbiyyat qəzeti”, 28 noyabr 2014). Doğrudan da, rəhbər sözü, rəhbər söz mövqeyi ayrı şeymiş...

Əgər desəm ki: “Ədəbiyyat qəzeti”nin son, Azər Turan mərhələsi AYB ilə bahəm, Akademiyanın Ədəbiyyat İnstitutu ilə nəfəs alır, - çox da mübaliğə etmiş olmaram. Bunu başqaları da sezmiş, əlbəttə; Qəzənfər Paşayev, Elnarə Akimova, Nərgiz Cabbarlı, Vaqif Yusifli, Rahid Ulusel, Fidan Nizaməddinqızının ardıcıl çıxışları, Rəhim Əliyev, Şirindil Alışanlı, İslam Qəribli, Nizami Tağısoy, Şahbaz Şamıoğlu, Esmira Fuad, Elnarə Zeynalovanın yazıları və s. diqqət çəkməyə bilməzdi, qəzetdə dərc olunan reaksiyalardan da (Q.Paşayev, Tofiq Hacıyev) bunu bilirik. Belə ki: qəzet (sonuncu dəfə 1993-1996-da Sabir Əhmədlidən sonra) Elçin Hüseynbəylinin qısa zamanında (2014) bir daha “solçuluğ”a meyil etmişkən, yenidən “sağ”a reveransında Azər Turanın köməyinə yetən ən çox məhz Ədəbiyyat İnstitutu oldu... Qəzənfər Paşayevdən sitat: *“Məni sevindirən bir də o oldu ki, ədəbiyyat elmimizin flaqmanı Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə əlaqələri möhkəmləndirirsiniz. İnstitutun dörd aliminin maraqlı elmi məqalələrinin qəzetin bir sayında getməsi böyük mətləblərdən xəbər verir...”* (7 noyabr 2014)

“Bir müsahibəyə sözardı” (10 oktyabr 2014), “İşıqlı qəm içində” (17 oktyabr 2014), “Nazlı Bakım, o neft qoxan gülümdən” (24 oktyabr 2014), “Məmməd Arif fenomeni” (31 oktyabr 2014), “Zindan oldu mənə Varşava şəhri” (7 noyabr, 2014), “Yadlaşmayan irsin ünvanı – Kamal Talıbzadə” (21 noyabr 2014), “Mən şeirəm özüm...” (28 noyabr 2014)... – sadaladığım təkcə Elnarə Akimovanın son aylarda “Ədəbiyyat qəzeti”ndə getmiş yazılarıdır. Məmməd Arif, Kamal Talıbzadə, Cəfər Cabbarlı... haqqında nə qədər

yazılmış. On ildən bir “Ədəbiyyat qəzeti”nin yubiley səhifələrini qaldırsan, təxminən eyni məxrəclərə gəlib çıxasısan. Odur ki, təzədən nəsə demək bacarığı özü də hünər! Təki gizli sitatları (fikir, ahəng, ibarə kollajı) yerinə otuzdura və açıq sitatlarda sərrast ola biləsən. Məsələn, mühacirət ədəbiyyatından danışırsansa: Nikpur Cabbarlıdan, C.Cabbarlıdan söz açırsansa: Asif Rüstəmlidən, ümumən ədəbi narazılığı nişan verirsənsə: T.Əlişanoğludan sitat verməyə bilməzsən... Yoxsa onda tənqidin tənqidi funksiyası necə reallaşa bilər?!.

Akademik İsa Həbibbəyli ədəbi prosesin genişliyinə açıq və maraqlıdır. Deyilənə görə, onunla hardan istəsən, necə istəsən, ədəbiyyatın müşkülləri barədə təklif vermək, fikir yürütmək olur. Sağ olsun, elmi tədbirlərin birində, habelə mənim Tənqid.net jurnalımı da bəyəndiyini bəyan etmiş. Akademikin “Böyük ədəbiyyatşünaslıq uğrunda” məqaləsindən sitat verirəm: *“Hələlik isə diqqəti bu istiqamətə yönəltmək üçün qeyd etməyi lazım bilirəm ki, təkpartiyalı sovet sistemindən fərqli olaraq, müstəqillik və demokratik Azərbaycan cəmiyyətinin ədəbiyyatında vahid yaradıcılıq metodu yox, ədəbi prosesdə baş verən bir neçə əsas istiqaməti əks etdirən yaradıcılıq metodları olmalıdır. Artıq ədəbi prosesdə realizmin davamlı ənənələri ilə yanaşı tənqidi realizm, sürrealizm, neorealizm kimi yeni təzahürləri də müşahidə olunur. Postmodernist baxış bir qədər də ədəbi prosesdə müvazinətini saxlayaraq, yaradıcılıq metoduna çevrilmək imkanı qazana bilər. Romantizm və sentimentalizm də Azərbaycanın yeni dövr ədəbiyyatında görünməkdədir. Eksperimental izmlərə də rast gəlmək mümkündür. Bu yaradıcılıq metodlarından, hətta görünüb çəkilən ulduzlar kimi nəzərə çarpan digər izmlərdən Azərbaycan ədəbiyyatında hansının yaradıcılıq metodu səviyyəsində yaşayıb*

*davam edəcəyini, ədəbi prosesdə oturaqlıq qazanacağını ədəbiyyatşünaslığın rəsədxanasından diqqətlə müşahidə etmək lazımdır...”* (525-ci qəzet, 2 iyun 2014)

Və sanki akademikin xeyir-duasından sonra, “Ədəbiyyat qəzeti”ndə ardıcıl dərc olunan “Müqayisəli ədəbiyyat konqresi Azərbaycan postmodernist ədəbiyyatının ən böyük fərqini üzə çıxardı” (31 oktyabr 2014), “Var olanı deyil, görmək istədiyini görmək” (7 noyabr 2014), “Şeirimizin poetik ifadə sistemində ənənənin rolu” (14 noyabr 2014), “Şeirimizdə dekadens ovqat” (5 dekabr 2014) yazılarında cavan tədqiqatçı Nərgiz Cabbarlı sübut etdi ki: doğrudan da, bu haqda geniş danışmağın vaxtı çatmış... Doğrudur, çöküş ovqatının hakim olduğu durumu bizim ədəbi təcrübədə “dekadens” yox, “dekadans” deyirlər; və mənimcə, dekadans bizdə heç də “1990-cı illərin əvvəllərindən başlayaraq” deyil, daha əvvəllərdən gəlir, 1990-cı illəri də özü ilə birgə gətirir... Amma nə bilim, bəlkə belə də olar; “dekadens”, ya “dekadans”, “çöküş”, ya “düşkünlük”, 1990-cı illər, ya daha da əvvəl...

Ən nəhayət, düz 30 illik fasilədən sonra akademik İsa Həbibbəylinin yüngül əliylə Ədəbiyyat İnstitutunun Ədəbi prosesə qayıtmasının daha bir düsturu – “Ədəbi proses-2013”-ün nəşri (Bakı, Hədəf nəşrləri, 2014)! Doğrudur, hələ buna qədər də 1993-də sovet dövrü pozitiv ənənələrinin bərpası niyyətilə İnstitutun direktoru Yaşar Qarayev Akif Hüseynlinin başçılığı altında “Müasir ədəbi proses” şöbəsinə rəvac vermişdi; və 2001-ci ilin 2 fevral tarixində “Ədəbiyyat qəzeti”ndə şöbənin “Poeziyanın gəncliyi və gəncliyin poeziyası” adlı tədbirini şəxsən işıqlandırmağımı da bugünkü kimi xatırlayıram... Və daha sonra, Bəkir Nəbiyevin zamanında missiyanı Elçin Mehrəliyevin başçılığı altında “Müasir Azərbaycan ədəbiyyatı” şöbəsi boynuna aldı; və

son bir neçə il (2009-2011) ard-arda keçirilən illik yekunlar hətta populyarlaşdı və orda-burda ("Azərbaycan" jurnalında, internet saytlarında) qırıq-parça reaksiyalar da doğurdu. Amma bir şeyi ki yaratdın, axıracan arxasında durmaq lazım, durmadın, elə bir nəticəsi də olamaz...

Yazdığı "Ədəbi proses-2013: ənənənin bərpası və yeni mərhələ" adlı ön sözündə akademik İsa Həbibbəyli də təzəlik adına 1, 2, 3, 4... müddəalar sadaladıqdan sonra məhz bunu vurğulayır: *"Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 2 aprel 2014-cü ildə keçirilmiş "Ədəbi proses-2013" yaradıcılıq müşavirəsinin materialları həmin ildə oxuculara təqdim olunur. Hər il nəşr edilməsi qərara alınan toplu əslində "Ədəbi tənqid" jurnalı funksiyasını da həyata keçirir. Bütövlükdə isə "Ədəbi proses" topluları ədəbi tənqidimizin külliyyatı ola biləcəkdir..."* ("Ədəbi proses-2013", s.12)

Topluda bir sıra ənənəvi imzaları (Vaqif Yusifli, Rahid Ulusel, Aydın Dadaşov, Elçin Mehrəliyev) çıxmaqla, ədəbi prosesi təqdim edən yalnız və yalnız gənc tədqiqatçılardır: Nərgiz Cabbarlı (Abdullayeva), Elnarə Akimova, Salidə Şərifova, Fidan Abdurəhmanova, Esmira Fuad (Şükürova)... Lakin akademik İsa Həbibbəyli hər cür gəncliyə yandırdığı yaşıl işıqlar yolunda bununla da qalmayıb, daha da böyük perspektivlər vəd edir: *"Ədəbi proses-2014-cü il"in məruzəçilərinin demək olar ki, hamısının gənclərdən ibarət olması nəzərdə tutulur. Bu, gənc müstəqil ölkənin ədəbiyyatına özünün yetirdiyi yeni nəslin elmi-nəzəri baxışlarının təqdimatı formatında düşünülür"* ("Ədəbi proses-2013", s. 12).

"Hərəkət hər şeydir..." – proqram devizi bütövlükdə İnstituta sirayət etməkdədir...

***15 dekabr 2014***

# ƏDƏBİYYAT İNSTİTUTU BİBLİOQRAFİYA GÜZGÜSÜNDƏ*

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 2013-cü il uğurlarını təsbit edən daha bir kitab işıq üzü gördü: “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Biblioqrafik göstərici – 2013” (Bakı, “Elm və təhsil”, 2015) və bununla da İnstitutun həyatında çevrilişlər ilinin son əsəri də yerini aldı. AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli nəşrə yazdığı “Bir ilin elmi hesabatı, gələcək illərin təməli” adlı ön sözündə 2013-cü ili “keçid ili” kimi xarakterizə edir. Nədən haraya? Akademik yazır: “Akademiyada 2013-cü il durğunluqların qurtarması və islahatların başlanması dövrüdür. Bu mənada 2013-cü ili əslində Akademiyada və Ədəbiyyat İnstitutunda keçid ili kimi təsəvvür etmək olar. Etiraf etməliyik ki, Azərbaycan Milli Elmlər Akademiyasına yeni seçilmiş prezident akademik Akif Əlizadənin apardığı ardıcıl və müvəffəqiyyətli işlərin sayəsində Akademiya keçid dövrünü böyük sürətlə keçə bildi”.

“Biblioqrafik göstərici – 2013” unikal bir layihənin başlanğıcıdır. Unikallığı orasındadır ki, bir yandan bundan əvvəl İnstitutun 80 illiyinə buraxılmış “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşrləri. Kitablar” biblioqrafik göstəricisinin (Bakı, “Elm və təhsil”, 2013)  birbaşa davamı kimi düşünülmüşdür (qeyd etmək gərəkdir ki, həmin göstəricidə hətta 1926-cı ildən 2012-ci iləcən İnsitutun bütün elmi və ədəbi-bədii nəşrləri ehtiva olunmuşdur). Digər tərəfdən isə davamlı olub hər il üçün nəşri nəzərdə tutulmuşdur; yəni İnstitutun hazırkı 2013-cü nəşrləri ilə tanış ol-

---

* Məqalə “525-ci qəzet”in 2015-ci il 13 iyun tarixli sayında dərc olunmuşdur.

duğumuz zamanda “Biblioqrafik göstərici 2014” çapa hazırlanır, “2015” tərtib olunur və s. Hər iki layihənin ideya düşünəri akademik İsa Həbibbəyli bunu “salnamə” adlandırır: “Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu adlı biblioqrafik göstərici bu elmi-tədqiqat ocağında elm sahəsində baş verən dəyişikliyi və inkişafı dolğun şəkildə əks etdirən əhəmiyyətli salnamədir”.

Etiraf edim ki, “biblioqrafik göstəricilərin əsas prinsiplərini yüksək səviyyədə əks etdirən toplu”nu (bu dəyərləndirmə də akademikə məxsusdur!) vərəqlərkən İnstitutun əməkdaşı və bir ədəbiyyatsevər kimi böyük sevinc duydum. Nədən? – bircə-bircə sadalayım, oxucu da sevincimə qatılsın.

Əvvəla, 823 əsas başlıqdan ibarət materiallar İnstitutun böyük kadr potensialından xəbər verir. Müxtəlif şöbələrdə çalışan, ədəbiyyatşünaslığın müxtəlif sahələrində müxtəlif mövzularda qələm işlədən, müxtəlif mərtəbələrdə problemlər həll etməyə girişən 111 əməkdaşın kitabları, elmi və qəzet məqalələri göz qabağında, bilinir hər kişinin lafı əməlindən. İxtisas redaktoru və tərtibçilərdən biri, filologiya üzrə fəlsəfə doktoru Zakirə Əliyeva deyir: “Elmi informasiya və tərcümə” şöbəsində hazırlanmış bu biblioqrafik göstərici Ədəbiyyat İnstitutu əməkdaşlarının 2013-cü ildə nəşr edilmiş monoqrafiyaları, dövri mətbuatda və elmi dərgilərdə dərc edilmiş məqalələri ilə yanaşı, müxtəlif İnternet saytlarında yer almış məqalələri, elmi əhəmiyyətli müşahidələri də əhatə edir. Vəsaitdən səmərəli istifadəni təmin etmək məqsədiylə “Köməkçi göstəricilər” bölməsində əsər başlıqları kitablar, məqalələr, xaricdə nəşr edilən əsərlər, İnternet resursları olmaqla ayrıca yarım-bölmələrdə sistemləşdirilmiş, müəlliflərin əlifba göstəricisi verilmişdir”. Dünənə qədər humanitaridə boşluqdan, ədəbiyyatşünas korpu-

sunun yoxluğundan şikayətlənirdik; bircə təpər, səy, bir məhrəm əl  gərəkmiş ki, günün sürətli ritmində hər yana, hər cürə səpələnmiş bu sitixiyanı, enerjini toparlaya və gö-rükdürə!

İkincisi, hələ vur-tut bir ilin fəaliyyəti-zəhməti-sərgü-zəştlərindən söhbət gedir; akademik İsa Həbibbəyli bunu "Ədəbiyyat İnstitutunun 80 illik yubileyi ilinin elmi hesa-batı" adlandırır. Göstərici bu kəsimdə ədəbiyyatşünaslıq el-minin ümumi mənzərəsi (hansı mövzulara nə qədər diqqət var), problemləri (hansı aktual məsələlər necə qoyulur), is-tiqamət və kəsirlərini (israr olunan və yaddan çıxan mə-qamlar hansılardır) əks etdirməklə bahəm, bütövlükdə Ədə-biyyat İnstitutunun obrazını da yaradır. Çün "Böyük ənənə-lərə malik olan Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan ədəbiyyatşünaslıq elminin baş qərargahı, əsas yaranma və inkişaf mərkəzidir" (İsa Həbibbəyli).

Üçüncüsü, biblioqrafiya elmi kitab prosesinə diqqət cəlb edir: bir ildə 57 kitab, habelə xaricdə nəşr olunan daha 6 kitab! Stixiyalı kitab gəlişməsində hər yarmarkanın öz 10-luğu, 20-liyinə məzənnə qaldırdığı zamanımızda elmi kitabların dövriyyəsini  aktuallaşdırmaq vacibdir, o da ola akademik statusda.

Dördüncüsü, daha bir maraqlı məqam. Elmi prosesin kitablarda, məqalələrdə inikası istər-istəməz azart, yarış hissi doğurur. Yaradıcılıq işində kim daha fəal olmuş, sə-mərəli çalışmış, hansı nəticələr göstərmişdir? İnstitutda el-mi parametrləri ölçmək, elmə həvəsləndirmək, tədqiqata sövq etmək üçün akademik İsa Həbibbəylinin təşəbbüsü ilə indi çox alətlər icad olunubdu; ələlxüsus da gəncliyi! Hələ yaşlılar arasında "İlin alimi" nominasiyasını demirəm, ötən il kitab, məqalə və çıxışlarının sayı-sanbalı-intensivliyinə görə üç gənc alim 2014-ün qalibi adına layiq görüldü. Diq-

qətimi buradaca bir parodoks cəlb edir: həmin qaliblərdən birinin 2013-cü ildə vur-tut bircə məqaləsi dərc olunmuş, digərinin ümumən mətbu yazısı olmamışdır, halbuki 2014-də ən çox çap olunaraq birincilik qazana bilmişlər! Bu da sənə yarış effektinin səmərəsi! “Elmi mühit” vacibdir; akademik haqlıdır: “Bütün bunlar Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi mühitinin yenidən dirçəldilməsinə xidmət etmişdir”.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin layihə rəhbərliyi və ön sözü ilə işıq üzü görmüş biblioqrafiyanın redaktoru filologiya elmləri doktoru Bədirxan Əhmədovdur. Göstəricinin hazırlanmasında tərtibçilər – Zakirə Əliyeva, Sona İbrahimova, Aybəniz Quliyevanın zəhməti böyükdür. Kitab Akademiya və İnstitut həyatını işıqlandıran rəngli şəkillərlə açılır; hər əməkdaşın ayrıca fotosu, habelə kitab şəkilləri ilə bəzədilmiş nəşr yüksək səliqəsi ilə zövq oxşayır. Ən çox da həzz doğuran elmi fəaliyyətin görünən obrazıdır; hərəkətin obrazı.

# BİZDƏ DİSSERTASİYA ŞURASI
## (reportajvari passaj)*

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda institutun direktoru, AMEA-nın vitse-prezidenti, millət vəkili, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə D 01. 131 şifrəli Dissertasiya Şurası işinə çox böyük əzm və şövqlə başlamış. Bunu içində olub, yaxından müşahidə elədiyim elmi-ədəbi prosesin şahidi kimi məmnuniyyətlə deyirəm...

Mənimcə, hər bir ədəbiyyatşünas üçün üç daimi prosesin içində bulunmaq vacibatdandır: 1) öz tədqiqat laboratoriyasının; 2) ədəbi prosesin; 3) ədəbiyyatın refleksə olunduğu elmi prosesin. Deyim ki, iyirmi ildən də çoxdur, birinci və ikinci normaları az-çox ödəyə bildiyim halda, üçüncüsünə girmək şansım nisbətən məhdud olub. İstər sevimli müəllimim Yaşar Qarayevin Ədəbiyyat İnstitutuna rəhbərlik elədiyi 1990-cı illər – 2000-ci illərin əvvəllərində (zaman-zaman müdaxilə edib epizodik iştiraklarda bulunsam da); istərsə də "kənar adamın müşahidələri"ndə tənqidini verdiyim (bax: Tənqid.net jurnalı, № 1, 2006) post-Yaşar Qarayev vaxtlarında...

Akademik İsa Həbibbəyli sədri olduğu D 01.131 şifrəli Dissertasiya Şurasına məni də daxil etdi. "Sən gərək burda olasan..." – dedi. Həm də elmi gəncliyin təmsilçisi kimi. Paradoksa baxın, 55 yaşlı gənc! Əlbəttə, özümü elmdə heç də təzə bilməsəm də, üstəlik az-çox bizim ədəbiyyatşünaslıqda söz sahibi hesab etsəm də, fakt faktlığında qalırdı. Çün akademik onu da vurğuladı ki: əgər İnstitutda 40 yaşa qədər gənclər içərisində elmlər doktoru adını qaza-

---

* Məqalə "525-ci qəzet"in 2015-ci il 29 sentyabr tarixli sayında dərc olunmuşdur.

nanlar olsaydı, onların da nümayəndəsi mütləq Müdafiə Şurasında olacaqdı...

Belə ki, elmi statistika, kadr potensialı məsələsi İnstitut direktorunu məşğul edən, hər Şura iclasında bir daha yada saldığı, qabartdığı söhbətdir. 2013-cü ildə İnstitut əməkdaşları içərisindən vur-tut bir müdafiə vardı, 2014-də – 7 müdafiə, 2015-in bir rübü ərzində artıq 3 müdafiə! Akademik İ.Həbibbəyli deyir: bugün əsas siyasətimiz budur ki, gənclər tədqiqatlarını yekunlaşdırıb yubanmadan müdafiəyə təqdim etsinlər!

Yadıma gəlir, 2000-cilərin tən ortaları, doktorluq müdafiə etdiyim vaxtlar; Müdafiə Şurasında bum, əməlli-başlı növbələr yaranmışdı. Amma məsələ burasındadır ki, ölkənin hər tərəfindən gəlib Ədəbiyyat İnstitutunda dissertasiya müdafiə edənlər İnstitutun öz elmi həyatını kölgədə qoymuşdu. O zaman Tənqid.netin fiksə elədiyi kimi: institut sanki "dissertasiya istehsalı ilə məşğul"du (bax: Tənqid, net, № 1, 2006, s. 135). Nəticə göz qabağındadır. Burdan keçib gedən çoxsaylı doktorlar haralardadırsa, faktiki Ədəbiyyat İnstitutu gənc elmi kadrlara hacət duyur. Burda doktorluğun yaş senzi 55-dən yuxarıdır. 2013-cü ildə instituta rəhbər gələn akademik İsa Həbibbəyli bircə qərarı ilə elmi ədaləti də, Ədəbiyyat İnstitutunun haqqını da geri qaytardı. Filolojinin ümumi qayğıları öz yerində, indi İnstitut içərisindən müdafiəyə can atanların yolu birbaşa, növbədən kənardır! Bu perik düşmüşləri də həvəsləndirdi, gənclərdə elmə olan azartı əməlli-başlı artırdı.

Bu məqamlara həssas yanaşmaqla heç də ölkənin çox geniş şəbəkəyə malik ədəbi-elmi həyatını yalnız Ədəbiyyat İnstitutuna müncər etmək niyyətim yoxdur. Mənə görə, Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Şura bir fokus nöqtəsidir; bütünlükdə elmi prosesləri simvolizə etməyə

imkan verir; həm institutdaxili, həm də ölkə filolojisində. Şuraya üzv olaraq akademik yalnız İnstitut mütəxəssislərini deyil ki, Bakı Dövlət Universitetindən, Azərbaycan Dövlət İdarəetmə Akademiyasından, Bakı Slavyan Universitetindən, Sumqayıt Dövlət Universitetindən, hətta millət vəkili nümayəndələr cəlb etmişdir. Ölkənin hər yanından gəlib, hər kəs D 01. 131 şifrəli Dissertasiya Şurasında müdafiə etmək imkanına malikdir və edir də. Bütün bunlar, əlbəttə, işin texniki tərəfi, göstəriləridir...

Gələk başlıcaya. Bu ki, D 01. 131 şifrəli Dissertasiya Şurası fəaliyyətinə şövqlə başlamışdır – dedik. İlk dörd ay ərzində (yay tətilindən əvvəl) Şuradan keçib, elmi-ədəbi proseslərə qatılan işlərin sadəcə sıralamasını verirəm:

*"Azərbaycan kitabının inkişaf yolu (Qədim dövrdən XIX əsrin sonuna qədər)" – Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq üzrə doktorluq işi;*

*"Çağdaş Azərbaycan şeirinin inkişaf meyilləri (1993-2005-ci illər)" – Azərbaycan ədəbiyyatı üzrə;*

*"Muxtar Auezovun "Abay" romanında epik vüsət və bədii detal" – Türk xalqları ədəbiyyatı üzrə;*

*"Təsəvvüfdə və postmodernizmdə insan və sənət problemi" – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid; Estetika sahələri üzrə doktorluq işi;*

*"Çağdaş Azərbaycan-Amerika ədəbi əlaqələrinin inkişafında bədii tərcümənin rolu (1991-2005-ci illər)" – Azərbaycan ədəbiyyatı; Dünya ədəbiyyatı (ABŞ ədəbiyyatı) üzrə;*

*"Müasir Azərbaycan nəsrinin metod-üslub tipologiyası" – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid;*

*"Azərbaycan tənqidi realist ədəbiyyatında qadın obrazı" – Azərbaycan ədəbiyyatı" üzrə;*

*"Evolyusiya qeroyev i nravstvennıye prinsipi v proze V.Şukşina i İ.Melikzade" ("V.Şukşin və İ.Məlikzadə nəsrində qəhrəmanların təkamülü və mənəvi prinsiplər") – Azərbaycan ədəbiyyatı; Dünya ədəbiyyatı (rus ədəbiyyatı) üzrə.*

Təkcə mövzulara deyil, həm də sahələrə diqqət edilərsə, müdafiə koordinatlarının təxmini əhatəsini, necə geniş zamanlar və hüdudları ehtiva elədiyini fərz etmək olur. Azərbaycan filolojisinin Dünyaya baxışı və dünyabaxışı, Dünya təsəvvürləri və eyni zamanda özünü-təsəvvürü nədən ibarətdir? – bu spektrlərdən aşkar görünür. Bugün filolojidə bizimçün nə aktualdır? Diqqət edin: ***1) klassikaya yenidən baxış; 2) çağdaşlıq problemləri; 3) geniş mənada tərcümə işi (onlarda necədir, bizdə necə?)...***

*Azərbaycan kitabının qədimliyini üç min il əvvələ aparmaq nə verir; hər növ yazıları kitab saymalıyıqmı? Avanqardla modernin fərqi nədir; milli ədəbi prosesdə bu hadisələrin müasir şeir anlayışına münasibəti necədir? Tərcümə materialında bədii detal sənətkarlığı axtarmaq nə dərəcədə doğrudur; orijinalamı aiddir, ya tərcümə ustalığına? Təsəvvüf və postmodern nə dərəcədə tipoloji müqayisəyə gəlir; nə qənaətlərlə, hansı müstəvidə? Çağdaş orijinaldan çevirmələrin sovet dönəmindən üstünlüyü bəlli, bəs kəsirləri də varmıdır? Müasir Azərbaycan nəsrində postmodern ərazilər nə dərəcədə münbitdir; metod-üslub ölçüləri varmıdır? Ədəbiyyatda nədən "qadın problemi" qaldırılır; məsələnin qoyuluşunda bir "kişi yanaşması" duyulmurmu? Rus nəsrində V.Şukşin "kənd nəsri"nin təmsilçisi kimi, adekvat Azərbaycan nəsrində nədən Əkrəm Əylisli yox, İsi Məlikzadə?...*

Akademik İsa Həbibbəyli deyir: Suallar olmalıdır... Və suallar olur; mən hər müdafiə aiotajından yalnız bircə çizgini qabartdım, ötəri təsəvvür yaratmaq üçün. Bəzən su-

al həmlələri o qədər gur olur ki, elə biləsən buradaca dissertasiyaların yeni-yeni fəsilləri yazılacaqdır. Suallar müdafiə edənin xeyrinədir, - deyir akademik... Və həqiqətən də cavablar iddiaçının özünü-təqdim, özünü-ifadə, əsərini müdafiə şansı-fürsəti olur.

Vay halına ki, suallar olmaya. Hər şey dümdürüst, protokol qaydası ilə, məclis ahəstə... Dissertasiya Şurasının çoxstajlı elmi katibi, fil. e. d., prof. İmamverdi Həmidov iddiaçını, iddiaçı dissertasiyasını uzun-uzadı təqdim edir. Öz-özünə peyda olan bir-iki sual. Dissertasiyaya rəylər, rəyçi çıxışları. Rəylərin irad hissələri və müəyyən canlanmaya səbəb iddiaçı cavabları. Elə biləsən iddiaçı əsərini yox, əsər iddiaçını təmizə çıxarır...

Akademik dəqiqdir, dürüstlüyü sevir, açıqdır. Deyir, tutaq ki, biz göz yumduq, halbuki qarşımızda mötəbər bir alimlər şurasıdır. Axı sonra daha bir instansiya var: AAK (Ali Attestasiya Komissiyası). Dissertasiya ordan qayıdıb gələ, iddiaçı nə qazanasıdır?, qayıdıb-gələndən hələ daha bir il də gözləməli olasıdır... Bizdə belədir, hər şey dürüst gərək. Gizlətməyə nə hacət; hətta bəzən İsa müəllim lirik haşıyələrdə olub-keçənlərdən zarafatlar da edir; deyir, deyirəm gəl filankəsə doktorluq mövzusu verək, deyirlər bəs namizədliyi özü yazmayıb, belə olarmı? Bu da bir şux yumordur, kamera üçün deyil. Olmaz, əlbəttə. Bizdə belə olmur! İddiaçı həmişə haqlıdır, əslində...

Axı konkret mövzunu onun tədqiqatçısından gözəl kim bilə bilər?! Bu, sınanmış həqiqətdir. Müdafiə şöləninin ən maraqlı, canlı məqamları, təbii ki, rəsmən protokol hissəsi deyil, ssenaridən kənar şifahi dəqiqələrdir. Bəzən iddiaçı kürsüdə sakit-təmkinli, elə elmi ləyaqət göstərir ki, dissertasiyasını belə arxada qoyur. Yadımda, ədəbi prosesdən tənqidçi kimi tanıdığımız Nərgiz xanım Cabbarlı çağ-

daş şeirin təqdimində (21.04.2015) məhz belə bir parlaq mövqe nümayiş etdirdi. Leyla Həsən qızı Hüseynovanın İsi Məlikzadəni müdafiəsini də (02.07.2015) bu sıraya yazmaq olar. Dissertasiyasından daha yaşlı, peşəkar, tanınmış kitabşünas İmaməddin Zəkiyevin kitabın müdafiəsini nöqtəbənöqtə, tam uğurla başa vurmasını da (31.03.2015) misal gətirməmək olmaz. Bəzən də olur ki, iddiaçı təvazökarlığına sığınıb tədqiqatını kürsüdən gərəyincə danışdıra bilmir. Məsələn, çox gözəl alim Arif Əmrahoğlunun elmi rəhbərliyi ilə yazılmış detal və təfərrüat barəsində çox gözəl dissertasiya, mənimcə, elmə istedadlı bir gəncin gəlişini xəbər versə də, gəl ki həmin Turan Teymurov M.Auezovun "Abay"ını kürsüdən lazımınca təqdim edə, tanıda bilmədi (21.04.2015)... Elə də olur ki, əksinə, iddiaçı müdafiə eyforiyasına elə qapılır ki, min dəlil-sübut gətir, quran ayəsidir sanki, dissertasiyasında yazılanlardan yapışıb-durur; təxminən xanım Aytən Əhmədovanın metod-üslub tipologiyası kimi (30.06.2015)...

Amma ötən semestrdən mənim ən çox yadımda qalan Afaq Əsədovanın post-modernist müdafiəsi oldu. Müdafiəəvvəli havada bir qədər gərginlik duyulurdu; ələlxüsus Şuranın klassik ədəbiyyat tədqiqatçıları qanadında. Necə yəni: təsəvvüf və postmodernizm?; bir-birindən məsafəcə də, mahiyyətcə də uzaq hadisələrin tipoloji yanaşdırılması necə olur? Özü də belə bir vaxtda ki, klassik yanaşma tərəfdarları post-modernizmi ciddiyə almır və qayıdıb post-modern də klassikaya ironik yanaşır. Demə, olurmuş; məhz postmoderndə olurmuş. Afaq xanım Əsədova müdafiə gedişində elə bir performans nümayiş etdirdi, elə bir israr-çılğınlıq-həmləylə dissertasiyasının müdafiəsində durdu ki, mövzuda ehtiyat eləyənlər belə iddiaçısına inandılar! İnanmaya bilməyib, yekdilliklə Afaq xanımın özünü də postmoder-

nist, müdafiəni isə ilk post-modernist müdafiə elan etdilər. Hətta əvvəldə danışmayıb-susmaq fikrində olanlar da danışıb iddiaçı haqqında xoş sözlər söylədilər...

Bu ki, müdafiədə təkcə müdafiəçi sınaqdan çıxmır. Eyni zamanda elmi instansiya təzə nəfəs-rakurs-iddia qarşısında imtahan verir, özü-özünü sınayır... Hərçənd ki, Müdafiə Şuramızda fil.e.d., prof. Qəzənfər Paşayev, fil.e.d., prof. Məhərrəm Qasımlı kimi folklor biliciləri, AMEA-nın müxbir üzvü, fil.e.d., prof. Əlyar Səfərli, fil.e.d., prof. İmamverdi Həmidov, fil.e.d. Fəridə Əzizova kimi klassika xiridarları, fil.e.d., prof. Zaman Əsgərli, fil.e.d., prof. Alxan Məmmədov, fil.e.d., prof. Akif Bayramov, fil.e.d., prof. Bədirxan Əhmədov kimi yeni dövr ədəbiyyatı başbilənləri, fil.e.d., prof. Vaqif Yusifli, fil.e.d., prof. Tehran Mustafayev və b. kimi müasir ədəbiyyat asları var... Postmodernizm burda təzə mövzudur, hər dəfə də auditoriyanı silkələməsə olmur: Anarmı daha çox postmodernistdir, Kamal Abdullamı? Və Afaq Əsədova K.Abdulla mətnlərində elə işarələr-həngamələr-nüansirovkalar tapıb-üzə çıxarır ki, nəinki D 01. 131 şifrəli Dissertasiya Şurası qabağında dura, heç Eyvaz Tahadan prof. Maks Statkiyeviçə beynəlxalq miqyaslı K.Abdulla araşdırıcılarının belə, hələ içi mən qarışıq milli Kamalşünasları demirəm, yatsa yuxusuna girməz; olsa-olsa, bu heyndə bəlkə bir hərfindən nöqbənöqtəsinəcən K.Abdulla mətnlərini de-şifrələyən Mehman Qaraxanoğlu Afaq xanımla bəhsləşə bilə...

Akademik deyir: hər dissertasiya işi elmi söhbət üçün bir bəhanədir... Bu yöndən bizim şuranın sözün həqiqi mənasında aktivistləri var. Fil.e.d., prof., tənqidşünas Şirindil Alışanlının hər mövzuya fərqli baxışı, atmacaları, sualları, fundamental çıxışları, fil. e. d., prof. tənqidçi Rəhim Əliyevin hər mövzu ətrafında maraqlı improvizələri, fil. e. d.,

prof. Əsgər Rəsulovun hər mövzuya dürüst müdaxiləsi, qeydləri, təshihləri, fil.e.d., prof., şair Rafiq Yusifoğlunun mövzu ətrafında oldu-olmadı, odlu-alovlu çıxışları, fil.e.d., prof. Mahirə Quliyevanın hər mövzuya qarşı dəmir məntiqi və məntiqli sualları, komparativist xanım, fil.e.d, prof. Gülər Abdullabəyovanın mövzu ətrafında nagahan passajları və s. və i. olmasa, müdafiə və müzakirələrin ləzzəti olmaz ki...

Elmdə hərtərəfli olmaq çətindir, elə hərtərəfli olduğu üçün də D 01. 131 şifrəli Dissertasiya Şurasının sədri, akademik İsa Həbibbəyli bu gün bizim filolojidə flaqmandır. Şurada gərgin keçən elmi mübahisələrin faydalılıq əmsalını məhz akademik müəyyən edir, hər növ söhbətə rəvac verdiyi kimi, polemikaların da sonunu o təyin edir, nəticə və hasil olan qənaətləri ümumiləşdirir, gələcək perspektivlərə ayna salır. Akademik sanki elmi-ədəbi gedişatla yaşayır; müdafiəyə çıxarılan hər mövzu ilə yaxından tanışdır, hər işə dair konkret sualları və problemin xarakteri ilə bağlı aydın qənaətləri var. Səslənən fikirləri, replikaları, elmə gərək məqamları yerindəcə tutur, inkişaf etdirir, tamamlayır. Elmə münasibətdə səhlənkarlığa, intizamsızlığa, diletantlığa qarşı kəskin olduğu kimi, bəzən amma zarafata salıb: “yəqin ki, belə demək istəyirdin”, yaxud “bu yerdə belə deməlisən” – deyib iddiaçıya dəstək verməyi də bacarır...

Bir sözlə, adlı-ünlü filoloji doktorlarından ibarət D 01. 131 şifrəli Dissertasiya Şurasının kapitanı, əlbəttə ki, akademik özüdür. Sükanı hərdən az müddətə Şuranın sədr müavini fil.e.d., prof. Məmməd Əliyevə tərk edirsə də, nə qəm, təmkin və müdriklik etalonu Məmməd müəllimin dürüst taktları müdafiə prosesinin abhavasını necə var, qoruyub-saxlamağa bəs eləyir. Ta ki: “Akademiyanın prezidenti ilə görüşməliyəm...” – deyə, müvəqqəti bizdən ayrılmış

sədrin tam dəqiqliklə, dediyi vaxtdaca geri dönməsinəcən. Akademik İsa Həbibbəyli işdə-əməldə düzlüyü sevdiyi kimi, sözündə də möhkəmdir...

Bu ki, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Dissertasiya Şurası bu gün etibarlı əllərdədir; milli filolojimiz – həmçinin. Onun Ədəbiyyat İnstitutu kimi elmin sularında ləngər vuran gəmisi var.

***Avqust- sentyabr 2015***

# AKTUAL ELMİ – ƏDƏBİ GƏNCLİK*

*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun “Ədəbiyyat məcmuəsi”nin XXV cildi üzərinə*

Çağdaş Azərbaycanda gənclik aktual problemdir. Cəmiyyət kəsiminin üçdə ikisini gənclər təşkil edir və ictimai həyatı, çoxyönlü fəaliyyəti ilə yanaşı, gənclik öz ədəbiyyatı, sənəti, elmi düşüncə potensialını ortaya qoyur, gerçəkləşdirir.

Hələ dünənə qədər bizim Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda bu sarıdan bir narahatlıq, gənclik xofu vardı; bəs ədəbiyyatşünaslıq elmimizin köklü bazasını verən yaşlı nəslin sıraları seyrəldikcə nə olacaq, yerində institutun dəhlizləri uzunu elə hey ora-bura qaçışan, qaynaşan-sayrışan, hərdən də bir ani boz kütlə təəssüratı oyadan generasionmu tutacaq yerini, əvəz edə, varislik zəncirini qoruya biləcəkmidir?! Akademik İsa Həbibbəylinin özəl təşəbbüsü ilə ərsəyə gələn “Ədəbiyyat məcmuəsi” – AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərlərinin XXV cild, Gənc alimlər üçün Xüsusi buraxılışı bir günün içində həmin xofu dağıtdı.

Məcmuədə 45 gənc alimin Azərbaycan və dünya ədəbiyyatının ən müxtəlif mövzularına müdaxilə edən məqalələri yer almış. Hər bir yazının üzərində müəllifin imzası, elektron ünvanı, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu möhürü. Qəşəng, səliqəli, qürur duyulasıdır. Əlbəttə, məsələ heç də kəmiyyətdə deyil. Ona qalsa, qabağa qaçaraq de-

---

* AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda 2 fevral 2015-ci tarixdə Gənclər Günü münasibətilə “Ədəbiyyat Məcmuəsi”nin elmi gəncliyə həsr olunmuş XXV cildinin təqdimatı mərasimində məruzə edilmiş, “Ədəbiyyat qəzeti”nin 2015-ci il 13 fevral sayında dərc edilmişdir.

yim ki, məcmuədə gəncliyin elmi səviyyəsini ən yüksək, avro-standartlar miqyasında təmsil edən məqalələrlə yanaşı, redaktorların nəzərindən yayınmış müəyyən zəif yazılar da yer tapmışdır. Xüsusi buraxılışın önəmi bütövlükdə mənzərəni görükdürməsindədir. Və bu mənada gənclərin yaradıcılığında pozitivlərin qeyd olunması ilə yanaşı, tənqidi şəkildə sərf-nəzər edilməsi də vacibdir. Fevral ayının 2-də Nizami adına İnstitutun direktoru akademik İsa Həbibbəylinin təşəbbüsü ilə məcmuənin müzakirəsinə yığışmağımızın da niyyəti məhz bu idi.

Məcmuəylə tanışlıqdan sonra əvvəl-əvvəl mən rəyimi "Kişi ədəbiyyatşünaslığında feminist dalğa" vurğusu altda hazırlamaq istədim. Yalnız ona görə yox ki, məcmuədə 45 müəllifdən 38-ni zərif cinsin nümayəndələri təmsil edir. Bu, təəccüblü deyil. Bu gün filolojidə cins kateqoriyası problematikdir. Bakıda bir Qızlar Universiteti var, tələbələri qızlardan ibarətdir. Amma Azərbaycanın bütün ali məktəblərinin filoloji fakültələrini gəzsək, hər yerdə yenə Qızlar Universiteti ilə üzləşəsiyik. Məsələ başqadır. Professor Qorxmaz Quliyev xəbər verir ki: əvvəlcə Fransada yaranıb, sonra bütünlükdə Qərb ədəbiyyatşünaslığına yayılmış "Feminist tənqid" deyilən elmi-fəlsəfi bir cərəyan var. Mahiyyəti, yığcam xülasə etsək, min illər boyu kişi mövqeyi, kişi nəzərlərindən təşəkkül tapan, yaranan, izah olunan mədəniyyətin böhranına cavab olaraq qadın başlanğıcı, qadın rakursundan sərf-nəzər edilməsi, yenidən dərk və izah olunmasındadır (bax: Q.Quliyev, XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı, 2012, s.302-307 ). Və mənə elə gəlir ki, filolojidə bu templə getsək (Əslində qarşımızdakı "Ədəbiyyat məcmuəsi" də bunun bir göstəricisidir), çox tezliklə "feminist ədəbiyyatşünaslıq" sahəsində Fransadan sonra ikinci ola bilərik.

Bizim yaşı və təcrübəsi birmənalı olaraq kişi ölçüləri göstərən ədəbiyyatşünaslığımızda isə metodoloji böhran hələ 1990-cı illərdən, post-sovet zamanlarından mövcuddur. Milli ədəbiyyatşünaslığımızın klassika zirvəsi 1960-1980-ci illərdə qalmış və məcmuəyə yazdığı "Böyük ədəbiyyatşünaslıq uğrunda" adlı ön məqaləsində akademik İsa Həbibbəyli də bütövlükdə bunu iqrar edir, milli ədəbiyyatşünaslığın keçdiyi tarixi yola nəzər salaraq, bügünlü durumuna əlac axtarır.

Bütünlükdə gəncliyin elmi axtarış cəhdləri ilə yadda qalsa da, mənimcə, məcmuədə ən qabaran cəhət: məhz metodoloji çətinliklər, yenilik ehtirası və "metodoloji qalıqlar"ın üz-üzə gəlməsidir. Tədqiqat mövzuları çoxdur, müxtəlifdir, tədqiqat da az deyil, amma ümumilikdə baxıb-görürsən ki: əldə olunan nəticələr çox deyil, filoloji informasiyamızı elə də artırmır, dərinləşdirmir. Gənc alim ədəbiyyatın və milli ədəbiyyatın dəryasına təkrarən baş vurub, klassik ədəbiyyatşünaslıq ölçülərindən fərqli nəsə ələ gətirməyə çalışırsa da, başqa ölçü-rakurs-yanaşma bilmədiyindən, ələ gələn – məlum ədəbiyyat və ədəbiyyatşünaslıq həqiqətlərindən çox da özgə olmur.

Məsələn, Şəmil Sadıqovun "Klassik nəsrə yeni baxış", Əzizağa Nəcəfzadənin "Nizaminin milli mənsubiyyətinə dair", Könül Hacıyevanın "Orta əsr Azərbaycan poeziyası və Şərq ədəbi mühiti (XV əsr ədəbiyyatı əsasında)", Aynurə Mahmudovanın "XVIII əsr Azərbaycan ədəbiyyatında Füzuli təsiri" məqalələrində yeni informasiya cüzidir. Bütövlükdə, milli ədəbiyyatın müxtəlif dövrlərinə yenidən baxmaq zərurəti alqışlanmalıdır; "təkrar biliyin anasıdır", məqalələrdə də təsbit olunduğu kimi, ən azı ideoloji yönəmdən, vahid klassik Şərq ədəbiyyatını bu gün ortaqlığa iddiaçı qonşularımızla dürüst "bölüşmək", mənasız aqressi-

yalardan qorumaq üçün. Bəli, Nizami də bizimdir, Füzuli də bizimdir, Əbdürrəhim bəy Talıbovun "Kitab yüklü eşşək" əsəri də bizimdir; amma gənc nəsil bu həqiqətə yalnız yeni-yeni dəlillər, arqumentasiyalar, demək: daha dərin tədqiqlər hesabına sahib çıxa bilər, nəinki məlum mənbələri, köhnə sitatları təkrarlayıb durmaqla.

Əslində, bütün tarixi ərzində bizim ədəbiyyatşünaslığın əldə etdiyi ən mükəmməl metodologiya tarixi-müqayisəli və tarixi-tipoloji yanaşmadır. Bu ənənələri davam etdirən gənc ədəbiyyatşünaslar tədqiqatlarında daha aydın qənaətlər hasil edir, bəlli elmi həqiqətlərin sərhədini genişləndirmiş olurlar. Məcmuədə Aygün Bağırlının "S.Vurğunun nəzəri-estetik görüşlərində bədii metod və milli forma problemi", Aynurə Mustafayevanın "Səməd Vurğun dramlarında tarixin bədii obrazı", Cavidə Məmmədovanın "Hüseyn Cavidin və F.Nitsşenin fəlsəfəsində mübarizə anlayışı", Lalə Həsənovanın "Müasir nəsrdə bioqrafik roman: janr axtarışları və üslub yenilikləri", Eşqanə Babayevanın "Türk psixoloji romanında Peyami Səfa" kimi məqalələrini misal gətirmək olar. Xüsusən Aynurə Mustafayevanın S.Vurğunun təxəyyül köklü tarixi-bədii konsepsiyasının təsbitində müəllifin özü ilə belə mübahisəyə girməsi cəsarətli addımdır, konkret tədqiqata söykənir.

Hələ 2000-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "Ədəbi tənqidin nəzəri problemlərinə dair" adlı məqaləmdə ədəbiyyatşünaslıqda böhran durumundan bəhs edərkən, milli ədəbiyyatşünaslığın göbəkdən bağlı olduğu rus ədəbiyyatşünaslığı və rus dil mühiti ilə əlaqələri qırmağa tələsməməyi xatırladırdım (bax: T.Əlişanoğlu, Ədəbi tənqidin nəzəri problemlərinə dair. "Ədəbiyyat qəzeti", 27 oktyabr 2000-ci il). Çünki alternativ əcnəbi elmi və dil bazalarının hələ çox uzaqda olduğunu güman edir və bildirirdim.

Üstündən 15 il keçir, yeni ədəbiyyatşünaslar nəsli araşdırmalarında indi daha çox Qərb ədəbiyyatşünaslıq nəzəriyyələrindən gələn nəzəri klişelərə, tədqiqat prinsiplərinə meyil edirlər. Qoy dəblə olsun, qoy yenə də əksərən rus dilinin vasitəçiliyi ilə olsun, tədqiqatda baxış bucağının dəyişməsi, modern düşüncə stereotiplərinə köklənmə ümumən müsbət tendensiyadır. Bir şərtlə ki, bu istiqamətdə tədqiqatın məqsədi aydın olsun, predmetə münasibətdə araşdırma və təhlil metodikası özünü doğrultsun.

“İsi Məlikzadənin “Dədə palıd” povestində ağac arxetip-simvol kimi” (Aynur Xəlilova), “Dağ” mifoloji arxetipi və Məhəmmədhüseyn Şəhriyarın “Heydər babaya salam” poemasında dağ obrazı” (Ruhəngiz Məmmədova), “U.Eko və K.Abdulla yaradıcılığında əlyazma arxetipi” (Elnarə Qaragözova), “Postmodernist poeziyada bədii fiqur” (Elnarə Akimova), “Azərbaycan və qırğız ədəbiyyatında dağ simvolu” (Günay Qarayeva)... Bu sırada mən yalnız “U.Eko və K.Abdulla yaradıcılığında əlyazma arxetipi” məqaləsini uğurlu hesab edirəm; məhz tədqiqat metodunun predmetə müvafiqliyi, onu aça bildiyinə görə. “Arxetip”, “fiqur”, “simvol” axtarışının məqsədi digər məqalələrdə axıracan bilinmir; təsviri səciyyədə qalıb tədqiqatın dərinliyinə aparmır. Nəticədə predmetin dərkində “açar” rolunu oynamalı olan “arxetip-simvol”un konstatasiyası sanki özlüyündə məqsədə çevrilir.

Əvvəldə vurğuladığım kimi, məcmuədə Maral Yaqubovanın “Gerçəkliyin ədəbiyyatı və ya ədəbiyyatın gerçəkliyi” məqaləsi tək müasir standartları ifadə edən nümunələr də var. Təkcə ədəbiyyata münasibətdə hazırkı Qərb humanitarisinin nəzəri mövqeyi və bilgilərini nümayış etdirdiyinə görə yox, başlıcası XX əsr Qərb və rus ədəbiyyatşünaslığını təmsil edən ən müxtəlif nəzəriyyələri həzm edib, mə-

qələnin predmetinə çevirə bildiyinə görə. Yeri gəlmişkən, mənimcə, bu – məcmuədə predmeti məhz nəzəriyyə olan yeganə məqalədir; “Ədəbiyyat nəzəriyyəsi” adı altında verilmiş digər məqalələr ya adındakı nəzəri çalara görə burda yer alır, ya da ki, sadəcə digər bölmələrlə balans yaratmaqdan ötrüdür.

Məqalədə Maral Yaqubova mənbələrə isnadən ədəbiyyat və gerçəklik münasibətlərində Platon və Aristoteldən başlayaraq mimesis-təqlid konsepsiyasının günümüzəcən gəlişməsi və hazırda iflasını səlis şəkildə izləyir; inikas nəzəriyyəsinin bu gün özünü heç cür doğrulda bilməməsinin nəzəri arqumentasiyasını verir. Amma məqalənin lap sonuncu cümləsində qəribə şəkildə geri addım ataraq, inikas nəzəriyyəsinin özünə tapınır: “Yəni istənilən sənət əsəri, istənilən bədii mətn gerçəkliyə nisbətdə şərtidir, bu, incəsənətin məğzini, mahiyyətini ifadə edir” (1, s. 186). Mən həmin məqamı daha çox gənc alimin fikrini dürüst çatdıra bilməməsinə yozuram. Çünki məqalə boyu isnad etdiyi poststrukturalist, postmodernist, dekonstruktivist mövqelərdə “gerçəkliyə nisbətdə sənətin şərti”liyi, ikinciliyindən yox, ümumən “gerçəklik” deyilən bir nəsnənin olmadığı dünyada hər şeyin nisbiliyi-şərtiliyindən söhbət gedir. Bu müddəanı qəbul etməmək, razılaşmamaq olar, bilməyimiz isə vacibdir. Ən azı inikas nəzəriyyəsinin gərəyincə yerimədiyi XX əsrin modern incəsənətinə münasibətdə.

Məcmuənin özündən misal deyəcəyəm. “Ramiz Rövşənin hekayə yaradıcılığı” (Elmira Babayeva) adlı məqalədən belə görünür ki, müəllif yazıçının hekayələrini də və vaxtilə inikas nəzəriyyəsindən çıxış edərək haqqında yazılanları da yaxşı oxuyub. Elə bunun nəticəsidir ki, Ramiz Rövşən hekayəsində israrla fon mənzərələrini, müharibə dövrünün “gerçəkləri”ni axtarır və yazıçının ideya-bədii

niyyətlərini də buna müncər edir. Halbuki ümumən fərd-İnsan mənzərələrinə, dolayısı (fon) təsvirlə deyil, strukturu etibarilə birbaşa İnsan həqiqətinə açılan modern R.Rövşən təhkiyəsini realistik tərzdə oxumaq dürüst nəticə verə bilməz. İnanmıram ki, bu yolda tədqiqatçı R.Rövşən poetikasını aça və oxucuya mətni dərk etməkdə nəsə yardımçı ola bilə. Amma məsələn, Nərmin Azadgil "Oralxan Bukeyevin nəsrində mifoloji simvollar" tədqiqatında daha doğru yolla gedir; qazax yazıçısı O.Bukeyevin ilk baxışda daha realistik təsir bağışlayan mətnlərini tədqiqatçılarına və Qərb ədəbiyyatşünaslığı cəbbəxanasına söykənərək, məhz modern poetika nümunəsi kimi təhlil edir.

Məcmuədə konkret tədqiqata söykənən kifayət qədər informativ məqalələr vardır: Qədim Qubadovun "Qoşma janrının mənşəyi və klassik Azərbaycan ədəbiyyatında yeri", Leyla Ramazanovanın "Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığında Azərbaycan ədəbiyyatı tarixi məsələləri", Nərmin Cahangirovanın "M.Müşfiqin "Səhər" poemasının janr xüsusiyyətləri", Bəsirə Əzizəliyevanın "Mixail Nuaymənin "Mirdadın kitabı" əsərində qədim hind dini-fəlsəfi təlimi", Könül Nəhmətovanın "Əbu Bəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsəri", Nərgiz Hüseynin "Özbəkistanda cədidçilik hərəkatının təşəkkülü və ədəbiyyata təsiri", Xanım Zairovanın "Y.V.Qöte və Azərbaycan romantikləri", Turan Teymurovun "Muxtar Auezov Azərbaycan ədəbiyyatşünaslığında", Mehman Həsənovun "Ç.Aytmatovun "Qiyamət" romanında mifoloji inam və obrazların taleyi", Sübhan Məmmədovun "Erkən orta əsrlər qaynaqlarında "Avesta" və Zərdüşt", Svetmira Quliyevanın "M.S.Ordubadinin "İki çocuğun Avropaya səyahəti" əsərində Şərq ilə Qərbin müqayisəsi" məqalələri yeni mövzuya, yaxud möv-

zunun işlənməsində yeni məqamlara çıxması, diqqət cəlb etmələri ilə önəmlidir.

Amma eyni zamanda məcmuədə tədqiqatın dərinliyinə getməyən, yalnız mövzunun, predmetin sərhədlərini cızmaqla kifayətlənən təsviri səciyyəli məqalələr də vardır. Aytən Qurbanovanın "Azərbaycan ədəbiyyatında portret-hekayələr (1920-1930-cu illər)", Ruhiyyə Nağıyevanın "S.Əhmədovun "Toğana" romanında konflikt", Gülnar Qəmbərovanın "Müstəqillik dövrü nəsrimizdə Qarabağ müharibəsi mövzusu", İlhamə Baxşəliyevanın "Y.V.Çəmənzəminlinin "İki od arasında" romanında tarixi həqiqətin bədii təsdiqi" , Ülkər Zakirqızı (Məmmədova)nın "X əsrdə ərəbcə yazmış azərbaycanlı şairlər", Esmira Rəhimovanın "K.Abdullanın "Yarımçıq əlyazma" romanı ədəbi tənqiddə", Nərgiz Abdullayevanın "Müasir Azərbaycan şeirində ideya axtarışları (1993-2005)", İlhamə Əhmədovanın "Bədii nəsrdə folklora müraciətin İsa Muğanna örnəyi ", Səltənət Əliyevanın "Q.Bürhanəddin "Divan"ında şifahi xalq ədəbiyyatı ənənələri" məqalələri sanki dissertasiyadan bir parça təsiri bağışlayır, məcmuədə elmi aktuallığını görükdürə bilmir. Bu halda gənc tədqiqatçılara dissertasiyalarında daha ciddi olmağı tövsiyə etməyimiz qalır.

Məcmuədə elə məqalələr vardır ki, populyar-kütləvi üslubda qələmə alınmışdır; Səadət Vahabovanın "Ö.F.Nemanzadə publisistikasında milli özünüdərk məsələləri", Xəyalə Əliyevanın "Conatan Safran Foyerin "Hər şey işıqlandırılır" romanında mistifikasiya yaradan üsul və vasitələr", Fatma Hüseynovanın "Mollanəsrəddinçi ədəbiyyatın missiyası: satirik gülüş və gerçəklik", Töhfə Talıbovanın "Türkmənlərin "ruh" dünyası – Məhtimqulu Fəraqbi", Sədi Sadiyevin "XX əsr Almaniya türkləri ədəbiyyatında milli dəyərlər problemi", Kifayət Məmmədovanın "Qulamrza Səbri

Təbrizinin şeir yaradıcılığının fəlsəfi aspektləri" yazıları hər hansı digər mətbuatda ədəbiyyatın təbliği baxımından maraq oyada bilər. Amma "Ədəbiyyat məcmuəsi" üçün elmi vurğusu, problematikliyi gərəyincə deyildir.

Elə məqalələr də vardır ki, ümumən tədqiqatın yarımçıqlığı, tələskənliyi, mövzuya axıracan varmaması, çap xatirinə olması səciyyəsi dərhal duyulur. Fidan Abdurəhmanovanın "Müasir Azərbaycan lirikasının spektral təhlili", Aysel Qurbanovanın "C.Cabbarlının dramaturgiyasında türk dövlətçilik və qəhrəmanlıq tarixinin bədii ifadəsi" yazıları buna misal ola bilər.

Gənclərin elmi yaradıcılığında ümumi bəla kimi akademizm çatışmazlığını  göstərmək olar. Bəlkə də bunun səbəbi xatırlatdığımız "böhran dövrü"ndə akademik elmdə varisliyin qoruna bilməməsidir ki, bu gün gənc nəslin fəaliyyətində geniş şəkildə naşılıq problemlərini doğurur. Bir çox məqalələrin başlığına, açar sözlərə və sonra çevirib istifadə olunmuş ədəbiyyat siyahısına baxmaq bəs edir ki, tədqiqatın elmi qradusunu təyin edəsən. Gənclərdə təzə söz demək istəyi var, amma o sözü demək üçün bu və ya digər mövzunun, problemin tədqiq tarixinə getmək, "köhnə sözlər"i arıtlayıb-ələyib yeniSini məhz bu zaman əldə etmək hünəri-əzmi-hövsələsi, bir sıra istisnaları çıxmaqla, ya yoxdur, ya da zəifdir.

Sonda bir daha onu vurğulayım ki: bugün "gənc" anlayışı yaş senzindən çox, ruhun halını ifadə edir. Bu mənada məxsusən elmdə qocalmaq söhbəti yoxdur. Mən bir məqaləmdə də vurğulamışam: gənclik enerjisi ilə durmadan fəaliyyət göstərən, habelə institutda elmi gənclik üçün şərait yaradan akademik İsa Həbibbəylini buna örnək göstərmək olar. Otuz ilə yaxınsa da ədəbiyyatşünaslıq sahəsində qələm çalıram, Ədəbiyyat naminə söz demək məqamı

gələndə mən də özümü qocalmış saymıram. Eynən Ədəbiyyat İnstitutunda çalışan yaşlı və orta nəsildən olan digər həmkarlarım kimi. Hər hansı elmi problemləri bölüşməyə, dartışmağa, yeri gələndə elmi gənclikdən öyrənməyə də həmişə hazırıq. İrəli gələn gəncliyə tövsiyəmiz də elə budur: öyrənməsək, əlacımız yoxdur!

## ELMİ UZAQGÖRƏNLİKLƏ*

*Akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası" layihəsi üzərinə*

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli "Ədəbiyyat məcmuəsi"ndə "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası" layihəsini dərc etdirməklə (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, Xüsusi buraxılış XXVI cild. Bakı, "Elm və təhsil", 2015, s. 3-8) növbəti cəsarətli və uzaqgörən addımını atmışdır. "Təklif olunan dövrləşmə", "bundan əvvəl XX əsr ədəbiyyatşünaslıq elmində Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi" və "dövrləşdirmə prinsiplərinin şərhi" hissələrindən ibarət yığcam layihə Azərbaycan, ingilis və rus dillərində olmaqla, elmi-ədəbi ictimaiyyətin müzakirəsinə verilmişdir.

Cəsarətlidir, mənimcə. Ona görə ki, hazırda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatı tarixinin yeddicildliyi üzərində elə akademikin özünün rəhbərliyi altında iş gedir; beş cild hazırdır, son iki cild tamamlanma mərhələsindədir. Və həmin bu çoxcildlik akademikin hazırkı dövrləşdirmə "təklif və prinsipləri"nə çox da tuş gəlmir...

Uzaqgörəndir – yenə o səbəbdən ki, axı ərsəyə gəlməkdə olan, tamamlanmamış yeddicildliyin layihəsi düz otuz ildir, hələ sovet dönəmində (ilkin olaraq altıcildlik kimi) verilmişdir... Bu hesabla durub-gözləməli olsaq, daha yeni ədəbiyyat tarixinin yazılması nə vaxta olar? Doğrudur,

---

* "Ədəbiyyat qəzeti"nin 2015-ci il 21 noyabr sayında dərc olunmuşdur.

aralıq mərhələsinə düşdüyündən çoxcildlik dəfələrlə yenidən (Y.Qarayevin vaxtında, B.Nəbiyevin zamanında, T.Kərimlinin yarım-zamanında...) start götürməli olmuş, İsa Həbibbəylinin instituta rəhbər gəlişindən sonra isə intensiv fəaliyyətlə (cild-cild hazırlanma-redaktə-nəşr) başa çatmaqdadır. Əslində akademik İ.Həbibbəyli təzə layihə irəli sürməklə, mövcud çərçivələrdə qalmayıb elmi proseslərin sürəkliliyinə rəvac vermiş olur. Sanki deyir: ədəbiyyat tarixinin dövrləşdirilməsi və yenidən yazılması ardıcıl işə çevrilmədikcə gələcəkdə yenə bizi durğunluqlar gözləyə bilər. Akademikin elmi uzaqgörənliklə irəli atdığı addım Ədəbiyyat tarixçiliyinin bir fənn olaraq hərdəmxəyal istəklərlə deyil, dayanıb-durmadan, intensiv, elmi nəzəriyyə səviyyəsində inkişafını nəzərdə tutur.

Təsəvvür edin, milli ədəbiyyat tariximizin sistemli son "sovet təsnifatı"ndan sonra (müqayisə üçün akademik İ.Həbibbəyli həmin dövrləşdirməni layihədə əyani olaraq sərgiləyir) yarım əsrdir ki, bu məsələyə dair elmi-konseptual, predmeti (milli ədəbiyyat tarixinə dair çoxsaylı tədqiqləri) və zamanın (bu günün) tələblərini eyni qədər ehtiva etmiş olan az-çox ümumiləşdirici baxış ortada yoxdur. Halbuki elm və ədəbiyyat praktikası bunu hər gün tələb edir. Ədəbiyyat tarixinin müxtəlif dövrlərinə dair bir görün nə qədər dissertasiyalar, monoqrafiyalar yazılır, nönvbənöv orta və ali məktəb dərslikləri ortaya çıxır...

Akademik hacətləri hələ qoyuram bir kənara; orta məktəb Ədəbiyyat dərsliklərinin təklif etdiyi təsnifatla ali məktəb filoloji fakültələrində tədris olunan "Ədəbiyyat tarix"ləri arasındakı fərqlərdən, özgəliklərdən, "sürüşmələr"dən biz müəllimlər nə çəkirik, bilənlər bilir, bilməyənlər bilsin. Testdə qəti möhkəmlənib, filolojiyə pənah gətirmiş gənc elm taliblərini (tələbələri) o məqamdan heç cür

adlatmaq (aldatmaq) olmur ki, nədən orta məktəblərin X sinif ədəbiyyat dərsliyində verilən "Azərbaycan ədəbiyyatının orta dövrü" və ali məktəb dərsliyində şərh olunan "orta əsrlər Azərbaycan ədəbiyyatı tarixi" (Ə.Yusifli və X.Yusifov, "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı", Bakı, "Maarif", 1978) anlayışları eyni şey deyil. Yaxud N.Cəfərovun XVII-XVIII əsrlərə şamilən işlətdiyi "Azərbaycan intibahı" və Ə.Səfərlinin bütün orta əsrlər boyu yeriyən "Azərbaycan intibah"ı ayrı-ayrı, hətta biri digərini inkar edən hadisələrdir və s.

Nə qədər də belə misallar çəkmək olar. Odur ki, akademik İsa Həbibbəyli haqlıdır: "Fikrimizcə, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi prinsipləri konkret olaraq müəyyən edilməli, milli ədəbiyyat tarixinin hazırlanmasında, orta və ali məktəblər üçün dərsliklərin yazılmasında, elmi-tədqiqat prosesində vahid qaydada nəzərə alınmalıdır" (s. 4). Və bu məqam irəli sürülən layihənin önəmini bir daha təsdiqləyir.

Doğrudur, ötən illər ərzində Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələsinin vacibliyi bir neçə dəfə (əslində çoxcildliyin ərsəyə gəlməsi boyu!) və məhz nəzəri problem kimi qabardılıb. Hətta fil.e.d. Şirindil Alışanlının "Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı" monoqrafiyasının (Bakı, "Elm", 2011) bütöv bir fəsli dövrləşdirmə probleminə, sovet dönəmi ədəbiyyatşünaslığının bu sahədəki təcrübəsinin nəzəri-tənqidi şərhinə həsr olunub. Bəli, problem var, bəs həlli necə olmalı, Azərbaycan ədəbiyyatı tarixi bugün dünəndən fərqli necə dövrləşdirilməlidir?

Vaxtilə AMEA-nın müxbir üzvü, prof. Nizami Cəfərov "Azərbaycanşünaslığa giriş" əsərində (Bakı, AzAtaM, 2002) problemin həllinə qismən müdaxilə edərək, təklif et-

diyi ümum-ideoloji sırada Ədəbiyyat təsnifatına da yer ayırmışdı. Hətta "Tənqid.net" jurnalı yeni konsepsiyaya önəm verərək, Azərbaycan Atatürk Mərkəzinin bu yöndə məhz Ədəbiyyat İnstitutunun əsas konkurenti, alternativi kimi fəaliyyət göstərəcəyini zənn etmiş, uğurlamışdı da (bax: T.Əlişanoğlu, Tarixi təcrübə, müasir tələblər, əməli iş // Tənqid.net, № 2, 2006, s. 7-19). Amma gümanımızda yanılırmışıq, o zamanlar ədəbiyyat tarixçiliyi istiqamətində yeni və geniş tədqiqatlar sırası gəlmədi. Və biz də dilimizi dişləyib susmalı olduq. Görünür ki, bu işlər əvvəldən məhz Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun adına yazılıbdı...

Beləliklə, görürük ki: cəhdlər olmuşsa da, bütün müstəqillik illəri ərzində bütöv, sistemli, arxasında məhz tədqiqatlar durası ardıcıl ədəbiyyat tarixçiliyi layihəsi olmamış, ilk dəfədir ki, bu şəkildə akademik İsa Həbibbəyli tərəfindən irəli sürülür.

Akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası"nın ən məqbul tərəfi odur ki, milli ədəbiyyat tarixini hələ dünənə qədər hakim olan ideoloji yanaşmadan çıxarır, öz vurğuladığı kimi, aşağıdakı elmi-kulturoloji prinsiplər zəminində izləyir: "1. Sivilizasiya amili; 2. Ədəbi-tarixi proseslərin reallıqları; 3. Azərbaycanda ədəbi cərəyanlar; 4. Azərbaycançılıq məfkurəsi" (s. 4).

Göründüyü kimi, ideoloji faktora (Azərbaycançılıq məfkurəsi) burada da yer var, amma başlıca amil kimi yox, ədəbiyyat tarixində payı olan prinsiplərdən biri kimi. İdeoloji burda ədəbiyyatın gəlişməsini buxovlayan, qəlibə salan (və təhrif edən) hakim qüvvə deyildir, əksinə, özü də bir amil kimi "ədəbi-tarixi proseslərin reallıqları"ndan doğur. Şərq-Qərb sivilizasiyalarının məcrasında tədricən gəlişən,

özünü tapan, cərəyanlaşan milli ədəbiyyat tarixinin özü onu yetirir, formalaşdırır və sonrakı inkişafında konkret məfkurəsinə çevirir. Bunu tam təsəvvür etmək üçün, təbii ki, akademikin təklif etdiyi dövrləşdirmə layihəsinə dərindən nüfuz etmək gərəkdir. Layihə belədir:

"1. Qədim dövr Azərbaycan ədəbiyyatı

- Mifoloji başlanğıc və xalq şeiri;
- Epos epoxası: ortaq türk abidələrindən milli bütövlüyə
- Yazılı ədəbiyyata giriş (IX əsr).

2. Erkən intibah dövrü Azərbaycan ədəbiyyatı (X-XI əsrlər).

3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XII əsr).

4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər)

5. Erkən yeni dövr Azərbaycan ədəbiyyatı (XVII-XVIII əsrlər)

6. Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrü (XIX əsr)

7. Milli-demokratik hərəkat dövrü Azərbaycan ədəbiyyatı (XIX əsrin doxsanıncı illərindən 1937-ci il repressiyalarına qədər)

8. Azərbaycan ədəbiyyatında sosialist realizmi mərhələsi (1920-1960-cı illər)

9. Erkən ən yeni dövr və keçid dövrü Azərbaycan ədəbiyyatı (1960-1995)

10. Azərbaycan ədəbiyyatının müstəqillik dövrü

Konsepsiyanın* özəlliklərinə diqqət edək:

---

* **Qeyd:** Akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası"nı işləyərək zənginləşdirmiş, "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" kitabını çap etdirmişdir (Bakı, 2018). Həmin kitabda təsnifat bu şəkildədir: 1.Qədim dövr

1. İlk dəfə olaraq, akademik İsa Həbibbəyli “Qədim dövr Azərbaycan ədəbiyyatı” anlayışına dürüstlük gətirir; tarixi sərhədlərini dəqiqləşdirir və mündəricəsini təyin edir: mifoloji – epos – ilkin yazı ədəbiyyatı...

Yoxsa ki, əvvəlki təsnifatlarda orta əsrlər İslam Şərqinin dühalarından olan Nizami Gəncəvinin ədəbiyyatımızın qədim dövrünə aid edilməsi ən azından təəccüb doğururdu. Doğrudur, biz müəllimlər: Nizami yaradıcılığındakı antik qaynaq və motivlərə, qədim azərbaycançılıq görüşlərinə (ideoloji!), milli ədəbiyyatın sonrakı mərhələləri üçün zəmin roluna diqqət çəkməklə vəziyyətdən çıxmağa çalışırıq. Amma fakt faktlığında qalır; ibtidai və antik dini inanclar və dünyagörüş, yəni “qədimlik” ədəbiyyatımızın məhz Nizamiyə qədərki dövrünə aid olub, Nizami irsində artıq yüksək islami dünyagörüş səviyyəsindən həzm olunur...

2. Ədəbiyyat tarixçiliyinin məşhur A.Veselovski düsturuna (mifoloji dövr – epos dövrü – yazı mərhələsi) ilk dəfə olaraq yerində və yaradıcı müraciət Azərbaycan ədəbiyyatının tarixən təşəkkülü mərhələsinin ilk baxışda ziddiyyətli görünən bir sıra məqamlarının da dialektik həllinə imkan verir. Belə ki, ümumtürk mifoloji görüşlərini daşıyan (və eyni zamanda əvəz edən) epos epoxası bir yandan sırf milli məcrada (“Oğuznamə”lər, o cümlədən Dədə Qorqud dastanları) ortaq türk yazılı abidələrini yaradırsa (epika), di-

---

Azərbaycan ədəbiyyatı: Etnosdan eposadək; 2.Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər); 3.İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər); 4.Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər); 5.Erkən yeni dövr Azərbaycan ədəbiyyatı (XVII-XVIII əsrlər); 6.Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrü (XIX əsr); 7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək); 8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-ci illər); 9.Milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi (1960-1980-cı illər); 10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən).

gər tərəfdən oğuzların Quran həqiqətinə tapınması nəticəsində tale yazısının lirikada ifadəsi ilə səciyyələnir (VII-IX əsrin ərəbdilli poeziyası). Az qala bütün xalqların ədəbiyyat tarixlərində oxşar mənzərələr vardır. Məsələn, A.Veselovski göstərir ki, qədim romalıların yazılı ədəbiyyatı təşəkkül taparkən milli eposla yanaşı, antik yunan ədəbiyyatının da böyük təsirinə ürcah olmuşdu....

3. Nizami Gəncəvi yaradıcılığı, şəksiz ki, intibah hadisəsidir; bütün XII əsr ədəbiyyat və mədəniyyət əhatəsi ilə birgəlikdə. Akademik İsa Həbibbəyli konsepsiyasında həmin dövrə ayrıca status verməklə, təkcə ötən əsrin 30-cu, 40-cı illərində başlanıb, 80-ci illərində belə bitməyən "intibah həqiqətləri"ni bir daha təsdiqləməklə kifayətlənmir. Eyni zamanda ilk dəfə olaraq, hadisənin ilkin təşəkkül mərhələsinə – "Erkən intibah dövrü Azərbaycan ədəbiyyatına (X-XI əsrlər)" diqqət çəkir. Amma zənnimcə, həmin mərhələnin, dəqiqlik naminə, "erkən intibah" yox, "erkən orta əsrlər intibahı" adlanması daha məqbul olardı. Hər "intibah epoxası"na gətirən və onu yetirən ilkin bənzər təzahürlər olur; belə ki, "erkən orta əsrlər intibahı"ndan danışanlar təkcə A.Metsin "müsəlman renessansı" (IX-X əsrlər) adlandırdığı və Avropa renessansını bir neçə əsr qabaqlamış hadisəni nəzərdə tutmur (bax: А.Мец, Мусульманский ренессанс. Москва, «Наука», 1973, с. 3). Habelə A.Losevin araşdırıb üzə çıxardığı "xristian intibahı"nı (XIII əsr) da buna misal çəkirlər (bax: А.Ф.Лосев, Эстетика возрождения. Москва, «Мысль», 1978, с.15).

Bu hesabla, fikrimcə, konsepsiyanın 3-cü bəndi də "İntibah dövrü" əvəzinə, "İslam intibahı", yaxud da N.Konradın təklif etdiyi "Şərq intibahı" anlayışları ilə (bax: Н.Конрад, Запад и Восток, Москва, 1972) ilişgili formulə edilsə, daha düz olar. Bu həm də "Azərbaycan intibahı"nı

lokal yozumlardan qurtarıb, içində oluşduğu kontekstlərə çıxarar.

4. Terminlər mühümdür. İlk dəfə olaraq akademik İsa Həbibbəyli böyük cəsarətlə "erkən orta əsrlər" (XIII əsrə qədər) və "gec orta əsrlər"dən (XVII-XVIII əsrlər) imtina edərək, "Orta əsrlər Azərbaycan ədəbiyyatı"nın sərhədlərini prinsipiallıqla XIII-XVI əsrlər arasında qapsayır. Çünki həqiqətən də məhz bu dövrdə Azərbaycan ədəbiyyatında (digər türk xalqlarında olduğu kimi) Orta əsrlər islami dünyagörüşü tamlıqda görünür, qeyd-şərtsiz qələbə çalır; Quran fəlsəfəsi (istər ehkam şəklində, istərsə də sufi təfsirlərdə) dərindən mənimsənilərək ədəbi-estetik fikrə hakim kəsilir, məhz bu zəmində orta əsrlər dühası Məhəmməd Füzuli yetişir. Amma mənimcə, əvvəlki bəndlərdə: "erkən orta əsrlər intibahı", "intibah ədəbiyyatı" hadisələrindən sonra bütöv bir mərhələ olan XIII-XVI əsrlər ədəbiyyatımızın "Yetkin orta əsrlər Azərbaycan ədəbiyyatı" adlandırılması bəlkə daha məqsədəuyğun olardı. Bu həm də "orta əsrlər" istilahının konsepsiyada yerini və mənasını daha dəqiq izah edərdi.

5. Terminoloji dəqiqlik istəyir. Sonrakı bəndlərdə, göründüyü kimi, akademik İsa Həbibbəyli ilk dəfə olaraq, milli ədəbiyyat tarixinin inkişaf məntiqini ictimai formasiyaların "feodal asılılığı" və "Qərb ekspansiyası"ndan qurtarıb, məhz "ədəbi-tarixi reallıqlar"a, ədəbi mərhələnin məndəricəsinə müvafiq adlandırır: "erkən yeni dövr", "maarifçi realizm dövrü", "milli-demokratik hərəkat dövrü"... Əlbəttə ki, belə daha düzdür, hər bir milli ədəbiyyat Tarixin diktəsinə öz istədiyi cavabları verir. Amma cürət edib, mərhələlərin adlandırılmasında balaca bir redaktə təklif edərdim. Bir halda ki, ədəbiyyat tariximizdə "erkən yeni dövr"dən danışırıq, demək, hardasa bu "yeni dövr" istilahı bir də təkrar

olunmalı, “sonrası” görünməlidir. Odur ki, konsepsiyada “5. Erkən yeni dövr Azərbaycan ədəbiyyatı (XVII-XVIII əsrlər)” mərhələsindən sonrakı mərhələni, məsələn: “6.Maarifçilik epoxası yeni dövr Azərbaycan ədəbiyyatı (XIX əsr)” – deyə adlandırmaq da olardı.

6. Akademik İsa Həbibbəylinin konsepsiyasında ən yeni yanaşmalar XX əsr Azərbaycan ədəbiyyatına münasibətdə daha da bariz görünür. Bu əsrdə milli ədəbiyyatın inkişaf tempi dəyişir, artıq əsrlərlə deyil, onillərdə görünür. Odur ki, akademikin təsnifatda ədəbi mərhələlərin sərhədlərinə dialektik yanaşması tarixi proseslərə tamamilə uyğun, adekvatdır. İlk dəfə olaraq, akademik İsa Həbibbəyli ona diqqət cəlb edir ki: “7. Milli-demokratik hərəkat dövrü Azərbaycan ədəbiyyatı” heç də XX əsrin əvvəlləri ilə məhdudlaşmır, “1937-ci il repressiyalarına qədər” davam edir. Hətta başqa bir məqaləsində (“Böyük ədəbiyyatşünaslıq uğrunda” – “525-ci qəzet”, 26 may 2015) akademik həmin sərhədləri 1950-ci illərə qədər çəkməkdə də (mühacirət ədəbiyyatını yada salaq!) haqsız görünmür. Bu, eyni zamanda ədəbiyyat tarixinin digər bir mərhələsinin başlanmasına maneə deyildir. Akademikin “8. Azərbaycan ədəbiyyatında sosialist realizmi mərhələsi (1920-1960-cı illər)” – deyə qeydə aldığı həmin sovet epoxasını, mənimcə, hətta 1980-ci illərə qədər də çəkmək olardı...

7. Belə ki, XX əsr plüralizmi ədəbiyyatda cərəyanlaşmağa daha geniş imkanlar açır və əsrin 60-cı illərindən bizim milli ədəbiyyatda da sosrealizmə paralel olaraq başqa mərhələnin əsasları qoyulur. Akademik İsa Həbibbəyli ilk dəfə olaraq, “60-cılar ədəbiyyatı”nın heç də 1980-ci illərdə qalmadığını, 1990-cı illərdə də davam etdiyinə diqqət yönəldir. Konsepsiyada milli ədəbiyyat tarixinin son, müasir dövrünün iki pillədə təqdim olunması məhz canlı “ədəbi

proses reallıqları"na söykənir: "9. Erkən ən yeni dövr və keçid dövrü Azərbaycan ədəbiyyatı (1960-1995); 10. Azərbaycan ədəbiyyatının müstəqillik dövrü".

Bununla belə, onu da qeyd edim ki, ali məktəblərin tədris proqramlarında da yer almış "ən yeni dövr" istilahını bu halda uğursuz hesab edirəm. "Yeni dövr", "ən yeni dövr" (rus dilində: "novoye vremya", "noveyşeye vremya") anlayışları ictimai formasiyalar nəzəriyyəsindən gələrək, konkret tarixi məzmun daşıyır. "Yeni dövr" – burjua cəmiyyətlərinin yaranmasından (XVII-XVIII əsrlər) Birinci Dünya müharibəsinə (1914-1918) qədərki dövrü, "ən yeni dövr" anlayışı isə ondan sonrakı dövrü ehtiva edir. Belə ki, bu hesabla bizim ədəbiyyatımızda "ən yeni dövr"ün 1960-cı illərdən başlaması ən azı qəribə görünür, fikir dolaşıqlığı yarada bilər. Aydındır ki, konkret halda söhbət Azərbaycan ədəbiyyatının yeni mərhələsindən, ən son, "ən yeni dövrü"ndən gedir və mənimcə, terminoloji dolaşıqlıq yaranmasın deyə, burda "dövr" sözünə hacət yoxdur. Eləcə: "ən yeni Azərbaycan ədəbiyyatı"ndan bəhs açmaq kifayətdir.

Beləliklə, görürük ki, akademik İsa Həbibbəylinin irəli sürdüyü "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası" tamamilə yeni, əsaslı, sistemli olub, dərindən düşünülmüş və elmi həqiqətlərə, geniş tədqiqat materiallarına söykənir. Konsepsiya ədəbiyyat tarixçiliyi istiqamətində nəzəri polemika və müzakirələrə meydan açmaqla yanaşı, növbəti çoxcildliklərin yazılmasında fundamental proqram əsası ola bilər. Zənnimcə, layihə akademik İsa Həbibbəylinin humanitar elm sahəsində nəzərdə tutduğu geniş fəaliyyət və hərəkət proqramının bir hissəsidir.

***Avqust 2015***

## "MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI" İKİCİLDLİYİNƏ REZÜME*

*"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyi*** müstəqillik dövrü ədəbiyyatının tarixinə dair, onu bütövlükdə ehtiva edən ilk nəşrdir. *Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin tövsiyəsi* ilə yaranmış, *Dövlət müstəqilliyimizin bərpasının 25 illiyinə* həsr olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubiley tədbirində cənab Prezident milli tariximizin zənginliyini, öyrənilməsinin vacibliyini məxsusi vurğulayaraq, o cümlədən müstəqillik dövrünün tədqiqini də alimlər qarşısında ali məqsəd olaraq qoymuşdur: *"Hesab edirəm, vaxt gəlib çatıb ki, müstəqillik dövrünə həsr edilən sanballı elmi əsər də yaradılsın. Gələn il biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik. Hesab edirəm ki, o vaxta qədər əgər belə sanballı elmi əsər yaradılarsa, bayramımıza çox yaxşı töhfə ola bilər"****.

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, *akademik İsa Həbibbəylinin elmi konsepsiyası və redaktorluğu ilə* İnstitutda hazırlanmış, üzərində 44 müəllif çalışmışdır. Əsər monoqrafik tədqiqat janrındadır. I cild – 7 fəsil (50 ç.v.), II cild – 8 fəsil (68 ç.v.) olmaqla, bütövlükdə 15 fəsildə (118 ç.v.) müstəqillik dövrü ədəbiyyatı hərtərəfli:

-təşəkkülü, formalaşması, inkişafı parametrləri üzrə;

---

* 27 dekabr 2016-cı il tarixində Azərbaycan Milli Kitabxanasında "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyinin təqdimat mərasimində məruzə edilmişdir.

** Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 clddə (Baş redaktor – akademik İsa Həbibbəyli, məsul redaktor – Tehran Əlişanoğlu). I c.– 800 s.. II c. – 1088 s. Bakı, "Elm və təhsil", 2016

*** http://president.az/articles/16703

- mövzu, ideya, problematikası etibarilə;

- ədəbi növ və janr kateqoriyası: poeziya, nəsr, dramaturgiya, publisistika; roman, povest, hekayə, lirik şeir, dramları ehtiva etməklə;

- ədəbi cərəyanlar: realizm, modernizm, postmodernizm;

- ədəbiyyatın sahələri: ədəbi-mədəni proses, ədəbi əlaqələr, uşaq ədəbiyyatı, ədəbi tənqid və ədəbiyyatşünaslıq və s. olmaqla;

- və ən nəhayət: müstəqillik ədəbiyyatını yaradan şair, yazıçı, dramaturqlara həsr olunmuş ayrıca portret-oçerklərdə araşdırılır, təqdim olunur.

Kitaba *akademik İsa Həbibbəyli "Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı" adlı geniş ön sözü*[*] yazmış, burada "müstəqillik ədəbiyyatı"nın fərqli tipologiyasını, səciyyə və parametrlərini, ümumi xarakteri və inkişaf tendensiyalarını şərh etmişdir.

- Müasir Azərbaycan ədəbiyyatı, ilk növbədə azərbaycançılıq məfkurəsi və istiqlal dəyərlərinə: azad Vətən, azad cəmiyyət, azad İnsan ideyalarına söykənir. İdeoloji zəminini Müstəqil Azərbaycan idealı və həmin dəyərlər naminə sovet dönəminin müqavimət hərəkatından götürür. *"Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük uzaqgörənliklə hələ sovet hakimiyyəti dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə ədəbiyyatın və ictimai fikrin ümummilli ideallar əsasında inkişaf etdirilməsinə geniş meydan açması nəticəsində bədii yaradıcılıq müstəqillik ab-havasına çox tez adaptə olmuş, azərbaycançılığın carçısına çevrilmişdir".*

- Müasir Azərbaycan ədəbiyyatı bədii-estetik zəminində milli ədəbiyyatın minillik tarixi yaddaşı, xüsusən XX

---

[*] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə. I cild. Bakı, "Elm və təhsil", 2016, s. 3-36

əsr ədəbiyyatının zəngin xəzinəsi durur. Bu dəyərləri inkişaf etdirməklə, çağdaş ədəbiyyat, eyni zamanda modern dünyanın tələb və təcrübəsinə arxalanır.

- Müasir Azərbaycan ədəbiyyatı ideya-bədii xüsusiyyətləri ilə yanaşı, təşkili baxımından da yenidir, əvvəlki dövrün avtoritar qanunlarından fərqli olaraq plüralistik səciyyə daşıyır.

- Müasir Azərbaycan ədəbiyyatı qlobalizə əsrinin, modern və postmodernin tələblərinə davam gətirməklə, eyni zamanda onu milli əsasda həzm edir dünya ədəbi prosesinin tərkib hissəsinə çevrilir. Ədəbiyyat müasir – XXI əsr insanının zövq və tələblərinə köklənir.

***

Kitabda müstəqillik dövrü Azərbaycan ədəbiyyatı *iki mərhələdə araşdırılmış, ehtiva olunmuşdur*. Birinci mərhələ – *1990-cı illər ədəbiyyatı* I cilddə *müstəqilliyə "keçid dövrü"* kimi səciyyələndirilmiş, dəyərləndirilmişdir. Sovet ideologiyası və düşüncə tərzindən İstiqlal dəyərlərinə, Cümhuriyyət dəyərlərinə, müstəqil dövlətçilik və çağdaş Azərbaycançılığa keçid; estetik planda: romantizm və realizm dəyərlərinə qayıdış, 1960-1980-ci illər modern təcrübəsinin yenidən dəyərləndirilməsinə keçid və s. nəzərdə tutulur. Müstəqillik dövrü ədəbiyyatı məhz bu zəmində formalaşır, mövzuları, ideyaları, inkişaf yolu tədricən müəyyənləşir, prinsipləri təşəkkül tapır. Ədəbi prosesin xarakteri aydınlaşır; sovet dönəminin avtoritar, tək-mərkəzçi prosesi sarsılır, müqavimətlə də olsa, tədricən çoxsəsli, çoxyönlü ədəbi hərəkət və hərəkatlar özünə yol açır.

Müstəqillik dövrü ədəbiyyatının gəlişməsində *Ulu Öndər Heydər Əliyevin ədəbiyyata xüsusi qayğısı, dövləti*

*yanaşması,* 1997-ci il Azərbaycan yazıçılarının X qurultayında və bir çox digər tədbirlərdə müstəqillik ədəbiyyatı haqqında söylədiyi fikirlər, mülahizələr, tövsiyələrinin müstəsna əhəmiyyəti olmuş və bütün bunlar kitabda əksini tapmışdır.

Kitabın 2-ci cildi *"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı müasir mərhələdə"* adlanır. Bu, müstəqillik dəyərlərinin hərtərəfli, tam gücüylə, o cümlədən ədəbiyyatda özünü göstərdiyi dövrdür. Bu, *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyi və uzaqgörən siyasəti ilə* ölkəmizin beynəlxalq aləmdə tanınması, dünyaya inteqrasiyası, ölkəmizdə dünyamiqyaslı tədbirlərin keçirildiyi və dünyanın diqqət mərkəzinə gəldiyi dövrdür. Və bütün bunların müasir ədəbiyyatın səciyyəsinə, funksionallığına birbaşa və dolayı təsirləri vardır. Bu dövrdə müstəqillik ədəbiyyatı tipoloji xüsusiyyətlərini, estetik prinsiplərini tamlıqda göstərir, təzahür etdirir.

İdeoloji dəyər baxımından bu, yenə də *millilik-azərbaycançılıq konseptinə* sadiq ədəbiyyatdır. Üstəlik, yeni keyfiyyətlərlə – azadfikirlilik, plüralizm, demokratizm prinsipləri ilə zənginləşmiş, *sərbəst ideyalar ədəbiyyatı*dır. Eyni zamanda bu, humanizmə və multikultural dəyərlərə söykənən ədəbiyyatdır. Ümumbəşərilik, *insanın – fərdin üstün mənafeyi* istisnasız olaraq prioriteti təşkil edir. Estetik məcrada bu ədəbiyyat *çoxsəsli, çoxyönlü, çoxüslublu ədəbiyyat* kimi təşəkkül tapır.

*Müstəqillik dövrü ədəbiyyatı özündə hansı problemləri* ehtiva edir:

- mövzu qatında bu – İstiqlal mövzusudur, müstəqilliyin sevinci, tərənnümündən tutmuş çətinliklərinə, məsuliyyət yükünə qədər;

- Qarabağ müharibəsi mövzusudur: Vətənin müdafiəsi, erməni faşizminin ifşasından başlamış ümumən müharibə və insan problematikasına qədər;

- müasir insan tematikasıdır – sosial, psixoloji, mənəvi aspektlərindən mübhəm, mistik-sirli, gizlinlərinə qədər çağdaşımızın müşküllərini hədəfə alır, özündə qapsayır.

Bu ədəbiyyatda müasir estetik dəyər və istiqamətlər ən müxtəlif ədəbi cərəyanların təzahüründə özünü göstərir. Müasir Azərbaycan ədəbiyyatı *realizmdən modernizmə keçid mərhələsini* yaşayır.Eyni zamanda *postmodern durumun gətirdiyi baxış tərzlərinin əhatəsindədir*. Tədqiqat milli ədəbiyyatda realizmlə yanaşı, ekzistensializm və magik realizm, dekadans və simvolizm, avanqard və sürrealizm, dekonstruksiya və postmodernizm kimi ədəbi cərəyanların təsir və izlərini üzə çıxarmış, kitabda əks olunmuşdur.

Müasir ədəbiyyatımız ədəbiyyatın əzəli-əbədi kateqoriyaları olan *növ və janrların zənginliyi* baxımından da əlamətdardır. Tədqiqat yazıçılarımızın yaradıcılığında şərtən 9 roman növünü qeydə almış və kitabda illüstrə olunmuşdur. Eyni zamanda rəngarəng povest və hekayələrdə ədəbiyyatımızın hekayəçilik potensialını üzə çıxarmışdır. İstedadlı şairlərimizin simasında minillik şeirin növbənöv modern sintezlərini aşkarlamışdır. Müasir dramaturqların axtarışlarında absurd və yenilikçi teatr tendensiyaları müşahidə olunmuşdur.

Müstəqillik dövrü ədəbiyyatı başlıca olaraq – *ədəbi simalar* deməkdir və dövrün seçimli şairlərinin, yazıçılarının yaradıcılığında təsdiqini tapmışdır. Bu baxımdan kitabda 70-ə qədər yaradıcı insanın *portret-oçerk*i verilmişdir. Bu, ilk növbədə İstiqlal şairləri, ilk İstiqlal ordeninin sahibləri Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və Məmməd Arazdır. Xalq yazıçıları Anar, Elçin, xalq şairləri və xalqın şair-

ləri: Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, Nəriman Həsənzadə, Fikrət Qoca, Vaqif Səmədoğlu, Musa Yaqub, Məmməd İsmayıl, Hüseyn Kürdoğlu, modern yazıçı və şairlər Aqil Abbas, Mövlud Süleymanlı, Ramiz Rövşən, Vaqif Bayatlı, Rüstəm Behrudi, Əjdər Ol, Qəşəm Nəcəfzadə, yaradıcılığı məhz müstəqillik illərində parlayan Hidayət, Kamal Abdulla, Hüseynbala Mirələmov, Rəşad Məcid, Elmira Axundova, Sona Vəliyeva, qadın yazarlar Afaq Məsud, Sara Oğuz, Firuzə Məmmədli, əyalətdə yaşayan Asim Yadigar, İsmayıl İmanzadə, Vaqif Aslan, İltifat Saleh, Barat Vüsal, Ramiz Qusarçaylı və b., dramaturqlar Əli Əmirli və Firuz Mustafa, daha gənc nəsildən Salam Sarvan, Qulu Ağsəs, İlqar Fəhmi və bir çox digər imza sahibləri kitabda ayrıca oçerklə təmsil olunmuşlar.

Məqsəd müstəqillik illərinin yetirdiyi bütün müxtəlifliklərə yer vermək, konkret nəzər salmaqdan ibarətdir. Bütün estetika və poetika məsələlərinə aydınlıq gətirməklə yanaşı, kitabın başlıca niyyətlərindən biri də müstəqillik dövrü ədəbiyyatının faktoloji mənzərəsini yaratmaqdır.

Müasir Azərbaycan ədəbiyyatı *yeni Azərbaycanın obrazını* yaratdığı, dünyaya tanıtdığı kimi, 2-cildliyin əsas məqsədi də bu həqiqəti üzə çıxarmaq, bəyan etməkdən ibarət olmuşdur.

***

Müasir Azərbaycan ədəbiyyatına dair *"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyindən* əxz olunmuş qənaətləri belə rezüme etmək olar:

1. Müasir Azərbaycan ədəbiyyatı Azərbaycan xalqının dövlət müstəqilliyi qazandığı dövrün ədəbiyyatıdır. Ti-

pologiya etibarilə *fərqli və yeni ədəbiyyatdır*, müstəqillik dövrünün yaratdığı ideya-bədii dəyərləri özündə qapsayır.

2. Müasir Azərbaycan ədəbiyyatı ilk növbədə *azərbaycançılıq məfkurəsi və istiqlal dəyərlərinə* söykənir. Eyni zamanda müasir dünya və çağdaş dövlətçilik tələbləri kontekstində inkişaf edir.

3. Müasir Azərbaycan ədəbiyyatı *bədii-estetik arsenalını* milli ədəbiyyatın zəngin xəzinəsindən, xüsusən müasirlik tendensiyalarının qabarıq ifadə olunduğu XX əsr ərazilərindən alır. Eyni zamanda həmin dəyərləri gəlişdirərək çağdaş, modern dünyanın tələbləri səviyyəsinə qaldırır.

4. Müasir Azərbaycan ədəbiyyatı həm *mövzu-mündəricə və forma-ifadə* baxımından, həm də *ədəbi prosesin təşkili, funksional strukturu* etibarilə əvvəlki dövr ədəbiyyatından fərqlənir; yeni və rəngarəngdir.

5. Müasir Azərbaycan ədəbiyyatı *qlobalizə əsrinin, modern və postmodern ərazilərin təsir və əhatəsində* inkişaf edir. Dünya dəyərlərini intensiv şəkildə həzm edir və dünya ədəbi prosesinə inteqrasiya olunur. Sovet dönəmindəki birmərkəzçilik, vahid ideya-bədii tələblər *plüralist seçimə əsaslanan çoxsəsli, çoxölçülü, çoxspektrli ədəbi mühitlə* əvəzlənir. Ədəbiyyat XXI əsr insanının zövq və tələblərinə köklənir.

6. Müasir Azərbaycan ədəbiyyatı post-sovet məkanı və zamanından çıxmaqla, eyni zamanda "post-kolonial qalıqlar"dan qurtulmaqda oxucuya və milli topluma yardımçı olmağa çalışır. Bütün müstəqillik illəri ərzində Azərbaycan xalqı və cəmiyyətinin ağrısına çevrilmiş *Qarabağ müharibəsi ədəbiyyatın* da *əsas mövzusu* olaraq qalır. Bununla belə, mövzunun bədii dərki lokal çərçivədə – "qonşu davası" aspektində qalmayıb, getdikcə dərinləşir, çoxçeşidli planda,

milli özünüdərk və insani dəyərlər müstəvisində həllini axtarır.

7. Müasir Azərbaycan ədəbiyyatı dünya miqyasında modern və postmodern ədəbiyyatında gedən proseslərin içərisindədir. *Çoxcərəyanlı, çoxüslublu, janrların dinamikasında mövcud olan, təzahür edən ədəbiyyatdır*. Milli realizmin zənginliyini, romantik pafosun saflığını saxlamaqla yanaşı, bütün XX əsr boyu gecikdiyi *ədəbi cərəyanların* – dekadans və simvolizmin, ekzistensializm və magik realizmin, sürrealizm və avanqardın, modernizm və postmodernizmin aktivlərini sürətlə gerçəkləşdirməyə də tələsir.

8. Müasir Azərbaycan ədəbiyyatında ənənəvi *ədəbi növ və janrların* nisbəti həyatın və inkişafın nəfinə çevik olmaqda davam edir, dəyişir və dəyişməkdədir. Yüksək zövqlü və geniş oxucu dairələri postmodernin "oxu siyasəti"nə cavab olaraq, bol və məhsuldar kitab bazarından istədiyi, öz zövqünə uyğun ədəbiyyatı tapa və oxuya bilir. Bu zaman *bədii-estetik dəyərlər* ədəbi prosesin məntiqini dominant mövqeyini qoruyub-saxlamaqla diktə edir.

9. Müasir Azərbaycan ədəbiyyatında *roman janrının mövqeyi* qabarıqdır. Müstəqillik dövrünün başlanğıcında janrın böhranından çıxaraq, hazırda roman janrı bütün rəngarəngliyi ilə zamanın sözünü deməyə çalışır. O cümlədən tədqiqat doqquz roman növünü fərqləndirmişdir: Qarabağ mövzusunda müharibə romanları; realist-psixoloji roman; şərti-metaforik roman; modernist-ekzistensial romanlar; tarixi roman; bədii-sənədli nəsr; postmodern roman; gənclərin roman axtarışları; detektiv romanlar. Bu, müstəqillik dövrünün roman təsnifatıdır.

10. Müasir Azərbaycan ədəbiyyatında *hekayəçilik və povestin qüvvətli ənənələri* qorunub saxlanmışdır. Bununla belə, günün təsvirini verən yeni ənənələrin də əsası qoyul-

muş, süjetin mərkəzinə bütün pozitiv və neqativləri ilə, görünən və görünməyən tərəfləri ilə İnsan gəlmişdir. Tədqiqat müasir Azərbaycan hekayəsinin: realizm, modernizm və postmodern məcrada gəlişdiyini göstərmişdir.

11. Müasir Azərbaycan ədəbiyyatında *lirik və epik şeir* minillik poetik ənənələrə söykənməklə, yeni tendensiyalar, təmayüllər də özünü büruzə vermişdir. Lirik subyektin dünyaya açıqlığı milli poeziya təcrübəsini dünya şeirinin avanqard meyilləri ilə üzləşdirməyə, polemika açmağa, dialoqa girməyə imkan vermiş, nəticədə janrın təbiətində yeni keyfiyyətlər üzə çıxmışdır.

12. Müasir Azərbaycan ədəbiyyatında *dramaturgiya modern teatr estetikası ilə vəhdətdə* inkişaf etmişdir. Dramatik konfliktlərin yönü cəmiyyət mənzərələrindən İnsan içinin gizlinlərinə doğru daşınmaqda davam etmiş, qarşılaşdığı absurd problem və situasiyalara qarşı insanın cavab axtarışları səhnə sənətində ön mövqeyə keçmişdir. Teatr və dramaturgiya yeni dramaturqlar nəslini irəli çəkdiyi kimi, müstəqillik illərinin qabaqcıl dünyagörüşlü tamaşaçı auditoriyalarını da yetirmişdir.

13. Müasir Azərbaycan ədəbiyyatı *humanist və multikultural dəyərlər* daşıyıcısıdır. *Yeni Azərbaycanın obrazını* dünyaya bəyan etmək və tanıtmaq bu ədəbiyyatın ali məqsədi və missiyasıdır.

***Oktyabr 2016***

# ӘDӘBİYYAT TARİXÇİLİYİ: UNİVERSAL AKADEMİZMDӘN AKADEMİK UNİVERSALİYAYA*

*İsa Həbibbəyli, Ədəbi şəxsiyyət və zaman. Bakı, "Elm və təhsil", 2017*

Akademik İsa Həbibbəyli bu gün Azərbaycan ədəbiyyatşünaslığında ən mötəbər söz sahibidir. Ədəbiyyatın canlı praktikasına təmasdan hərtərəfli elmi öyrənilməsi və intişarınacan bütün incəliklərinə varan, tarixi dərinlərinə baş vurub gündəm genişliyinə açılan alimin fəaliyyəti əsl akademik universaliya örnəyidir. Bu gün ədəbiyyatın elə bir sahəsi, meydanı, instansiyasını tapmaq çətindir ki, akademikin iti və miqyaslı nəzərlərindən yayınmış olsun, bilavasitə fəaliyyət predmetinə çevrilməsin. Ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixçiliyi, ədəbi proses və tənqid, ədəbiyyat maarifçiliyi: ədəbiyyatın tədrisi, təbliği və təşviqi məsələləri, elm təşkilatçılığı və ədəbiyyatın inkişaf strategiyası...

Akademikin bu yaxınlarda çapdan çıxmış və artıq elmi ictimaiyyətin kifayət qədər marağına səbəb olmuş iri həcmli (1068 səh.) "Ədəbi şəxsiyyət və zaman" kitabı bütövlükdə bu həqiqəti təsdiq etməklə yanaşı, hələ yalnız bir istiqaməti - ədəbiyyat tarixçiliyini ehtiva edir. Ən qədim dövrdən günümüzəcən Azərbaycan ədəbiyyatının varlığını, tarixi sərhədləri və bütünlüyünü, faktları, mərhələləri və şəxsiyyətlərini nəinki bilmək, təsəvvür etmək, üstəlik təsvir və şərh etmək, dərk və təhlil etmək, dəyərləndirmək, müasir canlı obrazını təqdim etmək ayrıca bir tədqiqatçı

---

* Məqalə "525-ci qəzet"in 2017-ci il 23 noyabr tarixli sayında dərc edilmişdir.

üçün asan məsələ deyil. Təqribən 1300-1500 illik bir məsafəni əhatə edən həmin mənzərələri uzun və intensiv tədqiqatlardan sonra adətən akademik kollektivlər yekunlaşdırır (yada salaq: Ədəbiyyat İnstitutunun 1943-1944-cü il ikicildliyini; 1957-1960-cı il üçcildliyini; 2004-cü ildən nəşr olunan yeddi cildliyi). Ayrılıqda bu uzaqmənzilli niyyətlərə yalnız akademiklər cürət edirlər və İsa Həbibbəylinin "Ədəbi şəxsiyyət və zaman" kitabını akademik elmdə yaranmış böyük fasilədən sonra belə bir mötəbər cəhdə yozmaq olar. "Klassik ədəbiyyat", "Erkən yeni dövr", "Realizm epoxası" ("Maarifçi realizm", "Tənqidi realizm"), "Azərbaycan romantizmi", "Ədəbiyyatşünaslıq", "Azərbaycan mühacirət ədəbiyyatı", "Çətin yollarda" (sovet dövrü), "Müasirlik işığında", "Müstəqillik andı"... - müxtəlif illərdə qələmə alınmış 67 məqalə və oçerki ehtiva edən bölmələrin hələ yalnız adlarını sadalamaq bəs edir ki, monoqrafik həcmli kitabın miqyası və əhəmiyyətini duyasan.

Bir zaman bundan əvvəl İsa Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin yeni və yenidən dövrləşdirmə konsepsiyası ilə çıxış etdi*. Yeni biliklər, tədqiqat materialları toplandıqca tarixə yenidən baxış da zəruri olur. Hazırda Ədəbiyyat İnstitutunda start verilmiş on cildlik ədəbiyyat tarixinin zəminində duran həmin konsepsiyanı akademikİsa Həbibbəyli AMEA Rəyasət Heyətinin yığıncağında (fevral, 2015) və daha sonra Astanada - türkdilli xalqların akademik Ədəbiyyat İnstitutlarının toplantısında (5 oktyabr, 2015) məruzə etdi. Daha sonra həmin təsnifat daha da təkmilləşdirilərək aşağıdakı kimi formalaşdırılmışdır:

---

* İsa Həbibbəyli, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası // Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, Xüsusi buraxılış XXVI cild. Bakı, "Elm və təhsil", 2015, s. 3-8

"1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan-eposa.

2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər).

3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər).

4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər).

5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII əsrlər)

6. Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrü (XIX əsr).

7. Tənqidi realizm və romantizm epoxası (XIX əsrin 90-cı illərindən 1920-ci ilə qədər).

8. Azərbaycan ədəbiyyatında sosialist realizmi mərhələsi (1920-1970-ci illər).

9. Milli özünüdərkə qayıdış mərhələsi və istiqlalçılıq mərhələsi (1960-1991).

10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı"

"Ədəbi şəxsiyyət və zaman" kitabında toplanmış, "Nizami Gəncəvi haqqında söz"lə başlayan və müasir dövrlə – "Vətəndaşlıq mövqeyi, plyus lirizm" məqaləsi ilə tamamlanan oçerklər sırası sanki həmin konsepsiyanın əyani illüstrəsi və ilkin təqdimatı səciyyəsi daşıyır. Təkcə bu əsəri deyil, ümumən də akademik İsa Həbibbəylinin geniş və universal yaradıcılığını müasir ədəbiyyatşünaslığımızın nailiyyəti olan bu konsepsiyanın baş məşqi hesab etmək olar. Belə ki, "Ədəbi şəxsiyyət və zaman" kitabı akademikin 2016-2018-ci illərdə çapı nəzərdə tutulan on cildliyinin yalnız 2-ci cildini təşkil edir, bütövlükdə külliyyatının mündəricəsini isə alim özü bu şəkildə nişan ve-

rir: “I cild. Ədəbiyyat nəzəriyyəsi məsələləri. II cild. Ədəbi şəxsiyyət və zaman. III cild. Azərbaycan yazıçıları. IV cild. Naxçıvan ədəbi mühiti. V cild. Ədəbiyyatşünaslıq: köklər – budaqlar. VI cild. İncəsənət və folklor. VII cild. Ədəbi əlaqələr və mətbuat. VIII cild. Siyasət, elm və tarix. IX cild. Cəlil Məmmədquluzadə. X cild. Yollar şeirdən başlanmışdı. B., 2016”[*].

Yüzilləri ehtiva edən ədəbiyyat tarixi üçün ən universal meyar nə ola bilər? Böyük ədəbiyyatşünas Yaşar Qarayev deyirdi: “Meyar – şəxsiyyətdir”. Akademik İsa Həbibbəyli də belə düşünür; və əgər söhbət ədəbiyyat tarixindən gedirsə, daha konkret: meyar – ədəbi şəxsiyyətdir. Min illər, yüz illər keçsə də mətnlərindən boy verən, görünən ədəbi şəxsiyyətlər. Milli ədəbiyyat tarixini bu və ya digər amillərə nəzərən izləmək praktikası vardır: dil amili, etnosun tarixi, ölkə tarixi, ideya və ideologiyalar sırası və s. Bütövlükdə İsa Həbibbəyli də həmin prinsiplərdən sərfnəzər etmir, bu və ya digər mərhələnin müəyyənləşməsində bu və ya digərinin üstünlüyünə diqqət yetirir (“1. Sivilizasiya amili; 2. Ədəbi-tarixi proseslərin reallıqları; 3. Azərbaycanda ədəbi cərəyanlar; 4. Azərbaycançılıq məfkurəsi”[**]). Lakin zaman-zaman bu və ya digər meyarlar kəsərini itirdikdə, İnsan amili yenə də qalır. Ədəbiyyatı zamanda daşıyan məhz ədəbi şəxsiyyətlərdir. Akademik İsa Həbibbəyli ədəbiyyat və zaman dialektikasını belə izah edir: “Səma cisimləri göy qübbəsinin, İnsan yer kürəsinin, Ədəbiyyat Zamanın atmosferini təyin edir. Zamanın yüksək idealları özünün böyük yazıçısını və ədəbiyyatını yetişdirir. Yazıçı Zamanı düşündürən və qabaqlayan böyük

---

[*] İsa Həbibbəyli, Əsərləri, X cild. Bakı, “Elm və təhsil”, 2016, s. 452

[**] Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, Xüsusi buraxılış XXVI cild. Bakı, “Elm və təhsil”, 2015, s. 4

ideallar səviyyəsinə çatdıqda ədəbi şəxsiyyətə çevrilir. Ədəbi şəxsiyyət – möhtəşəm ədəbiyyat məbədinin yük daşıyan divarı, onu çiyinlərində saxlayan dayanıqlı sütun, Zamanı və ədəbiyyatı irəli dartan at gücüdür. Ölkəsi və xalqı ilə həmrəylik miqyasındakı səviyyə sənətkarın cəmiyyətdəki və ədəbiyyatdakı yerini müəyyənləşdirir" ("Ədəbiyyat və zaman")

Doğrudan da, bir anlıq düşünəndə, məsələn, "bütün mədəni dünyanı fəth etmiş sərkərdə", "Xəmsə"nin dahi yaradıcısı" Nizami Gəncəvi ("Nizami Gəncəvi haqqında söz") və xalqının yolunda təvazökar xidmətləri, az qala unudulmaqda olan "görkəmli yazıçı və ictimai xadim", "böyük demokrat ədib Cəlil Məmmədquluzadənin ən yaxın məsləkdaşı" Eynəli bəy Sultanovu ("Yazıçı-publisist Eynəli bəy Sultanov") bir sırada, bir pəncərədən, bir araya gətirən nədir? Təbii ki, kitabın təsbit etdiyi kimi: ədəbi şəxsiyyət!; ədibi, yazıçını Zaman və Ədəbiyyat müstəvisinə qaldıran hünərvərlik: "Azərbaycan ədəbiyyatında sənətkar və Zaman münasibətlərində həmişə böyük ədəbiyyatın özünəməxsus möhürü olmuşdur. Nizami Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, CəfərCabbarlı, Səməd Vurğun, Mirzə İbrahimov, Mir Cəlal, Rəsul Rza, Mikayıl Müşfiq, İlyas Əfəndiyev kimi qüdrətli sənətkarlar Zamanın fövqündə duran böyük ideallarınn carçısıdırlar" ("Ədəbiyyat və zaman").

Təbii ki, akademik Ədəbiyyat panteonunda ilk növbədə zamanın yükünü daşıyan "nəhənglər"ə yer verir: "Nizami Gəncəvi: Azərbaycandan dünyaya", "Cahana sığ-

mayan şair" (İ.Nəsimi), "Məhəmməd Füzulinin yaradıcılığında aşiq", "Molla Pənah olan şair", "Xoş gördük, Mirzə Fətəli Axundzadə", "Üzeyir Hacıbəyov əfsanəsi", "Böyük demokrat Cəlil Məmmədquluzadə", "Mirzə Ələkbər Sabirimiz", "Hüseyn Cavid və sənəti", "Məhəmməd Hadi yaradıcılığının sənətkarlıq xüsusiyyətləri", "Böyük mütəfəkkir Əli bəy Hüseynzadə", "Xalq şairi Səməd Vurğun haqqında söz", "Ustad Məhəmmədhüseyn Şəhriyar" və s. məqalələr minillik boyu tarixdə daşınan ədəbiyyatımızın zirvə çağları-çağlayışını bütün cazibəsi və hüsnü ilə fəhm və seyr etməyə imkan verir. Həm də bu zaman tədqiqatçı "nəhənglər"in ədəbiyyat tarixində ali yerini təyin edən epitetlərə heç də qızırqalanmır: "Şərqdən doğan ədəbiyyat günəşi olan Nizami Gəncəvi"; "Seyid İmadəddin Nəsimi görkəmli Azərbaycan şairi və mütəfəkkiridir. Onun şeirləri insanın qüdrəti haqqında himn kimi səslənir"; "Həqiqətən də Füzulinin lirikası, şeiriyyatı orta əsrlər Azərbaycan şeirinin kulminasiya nöqtəsidir"; "Vaqifin "Durnalar"ı Azərbaycan şeirinin durna qatarının önündədir"; "Mirzə Fətəli babamız Şərq qiyafəli, Avropa düşüncəli, Azərbaycançı milli məzmuna malik ictimai fikrin və mədəniyyətin inkişafında böyük xidmətlər göstərmişdir"; "Cəlil Məmmədquluzadə çoxəsrlik Azərbaycan ədəbiyyatının milli iftixarı, dünya bədii mədəniyyətinin görkəmli nümayəndəsidir"; "Milli ədəbiyyatda tənqidi realizmin əsas yaradıcılarından biri kimi geniş şöhrət qazanmış Mirzə Ələkbər Sabir bədii fikirdə humanizmin və demokratik ideyaların, milli oyanış və dirçəlişin ən fədakar carçılarındandır"; "Böyük iftixar hissi ilə demək olar ki, Üzeyir Hacıbəyov Azərbaycan professional musiqi sənətinin Koroğlusudur" və s.

Akademik İsa Həbibbəylinin dərin tədqiqata və geniş ümumiləşmələrə söykənən təyinlərində, az qala aforizm dürüstlüyü var: “Nizami Gəncəvi şeirin Allahıdır. Dünyanın harasından, Şərqdən, yoxsa Qərbdən baxılmasından asılı olmayaraq, o, şeir-sənət səmasında günəş kimi parlayır”. “Aşiq Füzulinin varlığı eşqdən və kədərdən yoğrulmuşdu. Məhəmməd Füzuli sənətində eşq aşiqin mənəvi pasportu, kədər isə onun ictimai mahiyyəti və məzmunudur”. “Saib Təbrizi – Azərbaycan klassik romantik şeirinin realist ədəbiyyata doğru keçdiyi təkamül prosesinin əsas hərəkətverici qüvvəsi olan görkəmli sənətkardır”. “Nəriman Nərimanovun müəllim Məhəmmədağa obrazı ilə ədəbiyyatımıza “ağıldan bəla” motivi gətirilmişdir. Eşqdən bəla motivini ağıldan bəla düşüncəsi əvəz etməyə başlamışdır” və s.

Lakin ədəbiyyatın tarixi yalnız zirvələrdən təşəkküllənmir, bu və ya digər ədəbiyyat epoxasını təmsil edən, şəkilləndirən çox sayda adlar, imzalar, ədəbi şəxsiyyətlər kəşf və yenidən-kəşf olunduqca bu sırada yerini alır; təsəvvürlər dəyişir, dolğunlaşır, əvvəlki mənzərələr daha da yenilənir, yeniləri ilə əvəz olunur. “Marağalı Əvhədi”, “Klassik poeziyada yeniləşmə meyilləri və Saib Təbrizi”, “Nəriman Nərimanov: tənqidi-realist, yoxsa maarifçi demokrat?”, “Məsləki tərcümeyi-halı olan şair” (Abbas Səhhət), “Xalq yazıçısı Mirzə İbrahimov”, “Mir Cəlal müəllim”, “Rəsul Rzanın sənət qüdrəti”, “Həyatın gerçəkliyi və təhkiyənin nağılı” (İlyas Əfəndiyev), “Milli istiqlal şairi Bəxtiyar Vahabzadə” və s. məqalələrdə akademik bəlli, dəfələrlə cızılmış ədəbi portretlərə yeni rakurs və notlar artırmaqla əslində ədəbiyyat tarixində məhz bugünün aşkarladığı təkrarsız yaradıcılıq örnəklərini təsbit etməyə nail olur.

Bu zaman akademik İsa Həbibbəyli həmçinin diqqətdən kənarda qalmış, mühüm xidmətləri lazımınca qiymətini almamış ədəbi şəxsiyyətlərin portretinə həssas yanaşır, ədəbiyyat tarixi sırasında layiqi haqlarını bərpa edir. "Ürfani şeirin Şəmsi" – Şəms Təbrizi: "O, türk-müsəlman dünyası ədəbiyyatında və ictimai fikrində böyük mütəfəkkir Mövlana Cəlaləddin Ruminin ən yaxın məsləkdaşı və görkəmli ürfan şairi kimi tanınmışdır". "Maarifçilik hərəkatının və maarifçi ədəbiyyatın görkəmli nümayəndəsi" – "Böyük maarifçi ədib və pedaqoq Məhəmməd Tağı Sidqi maarifçilik hərəkatı və maarifçi ədəbiyyat istiqamətlərinin hər ikisində "keçid dövrü"nün lideridir. XIX əsrin son 25 ilində və XX əsrin əvvəllərində həm maarifçilik hərəkatı, həm də maarifçi realist ədəbiyyatı baxımından Məhəmməd Tağı Sidqi səviyyəsində xidmət göstərən görkəmli ziyalı göstərmək çətindir". "Millətin canlı heykəli" – Məhəmmədağa Məhəmmədtağı oğlu Şahtaxtlı: "Bu nəhəng şəxsiyyətin Azərbaycana Qərb maarifçiliyi ənənələrini gətirmək, doğma xalqını Şərq fanatizmindən xilas etmək, Qərblə Şərqi yaxınlaşdırmaq kimi böyük vəzifələrin həyata keçirilməsinə təkbaşına etdiyi xidmət həmin amala ömür sərf etmiş bütöv bir ziyalı nəslinin fəaliyyətinə bərabərdir". "Yazıçı-publisist Eynəli bəy Sultanov": "XX əsrin əvvəllərində... Azərbaycan siyasi-maarifçi publisistikasının bənzərsiz nümunələrini yaratmışdır. Zaqafqaziya mətbuatında Eynəli bəy Sultanovun fəaliyyətini yalnız Məhəmməd ağa Şahtaxtlı ilə müqayisə etmək olar" ...

Bugün ədəbiyyat tarixinin zirvəsindən baxanda dünənin bir çox səhifələri bir başqa görünür; dünən yaxından və bəlkə yaxın olduğu üçün çox da görünməyən yeni-yeni "nəhənglər"i görürük. Akademik İsa Həbibbəyli Məmməd Səid Ordubadi haqqında oçerkini "Böyük ədəbiyyat nə-

həngi" adlandırır və lap yaxınlaracan sovet yazıçıları sırasında andığımız ədibi dünya ədəbiyyatının "nəhəng"lərindən biri – Lev Nikolayeviç Tolstoyla yanaşı gətirməklə, yenidən kəşf edir: "Böyük Lev Tolstoy rus ədəbiyyatının tarixində malik olduğu səviyyə etibarilə hansı yeri tutursa, Məmməd Səid Ordubadi də Azərbaycan ədəbiyyatında həmin mövqeyə sahibdir. Məmməd Səid Ordubadinin məşhur tarixi romanları, xüsusən "Dumanlı Təbriz", "Qılınc və qələm" özünün monumentallığına, əzəmətinə görə, epoxanın eposunu yaratmaq xüsusiyyətlərinə görə Lev Tolstoyun "Hərb və sülh" romanı ilə müqayisə oluna bilər...".

Yaxud xalq şairi Səməd Vurğunun xalq arasında olan "xalqın şairi" kultunu bir daha təsbit etməklə ("Xalq şairi Səməd Vurğun haqqında söz"), daha bir – "Akademik Səməd Vurğun" adlı geniş tədqiqatında İsa Həbibbəyli şairi həmçinin yeni rakursdan – hərtərəfli humanitar biliyə malik fitrətən alim kimi kəşf edir, AMEA-nın təsisçilərindən biri olmasının heç də təsadüfi olmadığını zəngin faktlar və məntiqi dəlillərlə isbata yetirir: "Səməd Vurğun üçün ədəbiyyat və elm cəmiyyəti irəli aparmağın, insanı daha da inkişaf etdirməyin böyük vasitəsidir. Səməd Vurğunun elmdən qidalanan əsaslı yazıçı sözü respublikada ədəbiyyatın yüksəlişinə təkan vermişdir. Onun ədəbi təcrübədən, yazıçı təxəyyülündən gələn idealları nəzəri səviyyədə ifadə etməsi elmi intellektual düşüncənin yetkinliyində, dərinliyində öz əks-sədasını tapmışdır. Bu dərin, yetkin və həm də emosional düşüncənin doğurduğu ideyalar nəticə etibarilə cəmiyyətin sözü səviyyəsində ümumiləşmişdir".

XX əsr dünya ədəbiyyatının bestsellərindən olan "Əli və Nino" romanını Azərbaycan ədəbiyyatına yalnız müstəqillik illəri qaytara bilmişdir. Akademik İsa Həbib-

bəyli daha bir addım atır. "Məhəmməd Əsəd bəy dünyası və Orxan Aras" məqaləsində romanın müəllifi Qurban Səid imzasının arxasında duran, "barəsində haqlı-haqsız mübahisələrin kəsilmədiyi" Məhəmməd Əsəd bəyin də, geniş həyat və yaradıcılıq materialları əsasında, milli ədəbiyyat tarixində birdəfəlik yerini müəyyənləşdirir: "Əsərlərindən görünür ki, Qurban Səid – Məhəmməd Əsəd bəy üçün Azərbaycan hər şeydən üstün olmuşdur. "Əli və Nino" romanı Azərbaycan haqqında Avrasiya təfəkkürü ilə yazılmış möhtəşəm bədii əsərdir. Bundan başqa, Məhəmməd Əsəd bəy – Qurban Səid Azərbaycan ədəbiyyatının ən mükəmməl romançı-bioqrafıdır. Roman-bioqrafiyanı, yaxud bioqrafik romanı Məhəmməd Əsəd bəy – Qurban Səid ardıcıl olaraq dalbadal yazdığı əsərlərlə Avropa miqyasında inkişaf etdirmiş, bu janrı daha da populyarlaşdırmışdır. O, Avropanın və ümumən dünya ədəbiyyatının məşhur bioqraflarından biri kimi tanınır. Bu, Azərbaycan ədəbiyyatının fəxri ola biləcək görkəmli bir yazıçı olmaq deməkdir. Bütövlükdə Məhəmməd Əsəd bəy Azərbaycan mühacirət ədəbiyyatının qüdrətli yaradıcılarındandır..."

Müasir humanitar elm iqrar edir ki, tədqiqatçının tədqiqat predmetini daha yaxından duyması, həm də onun öz bioqrafisinin faktları ilə bağlıdır. Məsələn, Hans-Ulrix Humbrext yazır ki, ilk dəfə dörd yaşında valideynlərindən "ekzistensializm" sözünü eşitməsi, onun sonrakı ekzistensializm araşdırmalarının dolayısı təkanvericisi olmuşdur*. Bioqrafik faktorun əhəmiyyətini akademik İsa Həbibbəylinin yaradıcılıq stixiyasında da müşahidə edirik. Alimin böyük ədəbiyyata təması və böyük elmə yolu ilk növbədə doğulub boya-ərsəyə çatdığı Naxçıvan torpa-

* Bax: Hans-Ulrix Humbrext, "Müasir tarix" dəyişən xronotopun indisində // Tənqid.net jurnalı, № 5, 2008, s. 205

ğından güc alır. Bu, ədəbiyyatımıza həmincə: Cəlil Məmmədquluzadə, Məmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Məhəmməd ağa Şahtaxtlı, Eynəli bəy Sultanov kimi böyük realistləri və maarifçiləri, Hüseyn Cavid, Məmmədcəfər Cəfərov ("Yeni dövr ədəbiyyatşünaslıq məktəbinin banisi"), Məmməd Araz ("Xalq şairi Məmməd Araz") kimi böyük romantiklər və sarsılmaz mənəvi iradə sahiblərini vermiş, habelə müasir yazıçı və şairləri – Hüseyn İbrahimovu ("Şəxsiyyətin və sənətin bütövlüyü"), İslam Səfərlini ("Romantik pafosdan lirizmə. İslam Səfərli"), Əyyub Abbasovu ("Əyyub Abbasov"), Cavad Cavadlını ("Ədəbiyyat və mətbuat cəbhəsində"), Elman Həbibi ("Günəş doğan yerdə poeziya"), Rüstəm Behrudini ("Bütövlük və genişlik"), Asim Yadigarı ("Vətəndaşlıq mövqeyi, plyus lirizm")... yetirən həmin o münbit mədəni mühitdir ki, bugün İsa Həbibbəylinin akademik qələmində bir daha dilə gəlib danışır, Zamanın sözünü, tarixin həqiqətlərini söyləyir. Və bir anlıq tədqiqatçının nəzərləri ilə ədəbiyyat tarixinə ən yaxından və ən qədimdən – Nuhçıxandan baxanda bir çox səhifələr yenidən və bir başqa görünür.

Bu yerdə həmçinin İsa Həbibbəylinin tükənməz Mirzə Cəlil sevgisini də anmaq gərəkir; yada salaq akademik elmdə ilk parlaq qələbəsi – "Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri" monoqrafiyasının[**] əks-sədasını... Eyni torpağın suyunu içib havasını bölüşdüyü mütəfəkkirin iziylə gedib, bu yol akademiki birbaşa çağdaş dünyaya çıxarır. Mənəvi varis olaraq, Cəlil Məmmədquluzadənin əsərlərini hər il dünya dillərinə çevirtdirib, geniş ön söz və tanıtımlarla – urdu, gürcü, litva, macar dil-

---

[**] Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1997

lərində çap etdirməsi akademik İsa Həbibbəylinin mirzə-cəlilşünaslığa böyük töhfəsi, eyni zamanda vətəndaşlıq hünəridir. Bu baxımdan alimin kitabda yer alan "Böyük demokrat Cəlil Məmmədquluzadə" adlı növbəti tədqiqatı həm informativ əhatəsi və fakt zənginliyi, həm də elmi sanbalı, müasir yanaşma metodologiyası ilə ədəbiyyat tarixçiliyinə örnək olası misallardandır.

Akademik İsa Həbibbəylinin tədqiqatçı kimi ağırlığını şərtləndirən, təmin edən digər bir önəmli faktor – klassik ədəbiyyatşünaslıq tərbiyəsi almasıdır. Yeri gəldikcə, adlarını andığı və isnad etdiyi Məmməd Cəfərdən – dərin nəzəri fəhm, Həmid Araslıdan – israrlı tədqiqat əzmi, Əziz Mirəhmədovdan – əlahəzrət faktın həqiqəti, Yaşar Qarayevdən – miqyaslı kontekst yanaşması akademikin predmetə, tekstə, mətnə münasibətində öyrəndiyi cəhətlər, tədqiqatçılıq xasiyyətini təyin edən əlamətlərdir. Onun hər bir tədqiqatında əsaslı nəzəri bilgi (nəzəriyyə), gərgin axtarışlardan hasil olan araşdırma nəticələri (tarix) və müasir dəyərləndirmə prizması (tənqid) hakimdir. Bununla belə, İsa Həbibbəylinin akademik dəst-xəttində heç bir filoloq-alimdə olmadığı qədər təxəyyül genişliyinə də yer var; mülahizələrində fakt həqiqətindən doğan fərziyyələr tarixin məntiqi ilə uyuşur, vəhdətdə çıxış edir.

"Nizami Gəncəvi: Azərbaycandan dünyaya" məqaləsində alim ədəbiyyat tarixçiliyində mövcud olan bir ehtimalı xatırladır: "Memarlığın daş "Xəmsə"sini yaratmış Əcəmi Naxçıvaninin söz sənətinin "Xəmsə"sinin qüdrətli yaradıcısı ilə görüşməsi bu iki böyük dühanın bir-birinə hörmət və ehtiramının ifadəsi olardı. Eyni əsrdə vahid ölkə daxilində yaşayan bu qədər nəhəng sənətkarların bir-birini görməyə, tanımağa ehtiyac duymamaları qeyri-mümkündür. Hər ikisinin Atabəylər dövlətinə yaxın olmaları da

onların görüşünü şərtləndirir". Və həmin görüşün məhz harada (Naxçıvan şəhərində) və nə vaxt ("daha çox XII əsrin səksəninci illərinin ikinci yarısında") mümkünlüyünü məntiqi dəlillərlə yerinə qoyur.

Bu baxımdan akademik İsa Həbibbəylinin ədəbiyyat tarixçiliyində sanki "Mendeleyev cədvəli"nə xas boşluqları ləğv etmək, tədqiqatçıların üzə çıxardığı gerçək, lakin hələ gərəyincə kəşf olunmamış faktları, hadisələri, ədəbi şəxsiyyətləri məntiqi sırasına otuzdurmaq əzmi müşahidə olunur. Məsələn, Azərbaycan ədəbiyyatının nə zamandır gah "gecikmiş orta əsrlər" və gah da "yeni dövrün başlanğıcı" kimi öyrənilən tarixi əraziləri (XVII-XVIII əsrlər, XIX əsrin əvvəlləri), Cəfər Cabbarlının bircə dəfə müəyyənləşdirdiyi "Füzuli tilsimi"nin tilsimindən qurtula bilmirdi. "Erkən yeni dövr" deyə təyinat verdiyi həmin epoxanın tarixi missiya və parametrlərini akademik iki aparıcı tendensiya və ədəbi şəxsiyyətin – Saib Təbrizi ("Klassik poeziyada yeniləşmə meyilləri və Saib Təbrizi") və Molla Pənah Vaqifin timsalında ("Molla Pənah olan şair") təsbit etməklə, milli ədəbiyyatın öz inkişaf məntiqini "bərpa" etmiş olur, hələ nə qədər də yeni tədqiqatlara zərurəti ortaya çıxarır. "Beləliklə, XVII əsr ədəbiyyatı Məhəmməd Füzuli ilə Molla Pənah Vaqif arasında mühüm bir körpü funksiyasını yerinə yetirmişdir... Aydın surətdə görünür ki, XVII əsrdə ədəbiyyatın həyatiləşməyə doğru prosesləri genişlənmişdir. Ona görə də ədəbiyyat XVII əsrin epik-didaktik meyillərini yaşamadan, birdən-birə realist şeirə keçə bilməzdi. Bu mənada XVII əsr Azərbaycan poeziyasına Məhəmməd Füzuli lirikasının davamı olmaqla bərabər, həm də Molla Pənah Vaqif şeirinin əvvəli kimi baxmaq lazımdır. Bu, Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və əhəmiyyəti olan xüsusi bir mərhələdir".

“Ədəbi şəxsiyyət və zaman” kitabında Azərbaycan ədəbiyyatının min illik mündəricə və gəlişmələri ayrı-ayrı problemlər və ədəbi şəxsiyyətlər ətrafında nəzərdən keçirilsə də, qeyd olunduğu kimi, konseptual bütövlükdə təqdim olunur.Kitabda ədəbiyyatşünaslığın bir çox janrlarında: nəzəri problem məqalə (“Mirzə Fətəli Axundzadənin ədəbiyyat nəzəriyyəsi görüşləri və “nazimi-ustad” məsələsinə yenidən baxış”, “Molla Nəsrəddin” və füyuzatçılar”, “Məhəmməd Hadi yaradıcılığının sənətkarlıq xüsusiyyətləri”, “Yeni dövr ədəbiyyatşünaslıq məktəbinin banisi”), həyat və yaradıcılıq oçerki (“Mirzə Ələkbər Sabirimiz”, “Hüseyn Cavid və sənəti”, “Məsləki tərcümeyi-halı olan şair”, “Əliqulu Qəmküsarın ədəbi taleyi: sənətdə və həyatda”, “Ustad Məhəmmədhüseyn Şəhriyar” və s.), monoqrafik tədqiqat (“Böyük demokrat Cəlil Məmmədquluzadə”, “Akademik Səməd Vurğun”, “Böyük ədəbiyyat nəhəngi”), ədəbi portret (“Marağalı Əvhədi”, “Cahana sığmayan şair”, “Molla Pənah olan şair”, “Xoş gördük, Mirzə Fətəli Axundzadə”, “Milli istiqlal şairi Bəxtiyar Vahabzadə” və s.), esse (“Ədəbiyyat və zaman”, “Məhəmməd Füzuli yaradıcılığında aşiq”), publisist araşdırma (“Rəşid bəy Əfəndiyevin iki məktubu”, “Firidun bəy Köçərlinin Qoridən yazılmış məktubları” və s.), ədəbiyyatşünaslıq resenziyası (“Eynəli bəy Sultanov kimdir sualının ilk elmi cavabı”), yubiley oçerki (“Nizami Gəncəvi haqqında söz”, “Ədəbiyyatda milli istiqlal (Məhəmməd Əmin Rəsulzadə)”, “Vətən həsrətli Ceyhun Hacıbəyli”, “Müstəqillik işığında Əli bəy Hüseynzadə” və s.), ədəbi proses icmalı (“Müstəqilliyin şərəfli yolu və ədəbiyyatı”), portret cizgiləri (“İsa Hüseynovdan İsa Muğannaya: axırıncı əlyazma və bütöv dünya”, “Yaş o yaş deyil ki (Fikrət Qoca)”) və s. yazıları vahid bir istiqamət – ədəbiyyat tarixçiliyi bir araya gətirir.

Belə ki, nə zamandır çoxsaylı mülahizələr və nəzəri sxemlər içərisində dolaşıb-qalan ədəbiyyat tarixçiliyimizə İsa Həbibbəyli sınaqdan çıxmış akademik ölçüləri qaytarır. Ədəbi şəxsiyyətin ədəbiyyat tarixində yeri; həyatının geniş və təfərrüatlı faktları; yaradıcılığının ideya-məzmun istiqamətləri və janrlar üzrə təhlili; ayrı-ayrı yaradıcılıq sahələrində rolu, yenilikçi mövqeyi və poetikası; dövlətçilik (Azərbaycançılıq) baxımından ideoloji dəyəri; öyrənilməsinin vacibliyi, aktuallığı, tarixi və problemləri, müasirlik çəkisi və gündəmliyi... – İsa Həbibbəylinin janrından asılı olmayaraq, hər bir yaradıcılıq oçerki, arxasında ciddi tədqiqat durmaqla, ədəbiyyat tarixçiliyinin konkret modelini təqdim edir.

Ədəbiyyat tarixçiliyinin predmetini tarix təşkil etsə də, fənnin zərurətini müasirlik diktə edir. Ədəbi şəxsiyyətlər tarixin uzaqlığından keçib məhz müasirlik işığında əsl miqyas və dəyər kəsb edir. Bu baxımdan müasirliyin özünü ədəbiyyat tarixçiliyi meyarları ilə qiymətləndirmək, müasirlərə "müasirlik işığında" dəyər vermək daha çətindir. Bununla belə, akademik İsa Həbibbəyli "Müasirlik işığında" örnək verdiyi: Anar, Elçin, Nəriman Həsənzadə, Yusif Səmədoğlu, Vaqif Səmədoğlu portret-oçerklərində akademik ölçülərə eynən riayət etməklə, bu dəfə yaradıcı müasirlərimizin tarixi obrazını işıqlandırır, məhz müasirliyin tarixini cızır. "Hələ keçmiş Sovetlər İttifaqı dövründə Azərbaycan ədəbiyyatının hakim ideologiyanın təsirindən çıxaraq gerçək həyatı, real və təbii insan obrazlarını əks etdirməyə doğru inkişaf etdirilməsində Anarın böyük rolu vardır. O, həyat hadisələrinin gerçəkliklərini, adi, sadə, sıravi insanların mənəvi aləmini və həyəcanlarını ədəbiyyata gətirməklə, milli bədii təfəkkürün çətin şəraitdə ən müasir imkanlarına malik olduğunu nümayiş etdirmişdir"

(“Xalq yazıçısı Anar: gerçəkliklə ideal arasında”). “Təkcə uğurla təmsil etdiyi altmışıncılar nəsli içərisində deyil, bütövlükdə yeni dövr Azərbaycan ədəbiyyatında və ictimai fikrin inkişafında Elçinin özünəməxsus sanballı yeri, rolu, mövqeyi vardır. İnamla demək olar ki, Azərbaycanda çağdaş ədəbiyyatın və ədəbi tənqidin ən tanınmış, ardıcıl fəaliyyət göstərən və məhsuldar nümayəndələrindən biri kimi böyük nüfuz qazanmış Xalq yazıçısı Elçini indi dünyanın çoxsaylı ölkələrində də yaxşı tanıyırlar” (“Xalq yazıçısı Elçinin özü və sözü”). “Nəriman Həsənzadə çağdaş Azərbaycan ədəbiyyatında varlığı bütünlüklə şeirdən yoğrulmuş nadir şairlərindəndir. Şeirləri də Nəriman Həsənzadənin özü ilə birlikdədir. O, yalnız qələmə aldığı şeirlərin müəllifi olaraq bitmir, bütövlükdə tərcümeyi-halı və mənəviyyatı ilə sanki yazılmış və hələ yazılacaq tam külliyyatının daşıyıcısıdır” (“Nəriman Həsənzadənin mənzum-poetik dramaturgiyası”). “Yusif Səmədoğlunun hekayələri XX əsr Azərbaycan hekayəsinin klassik nümunələridir. Real, gerçək həyat hadisələrini və adi insanları lirik planda təsvir etmək, yığcamlıq, mükəmməl bədii ümumiləşdirmə Yusif Səmədoğlunun hekayə yaradıcılığının fərdi xüsusiyyətlərini müəyyən edir”. “Vaqif Səmədoğlu filosof şairdir. Onun yaradıcılığındakı fəlsəfi motivlər şairanədir, poeziyanın fəlsəfəsi deyildir, fəlsəfənin poeziyasıdır. Geniş mənada Vaqif Səmədoğlu yaradıcılığının qayəsi etibarilə Xalq şairi Səməd Vurğunun “Qalib gələcəkmi cahanda kamal?” sualının poetik-fəlsəfi cavabından yoğrulmuş şeir-sənət adamıdır” (“Səmədoğlu ədiblər”)

Ümumən, müasirlik və tarixin sərhədlərini təyin etmək, hər bir tarixi mərhələnin bitib müasirliyə adladığı hüdudları müəyyənləşdirmək ədəbiyyat tarixçiliyinin ümdə problemlərindəndir. Xüsusən “müasirliyin tarixi”ni ya-

zanda, bu, ikiqat çətin olur, çünki tarixin keçdiyi yolun perspektiv planını təyin etmək lazım gəlir. “Müstəqilliyin şərəfli yolu və ədəbiyyatı” məqaləsində akademik İsa Həbibbəyli ilk dəfə olaraq yaşadığımız müstəqillik dövrü ədəbiyyatının tarixi parametrlərini müəyyənləşdirir; tipoloji xüsusiyyətlərini, təşəkkül və inkişaf yolunu nəzərdən keçirməklə, eyni zamanda “Müstəqillik andı” adı altında bir sıra ədəbi şəxsiyyətlərə diqqət cəlb edir. “Ədəbiyyatda vətəndaşlıq və professionallıq” (Hidayət), “Elmilik və bədiilik: paralelliklərin vəhdəti” (Kamal Abdulla), “Şair-vətəndaş Sabir Rüstəmxanlı”, “Zəlimxan Yaqub sənətinin özünəməxsusluğu”, “Yazıçı-publisist Elmira Axundova”, “Bütün yönləri ilə yaradıcı (Rəşad Məcid)”, “Cəmiyyətin və mənəviyyatın bədii dərki (Hüseynbala Mirələmov)”, “Həyati proseslərin axarında (Xeyrəddin Qoca)”, “Şairlər günü”ndə Nurəngiz Gün”, “Günəş hənirli nəğmələr (İsa İsmayılzadə)”, “Bütövlük və genişlik (Rüstəm Behrudi)” və s. kimi yaradıcılıq portretlərində həm də yaşadığımız “müasir tarix” dəyişən dünya kontekstində bütün rəngarəngliyi ilə ədəbiyyatdakı izlərini bəlirtə bilir.

“Ədəbi şəxsiyyət və zaman” kitabı müasirliyin yükünü çəkən universal bir ədəbi şəxsiyyətin – akademik İsa Həbibbəylinin akademik elmə layiqli tarixi töhfəsidir. Kitab bu gün AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda start götürən on cildlik Azərbaycan ədəbiyyatı tarixini müjdələməklə, yeni fundamental tədqiqatlara inam oyadır.

# ƏDƏBİYYATDA HEYDƏR ƏLİYEV OBRAZI: TARİXİ GERÇƏKLİKDƏN İDEALA*

Ulu Öndər, Azərbaycan xalqının xilaskarı, dahi şəxsiyyət və insan, XX əsrin görkəmli dünya siyasətçiləri arasında təkrarsız yeri olan Heydər Əliyevin tarixi obrazı xalqımızın yaddaşında və qəlbində əbədi iz salmışdır. Öz əsrinin az qala yaşıdı olan Heydər Əliyevin adı ilə milli tariximizin böyük mərhələləri – II dünya müharibəsi dövrü, müharibədən sonrakı 1950-1960-cı illərin mülayimləşmə dövrü, 1970-1980-ci illərin Azərbaycanın böyük iqtisadi və mədəni dirçəliş dövrü, ən nəhayət müstəqillik epoxası, Müstəqil Azərbaycan Respublikasının yaranması və inkişafı dövrü qırılmaz tellərlə bağlıdır. Azərbaycanın müasirliyi, müasir Azərbaycan varlığı bilavasitə Heydər Əliyevin ideya və ideallarının, amal və əməllərinin nəticəsidir.

Bütün bu tarixi gerçəklər tarixşünaslara, siyasətşünaslara, mədəniyyətşünaslara, sənətşünaslara, dilçi və ədəbiyyatşünaslara, ümumən humanitar elm sahəsi mütəxəssislərinə yaxşı bəlli olduğu kimi, ulu öndər haqqında yazılan onlarla monoqrafiya və kitablarda, yüzlərlə məqalə və yazılarda da araşdırılmış, qələmə alınmışdır.

Ən nəhayət, Heydər Əliyevin tarixi obrazına Ulu Öndərin hələ sağlığından başlayaraq bədii ədəbiyyat da müraciət etmiş, şairlər, yazıçılar, publisistlər, dramaturqlar, ədiblər xalqın mütəfəkkir rəhbərinin, Ümummilli liderinin, xilaskarının, dahi şəxsiyyət və insanın ölməz bədii obrazını yaratmağa çalışmışlar. Bu isə özlüyündə ədəbiyyatşünaslar qarşısında yeni vəzifələr qoymuşdur.

---

* 6 may 2018-ci tarixində Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzində məruzə edilmiş, "525-ci qəzet"in 2018-ci il 14 may sayında dərc edilmişdir.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda akademik İsa Həbibbəylinin ideya müəllifliyi və ümumi redaktəsi ilə hazırlanmış və təzəcə çapdan çıxmış “Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala” adlı monoqrafiyada (Bakı, “Elm və təhsil”, 2018) ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq məhz ədəbiyyatın Heydər Əliyev fenomeninə münasibəti, reaksiyası, dahi şəxsiyyətin bədii əsərlərdə obrazının təcəssümlənməsi məsələləri sistemli tədqiq olunur.

Kitaba yazdığı ön sözdə akademik İsa Həbibbəyli “Heydər Əliyev və ədəbiyyat” mövzusunda bugünə qədər bir çox tədqiqatları anaraq qeyd edir: “Oxuculara təqdim olunan bu kitaba qədər elmi ədəbiyyatlarda, əsasən Heydər Əliyev və Azərbaycan ədəbiyyatı mövzusu ətrafında araşdırmalar aparılmış, Ulu Öndərin ədəbiyyatın inkişafındakı rolu və yeri məsələlərindən geniş bəhs olunmuşdur... İlk dəfə olaraq geniş ictimaiyyətə təqdim olunan «Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala» adlı kitabda, ümumiyyətlə ədəbiyyatda, xüsusən də yazıçı və şairlərin yaradıcılığında görkəmli dövlət xadimi və böyük xilaskarın obrazının canlandırılması məsələlərindən bəhs edilmişdir... Əslində təqdim olunan monoqrafiya Azərbaycan yazıçı və şairlərinin qüdrətli dövlət xadimi və parlaq şəxsiyyət olan Heydər Əliyevin xalqımız və müstəqil dövlətimiz qarşısındakı xidmətlərinin ədəbiyyatda bədii əks-sədası istiqamətindəki yaradıcılıq axtarışlarının elmi-nəzəri dərkinə həsr olunmuşdur”.

Qeyd edim ki, akademik İsa Həbibbəylinin parlaq ideyası və ümumi rəhbərliyi altında ərsəyə gəlmiş, 400 səhifə həcmində, altı fəsildən ibarət hazırkı monoqrafiya üzərində tədqiqatçı qrupumuz böyük vəcdlə, eyni zamanda Ulu Öndərin ölməz obrazı qarşısında duyduğumuz dərin məsuliy-

yət hissi ilə çalışmışdır. Axı nəinki ədəbiyyatşünaslıqda, bədii ədəbiyyatın özündə də hələ Heydər Əliyev mövzusu təzədir.

Belə ki, mövzuya ədəbiyyatın əsas kateqoriyalarından olan janrlar üzrə nəzər salınmış, bu zaman hər janrın öz təbiətindən irəli gələn özünəməxsusluqlara diqqət edilmişdir. Təbii ki, bu gün öndə ümumxalq sevgisindən doğan poetik tərənnüm, təcəssüm, heyrət və məhəbbətin ifadəsi – poeziya; tarixi hadisələrə gerçək və birbaşa münasibətin faktı olan ədəbi publisistika gəlir. Bədii nəsrdə Heydər Əliyev mövzusunun inikası və dərki yenicə başlanılmış, amma kifayət qədər miqyaslı və əhatəlidir. Müasirləri Heydər Əliyev miqyasının əlçatmazlığını adətən uca, nəhəng dağla müqayisə edirlər. Belə ki, bu nəhənglikdən yaranan heyrəti ifadə etmək bir şeydir, həmin nəhəngliyi dərk və bədii təsvir etmək başqa bir məsələ. Zaman keçdikcə, uzaqlaşdıqca, Heydər Əliyev obrazının nəhəngliyi daha aydın görünür, dərk olunur, qələmə gəlir.

Məsuliyyətli və şərəfli olduğu qədər də, mövzunun mürəkkəbliyi, çətinliyi ilə ən çox dramaturqlar üzləşirlər. Heydər Əliyev haqqında səhnə əsərləri çox deyildir, amma vardır. Akademik İsa Həbibbəyli bu sıradan Hidayətin "Burdan min atlı keçdi", Aqşin Babayevin "Xilaskar", Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı", İftixar Piriyevin "Qurtuluş dastanı" pyeslərini qeyd edir. Həqiqətən də, nə qədər şərəfli olsa da, Heydər Əliyevin obrazını səhnədə canlandırmaq dramaturgiyadan və teatrdan böyük qüdrət istəyir.

Kitabın birinci fəsli – akademik İsa Həbibbəylinin qələmə aldığı "Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz" məqaləsi monoqrafiyada Heydər Əliyev epoxasının ədəbiyyatına və bu ədəbiyyatın arxasında duran, dövrün

ədəbiyyat siyasətini müəyyən edən böyük şəxsiyyətə ümumi nəzər salmaqla yanaşı, həm də bütövlükdə mövzuya yanaşmanın nəzəri-metodoloji prinsiplərini ortaya qoyur. Ulu Öndər Heydər Əliyevin ümummilli siyasəti və müasir Azərbaycançılıq ideologiyasının tərkib hissəsi olaraq yeritdiyi ədəbiyyat siyasəti xətti onun tarixən müəyyənləşmiş ədəbi obrazını da təqdim edir. Və bədii ədəbiyyat da Ulu Öndərin möhtəşəm obrazını həmin ümummilli maraqlar zəminində görür və dərk edir.

"Görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanlarının çox geniş miqyas"larından çıxış edən İsa Həbibbəyli, eyni zamanda "dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlətxadimi"nin ədəbiyyata münasibətinin zəngin aspektlərini – xalqın taleyində, tarixi yaddaşında ədəbiyyata böyük önəm verməsi, millilik siyasəti, "xəlqilik, vətənpərvərlik, adət-ənənələrə dərin ehtiram, ana dilinin mövqeyinin genişləndirilməsi", "Azərbaycan xalqının və ölkənin bütövlüyü düşüncəsinin cəmiyyətdə formalaşdırılması" məsələlərində ədəbiyyatın misilsiz roluna və bu zaman tarixilik prinsipi və müasirlik meyarlarına istinad etməsi məqamlarını müfəssəl olaraq, fakt və dəlillərə söykənərək şərh edir. Belə ki, müəllifə görə: "Bütövlükdə isə Heydər Əliyev ədəbiyyata xalqın milli-tarixi varlığının, mənəviyyatının üzvi tərkib hissəsi kimi baxmış, ədəbiyyatı cəmiyyəti və insanı dəyişdirib inkişaf etdirən bilik və hikmət xəzinəsi kimi dəyərləndirmişdir. Heydər Əliyevin ədəbiyyat sevgisi Vətən və xalq sevgisinin, milli dövlətçilik baxışlarının əsas göstəricilərindən, zəruri amillərindən birini təşkil edir".

Akademik İsa Həbibbəylinin müəyyənləşdirdiyi tədqiqat prinsipləri – Ulu Öndərin tarixi obrazı ilə ədəbiyyatda

təcəssüm olunan bədii obrazının ayrılmaz vəhdəti bütünlükdə monoqrafiyada qorunub-saxlanır.

Filologiya üzrə elmlər doktoru, dosent Elnarə Akimova "Poeziyada Heydər Əliyev idealı" fəslində uzun bir tarixi dövr ərzində, ötən əsrin 70-ci illərindən günümüzəcən poeziyada Heydər Əliyev mövzusunu izləməklə, geniş materialları üzə çıxarıb tədqiq etməklə yanaşı, həm də Ulu Öndərin özünün ədəbiyyata münasibətindən doğan tarixi obrazına diqqət yetirir. Belə ki, müəllifin poeziya nümunələri, çoxsaylı lirik şeirlər, nəğmələr və poemalar əsasında cızdığı obraz çizgiləri – "milli məfkurəli dövlət qurucusu", "Heydər Əliyevlə əbədiləşən klassika", "poeziyanın Allaha dönüşündə Heydər Əliyev məqamı", "dissident siyasəti", "özünəqayıdışın Cavid intibahı", "istiqlal siyasətindən milli müstəqilliyə", "xilaskarlıq missiyası"və s. məqamlar məhz möhtəşəm tarixi şəxsiyyətlə onun poeziyadakı obrazı arasında həmahəngliyi, uyarlığı, vəhdəti üzə çıxarır.

Son yarım əsrin poeziyası, müəllifin fikrincə, "Heydər Əliyev ədəbiyyatı" ilə nəfəs alır. Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün, Məmməd Arazın azadlıq və istiqlal lirikası ilə başlayan, ilk olaraq cənublu şair Bulud Qaraçorlu Səhəndin 1974-cü ildə Ulu Öndərə xitabən şeirilə əsası qoyulan poeziyada Heydər Əliyev mövzusu Söhrab Tahirin, Nəriman Həsənzadənin, Fikrət Qocanın, Mirvarid Dilbazinin, Nəbi Xəzrinin, Qabilin, Cabir Novruzun, Rəfiq Zəka Xəndanın, Hüseyn Kürdoğlunun, Məstan Günərin, Səyavuş Məmmədzadənin, Musa Urudun, Vahid Əzizin, Baba Vəziroğlunun, Vaqif Bəhmənlinin, Əli Rza Xələflinin, Yusif Nəğməkarın, Ağacəfər Həsənlinin, Vüqar Əhmədin, Oqtay Rzanın, Xanım İsmayılqızının, Elman Həbibin, Ramiz Məmmədzadənin, Ramiz Heydərin, Ramiz Duyğunun, Elxan Zal Qaraxanlının və onlarla şairlərimizin lirikasında in-

kişaf taparaq, Zəlimxan Yaqubun "Əbədiyyət dastanı"nda zirvəyə çatır, ədəbiyyatda Heydər Əliyev obrazı İdeala yüksəlir, əbədiyyət qazanır.

Monoqrafiyanın AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu tərəfindən qələmə alınmış "Folklorda və bədii nəsrdə Heydər Əliyev obrazı" fəslində həm ümumxalq sevgisindən doğan folklor nümunələri – Ulu Öndər haqqında xalq arasında şifahi şəkildə yayılan əfsanələşmiş və lətifələşmiş əhvalatlar, o cümlədən milli dəyərlərə, adət-ənənə və mərasimlərə Heydər Əliyev münasibətini ifadə edən hadisələr, həm də bədii nəsr əsərlərində Heydər Əliyev obrazının təcəssümü tədqiq olunur. Heydər Əliyevin obrazını təcəssümləndirən şifahi əhvalatlar, şəksiz ki, sovet rejimində yazıya alına bilməzdi. İlk dəfə müstəqillik dövründə yazıçı Əjdər Ol təşəbbüs edərək, həmin əhvalatların bir qismini "Müdriklik anları" (1996), bir il sonra təkmilləşdirərək bir daha "Müdriklik" (1998) adı ilə çap etdirir, "Canlı lətifələr, əhvalatlar, deyimlər" (2015) kitabına da daxil edir.Ulu Öndərə ümumxalq sevgisinin faktı olan "Canlı lətifələr, əhvalatlar, deyimlər" həm də yazı ədəbiyyatı, bədii nəsr nümunəsidir. Heydər Əliyev obrazının dürüst, reallığa, tarixi həqiqətə tam uyğun əks olunmasında yazıçı sənətkarlığı mühüm rol oynayır.

Ulu Öndərin həyat yolunu bütövlükdə ehtiva edən ayrıca bədii əsər, tarixi roman yazılmamışdırsa da, əvəzində bədii-sənədli janrda əsərlərdə, memuar nəsri nümunələrində, ümumən müstəqil Azərbaycan həyatı, dövlət və cəmiyyət quruculuğunu əks etdirən bir sıra roman və povestlərdə, o cümlədən bədii detektiv əsərlərində Heydər Əliyev şəxsiyyəti, amal və əməlləri ən müxtəlif rakurslardan obrazlaşmışdır.

Heydər Əliyev mövzusunun nəsrdə inikası ən çox bədii-sənədli janrda reallaşmışdır. Söhbət Viktor Andriyanov və Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatı" bioqrafik silsiləsindən çap olunmuş "Heydər Əliyev" və Elmira Axundovanın altı cilddə, irihəcmli "Heydər Əliyev: şəxsiyyət və zaman" kitablarından gedir. Hər iki əsər rus və Azərbaycan dillərində böyük tirajla nəşr olunaraq geniş maraq və rəğbətlə qarşılanmışdır. Elmira Axundovanın altıcildliyi Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirilərək, Heydər Əliyev mükafatına layiq görülmüşdür. Hər iki əsərdə Heydər Əliyev obrazı geniş zaman və tarix kontekstində işıqlandırılmış, geniş materiallar, sənədlər, canlı şahidlər və xatirələrin dili ilə, eyni zamanda yüksək ideya-bədii sənətkarlıqla, iti yazıçı müşahidəsi, ümumiləşdirmə bacarığı, təsvir və təcəssüm ustalığı, dərin təhlillər və şərhlərlə, sirayətedici, oxucunu daim maraq təsirində saxlayan bədii üslubda təqdim olunmuşdur.

Heydər Əliyev obrazı bir sıra memuar nəsri nümunələrində – Anarın "Unudulmaz görüşlər", Elçinin "Tarixlə üz-üzə dayanmış adam", Mövlud Süleymanlının "Qırx ilin yeddi görüşü", İsa Hüseynovun "Həyatımdan səhifələr", Vidadi Babanlının "Unutmadığım günlər", Hafiz Paşayevin "Bir səfirin manifesti", Səyyad Aranın "Heydər Əliyevin Amerika fəthi", Hüseynbala Mirələmovun "İşığın izi ilə" əsərlərində bu və ya digər rakursdan, Ulu Öndərlə görüşlərdən doğan canlı təəssürat əsasında əksini tapmışdır. Sabir Rüstəmxanlının "Xətai yurdu" romanında, Aqil Abbasın "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" povestində, Afaq Məsudun "Dahi" hekayəsində hadisələrdən ani keçən Heydər Əliyevin tarixi obrazını görürük. Elmira Axundova və İsa Nəcəfovun "Naşirin ölümü", İsa Nəcəfovun "Gecə

yarısında qətl", Elmira Axundovanın "Şüşə saray", Çingiz Abdullayevin "Qanın üç rəngi" siyasi dedektivlərində Ulu Öndərin xilaskarlıq missiyası gərgin hadisələr fonunda qələmə alınmışdır.

Ümumən bədii nəsrdə Heydər Əliyevin tarixi hünərləri xalqın xilaskarı, Ümummilli lider, böyük dövlət xadimi və siyasətçi, müasir Azərbaycanın, müstəqil Azərbaycan dövlətinin memarı, mədəniyyət və cəmiyyət qurucusu, milli mənəviyyatın qoruyucusu, ədəbiyyat və sənət bilicisi, ali və dahi insan, möhtəşəm şəxsiyyət, ən böyük azərbaycanlı və s. məqamlarda təsvir olunmuş, ədəbiyyat çoxyönlü, çoxcəhətli, universal keyfiyyətlərin vəhdətini qapsayan Heydər Əliyev obrazının bütövlüyünü təqdim etməyə çalışmışdır.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Həsənovanın qələmə aldığı "Dahiyə layiq bədii-sənədli epopeya" fəslində bədii-sənədli janrda Heydər Əliyev obrazının təcəssümü araşdırılır, konkret olaraq Ulu Öndərin bioqrafı, yazıçı-publisist Elmira Axundovanın 6 cildlik "Heydər Əliyev: Şəxsiyyət və zaman" roman-tədqiqatı təhlil və şərh olunur. Tarixiliyi dürüst gözləməklə, tarixi şəxsiyyətə həm də müasir yanaşma tərzini: çoxsaylı sənədlər, canlı şahidlər və ən müxtəlif rakursları ehtiva edən sənədli epopeyanın məziyyətlərini üzə çıxaran tədqiqatçı həm də hər biri Heydər Əliyevin həyatının müəyyən bir mərhələsini əhatə edən cildlərə təfərrüatlı nəzər salır, Heydər Əliyev bioqrafiyasının keşməkeşli və zəngin səhifələrini müasir oxuculara tanıdır.

Filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlının yazdığı "Uşaq ədəbiyyatında Heydər Əliyev mövzusu" fəslində, adından da göründüyü kimi, müəllif Ulu Öndəri vəsf edən, balaca oxuculara tanıdan, ibrətlənməyə sövq edən dəyərli şeir və hekayələri tədqiqata cəlb etmiş, Zahid Xəlil,

Nəbi Xəzri, Rafiq Yusifoğlu, Ələmdar Quluzadə, Rafael Hüseynov, Vahid Əziz, Bahar Bərdəli, Məmməd Namaz, Gülzar İbrahimova, Leyla Əliyeva, Əkbər Qoşalı və onlarla digər müəllifin öz əsərlərində məhz janrın tələblərinə uyğun yaratmağa nail olduğu parlaq obrazın ideya-məzmununu şərh etmişdir. "Hər bir insanın ilhamverici qüvvəsi var. Mənə ilham verən ən böyük qüvvə Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir, Azərbaycanın gələcəyidir" – deyə böyük inam və məhəbbətlə baxdığı gələcəyin təmsilçilərinə Heydər Əliyevin tarixi obrazının layiqincə tanıdılması uşaq ədəbiyyatının ümdə vəzifəsi kimi mənalandırılır.

Filologiya üzrə elmlər doktoru, professor Əlizadə Əsgərlinin qələmə aldığı "Heydər Əliyevin ədəbi-filoloji portreti" fəslində çoxsaylı ədəbiyyatşünaslıq əsərləri, monoqrafiya və məqalələr əsasında görkəmli filoloq-alimlərin, ədəbiyyat xadimlərinin cızdığı ədəbiyyatdan və əbədiyyətdən görünən Heydər Əliyev obrazına diqqət cəlb olunur. Beləliklə də bədii təfəkkürün təqdim etdiyi Ulu Öndər obrazı, eyni zamanda İsa Həbibbəyli, Bəkir Nəbiyev, Yaşar Qarayev, Teymur Kərimli, Teymur Əhmədov, Rafael Hüseynov, Nizami Cəfərov, Məhərrəm Qasımlı, Nizaməddin Şəmsizadə və b. ədəbiyyatşünasların, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Anar, Elçin  və b. ədiblərin elmi yaradıcılığı zəminində analitik təfəkkür süzgəcindən keçərək bir daha təsdiqini tapır, tamamlanır.

Ulu Öndər Heydər Əliyevin adı, arzu və əməlləri onun ideya və ideallarında yaşayır. Monoqrafiyada bütün fəsillər məhz bu məqamı ifadə edən varis obrazına diqqət çəkməklə yekunlaşır. Belə ki, gündən-günə yeniləşən, çağdaş dünya meridianlarında yerini axtaran, Şərqdən Qərbə, Qərbdən Şərqə gedən yolların qovşağında hər gün daha da çox mərkəz, görüş, ünsiyyət məkanı rolunu oynayan, bəşə-

riyyətin taleyini düşünən ictimai-siyasi, tarixi-mədəni, qlobal, milli və multikultural ideyaların, ideologiyaların, müzakirə və tədbirlərin əsl sınaq meydanına çevrilən ən yeni Azərbaycanın obrazı məhz Heydər Əliyev ideya və ideallarının təcəssümüdür. Bu yeni əsərin, yeni Azərbaycanın qəhrəmanı – Heydər Əliyev yolunun layiqli davamçısı, Ulu Öndərin Azərbaycançılıq təlimini yeni tarixi şəraitdə yaradıcı şəkildə inkişaf etdirən, Azərbaycan adını, Azərbaycan xalqının xoş niyyət və məramlarını hər gün dünyaya daha da çox tanıdan, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdir. Yeni əsrin və əsərin qəhrəmanı haqqında ilk nümunələrin – poeziyada, ədəbi publisistikada, bədii-sənədli janrda yaranması da bunu təsdiq edir. Bu həm də Heydər Əliyev ideyalarının gerçəkliyi və qələbəsidir.

Bütövlükdə, oxucuların diqqətinə çatdırılan "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" monoqrafiyası da həmin həqiqətin elmi təsdiqini verməyə çalışmışdır.

# ƏDƏBİ PROSES HƏRƏKATI: PRAKTİKADAN GERÇƏKLİYƏ*

*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "İlin ədəbi yekunları"*

Belə. Bu gün bizdə "Ədəbiyyat varmı, yoxmu"dur? İlin "Ədəbiyyat adamı" kim(lər)dir? İlin hekayə müsabiqəsi; ən yaxşı dram əsəri; roman mübahisəsi; povest varmıdır-yoxmudur... – janr (ədəbiyyat) çəkişmələrinin sonucu nədir? Bəs "Söz azadlığı tənqidimizə nə verib"dir? Xalq şairləri, yoxsa Xal*q/x*ın şairi? Ədəbiyyat və "olmadığı yerlər" arasında demarkasiya xətti nerədən keçir? Qərbmi, Şərqmi? Cavidin, Vurğunun, Müşfiqin sözünü bugün kim deyir, kimlər danışır? Bəs Ələkbər Sabirin, Mirzə Cəlilin?.. "İlin alimi"ni nə, nəmənə və hansı instansiya müəyyən edir? İlin ədəbi sensasionu, motivasionu, ədəbi hadisəsi...

Və s. və s. və s. bu kimi – ədəbi mentalitet, istiblişment, agent və agenturanın müxtəlif mərtəbə və diapazonlarda səsləndirdiyi, yaydığı, şəbəkələndirdiyi çoxsaylı sual və cavab (sual-cavab) axtarışlarına iyun ayının 4-də (2018-ci il) AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Hüseyn Cavid, 115, 4-cü mərtəbə, Elektron Akt zalında keçirdiyi növbəti "İlin ədəbi yekunları"ndakı çıxışında İnstitutun direktoru akademik İsa Həbibbəyli geniş bir jestlə son qoymuş oldu. "Ədəbi proses hərəkatı"nı publik olaraq bəyan və Ədəbiyyat İnstitutunu onun hamisi elan etdi: "Doğrudan da, bu ilin səviyyəsindən baxanda hazırkı mərhələdə "Ədəbi proses" yaradıcılıq müşavirələri əhatə dairəsinin və iştirakçılarının genişliyinə, müzakirələrin miqyasına, əks-

---

* Məqalə "525-ci qəzet"in 23 iyun 2018-ci il və "Ədəbiyyat qəzeti"nin 23 iyun 2018-ci il tarixli sayında dərc edilmişdir.

sədasına və problemlərinin masştabına görə elmi-ədəbi hərəkat səviyyəsinə çatmışdır. Bu, müasir Azərbaycan ədəbiyyatını illər üzrə bütün yönləri ilə təhlil edib dəyərləndirən ardıcıl və sistemli bir elmi-ədəbi hərəkatdır. "Ədəbi proses" marafonu müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mahiyyətini açan, səciyyəsini müəyyən edən, modellərini meydana qoyan, gələcək inkişaf yollarını göstərən hərəkatdır..."

"Əhatə və genişlik" öz yerində... 2017-ci ilin ədəbi yekunlarına toplaşmış məclisdə AYB-nin katibi Rəşad Məcid iştirak edirdi; "Ədəbiyyat qəzeti"nin baş yazarı Azər Turan vardı; "Azərbaycan" jurnalını baş redaktorun müavini qismində Südabə Ağabalayeva təmsil edirdi. Və bir də yer-yerdən ədəbi tənqidçilər: məşhur Rüstəm Kamal (BSU), məşhur Məti Osmanoğlu (BDU), məşhur Təyyar Salamoğlu (ADPU) və qeyriləri. Qeyriləri içrə əsas ədəbi qüvvələri Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu təşkil edirdi, şəksiz. Başda "Ədəbi tənqid" şöbəsinin iradəçisi (müdiri) Vaqif Yusifli olmaqla azman tənqidçilər: Cavanşir Yusifli, Elnarə Akimova, Nərgiz Cabbarlı... və sıradan bir çox digər peşəkar, habelə həvəskarlar; mən (Tehran Əlişanoğlu) qarışıq, gəlin razılaşaq ki, cüzi istisnalarla ölkənin tüm ədəbi tənqidçi korpusu buradaydı...

Hərçənd ki, əvvəlki illərdən fərqli gözə yazarlar az dəyirdi. Nə var, nə var illər öncə yazarlardan biri Ədəbiyyat İnstitutunun dəhlizləri uzunu qapıları döymədən gəzişib, burda ölüm sukutunun hökm sürdüyünə qərar vermişdi. Hələ də zərb-məsəl kimi yadda qalan o əyyamların bəlkə bugün, əksinə, həyat dolu, canlı, gur səs-küylə əvəzlənməsindən ürküb-çəkinib də məclisdən qaçaq düşmüşdülər. Amma hər halda yazarlar sarıdan da konsensus vardı; başlıca, Azər Turan çıxışında qeyd elədi ki, ölkənin baş yazarı

Anar müəllimin məsələdən xəbəri var... Hələ iki gün qabaq, "Ədəbiyyat qəzeti"nin 2 iyun 2018-ci il tarixli Xüsusi buraxılışında yaradıcılıq müşavirəsinin geniş proqramı ilə yanaşı, məruzələrin yığcam variantları da dərc olunmuş, "ədəbi proses hərəkatı" bununla xeyli qabağa düşmüşdü.

Bu yerdə gəlirik, akademik İsa Həbibbəylinin vurğuladığı: "müzakirələrin miqyası, əks-sədası və problemlərin masştabı" məsələsinə. "Ədəbiyyat qəzeti"nin Xüsusi buraxılışında geniş ədəbi auditoriyalara təqdim etdiyi məruzələrə (mənzərələrə) bir daha diqqət edin. Akademik İsa Həbibbəyli, "Ədəbi proses hərəkatı. İcmal tənqidindən monoqrafik dərinliyə"; Elnarə Akimova, "2017-ci ilin ədəbi təqvimi – keçmiş davamedici zaman"; Vaqif Yusifli, "Poeziya... poeziya... 2017"; Cavanşir Yusifli, "İlin ədəbi tənqidi: Zaman kontekstində baxış"; Aynurə Mustafayeva, "İlin dramaturji mənzərəsi"; Nərgiz Cabbarlı, "Roman janrı – yeni texnologiyalar, yeni poetik xüsusiyyətlər"; Maral Yaqubova, "Ədəbiyyat nəzəriyyəsinin səviyyəsinə ümumi baxış"; Lalə Həsənova, "Azərbaycan rusdilli nəsri"; Günay Qarayeva, "Uşaq nəsri və dramaturgiyasının müasir durumu və perspektivləri"; Esmira Fuad, "2017-ci ilin epik şeiri: tənəzzül, yoxsa inkişaf?"; Eşqanə Babayeva, "Azərbaycan və türk ədəbi əlaqələri"; Nizami Hüseynov, "Bölgələrdə ədəbi həyat"; Pərvanə Məmmədli, "Cənubda ədəbi proses"; Aygün Bağırlı, "Poeziyada görünən uşaq dünyası"; Nərmin Cahangirova, "Müasir hekayəyə bir nəzər"; Xanım Zairova, "Ədəbi proses 2017. Azərbaycan və Qərb ədəbi əlaqələrinin izi ilə"; Mərcan Sofiyeva, "Bədii tərcümə - mədəniyyətlərin təması"; Vüqar Əhməd, "Elm və bədii yaradıcılığın qovuşuğunda"; Elçin Mehrəliyev, "Publisistika: meyillər, problemlər, axtarışlar". Əgər israrən diqqət etdinizsə: mə-

gər akademikin iddia etdiyi “miqyas və əks-səda” məsələsi zatən aşkarca görünmürmü?!

Bugün yaşadığımız postmodern durumda ədəbi proses iddialıları, proses subyektləri çox-çoxdur; geniş TV-auditoriyaların, internet-şəbəkələrin, KİV-bumunun, QHT-özfəaliyyətlərinin sərhədsiz və “qaydasız döyüş” sınırlarını bir anlıq yada gətirəndə, hətta deyərdim: bu gün “hərəkat”a flaqmanlığı boynuna almağın özü belə riskli görünür. Bu əsnada ədəbi prosesdə Ədəbiyyat İnstitutunun flaqmanlığını “Ədəbiyyat qəzeti”nin ardınca “Ədəbi 525” də tanıdı. AYB-nin katibi, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid çıxışında “Ədəbi proses” müşavirələrini nəinki özlüyündə “hadisə” adlandırdı, hətta bir az da qabağa gedib, ümumən “İlin ədəbi hadisələri”ni təyin etməkdə münsiflik statusunu məmnuniyyətlə Ədəbiyyat İnstitutuna tərk etməyi təklif elədi. “Ədəbiyyat qəzeti”nin baş redaktoru, qəzetə gəlişi ilə özü bir hərəkat (“azər-turançılıq”!) başlatmış Azər Turan da, istər “xüsusi buraxılış”dakı “Baş redaktordan” yazısında, istərsə də çıxışında “Ədəbi proses” müşavirələrini Vissarion Belinskinin “1847-ci il rus ədəbiyyatına bir nəzər” icmalı ilə müqayisə edərək, “Ədəbi hadisə” istəmək, gözləmək və ən nəhayət yaratmaq missiyasını məhz Ədəbiyyat İnstitutundan umduğunu bəyan etdi. Məşhur tənqid uzmanı, 2017-ci ilin nəticələrinə görə, Ədəbiyyat İnstitutunun təsis etdiyi “İlin alimi” mükafatının qalibi Rüstəm Kamal daha böyük ümumiləşdirmə apararaq, “böyük şəxsiyyətlər olan yerdə böyük ideyaların yarandığı”nı, son illərdə məhz akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Ədəbiyyat İnstitutunun bütövlükdə ölkədə Azərbaycan ədəbiyyatına sahib çıxdığını və ədəbi ideyaların, təhlillərin, proqnozların gerçəkləşdirilməsində “lokomotiv” rolunu çəkinmədən, qəti vurğuladı.

Akademik İsa Həbibbəylinin 2013-cü il Ədəbiyyat İnstitutuna gəlişindən bəri təşəbbüskar və aparıcı missiyasını çıxış edənlərin cəmisi – tənqidçi Elnarə Akimova da, filologiya üzrə elmlər doktoru Mahirə Quliyeva da, AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu da, "Ədəbi tənqid" şöbəsinin yönəltməni Vaqif Yusifli də, Mühacirətşünaslıq lideri Nikpur Cabbarlı da bir daha, bir daha yada salmağı lazım bildi. Hətta qonaq qismində məclisdə iştirak edən Misir Mədəniyyət Mərkəzinin müdiri Əhməd Sami Elaydi İnstitutda müasir Azərbaycan ədəbiyyatı naminə tüm çalışmaları təxirsiz əcnəbi dillərə, o cümlədən ərəbcəyə çevirib dünyaya (o sıradan Ərəb dünyasına) bəyan etməyi vacib bildi.

Akademik İsa Həbibbəyli müşavirəyə diqqət və önəm verən, toplaşan, onu tanıyan və tanıdan bütün ədəbi aləmə Ədəbiyyat İnstitutu adından sayğı və minnətdarlığını ifadə etdi. Xüsusən də böyük səmimiyyətlə müşavirəyə ayrıca qəzet (Xüsusi buraxılış) yapmış "Ədəbiyyat qəzeti" və onun baş yazarına. Ki, bəlkə 1960-cı illərin sıx elmi-ədəbi kontaktlarını, həmin dövrdə Ədəbiyyat İnstitutu elmi məclislərinin qəzetdə görünən xülasə-icmallarını və sonralar da ara-sıra davam edən bu növ istisnaları çıxsaq, ölkənin yeganə ədəbiyyat qəzeti tarixində ilk dəfədir ölkənin baş elm məbədgahına bu səviyyədə, bu miqyasda diqqət ayırır. Qəzetin üz qabığında AMEA binasının simvolik şəkli, habelə səhifələrində Ədəbiyyat İnstitutundan tarixi fotolar yer almaqla, "İlin ədəbi yekunları" 19 yazıda(n) geniş, ətraflı, təfərrüatlı plastika və panoramını tapır. Ümumən, "Ədəbiyyat qəzeti"nin son zamanlar gündəm çərçivələrinə sığmayıb, genişliyə açılması, əvvəlcə ölkənin baş yazarı Anarın 80, daha sonra Xalq yazıçısı Elçinin 75 illiyinə və hazırda Ədəbi proses hərəkatına Xüsusi buraxılış həsr etməsi, əlavə vurğu salması yaxşı haldır, təqdiredicidir, ümumi ədəbi gə-

lişməyə stimul verir, dividend gətirir. O cümlədən akademik İsa Həbibbəyli o məqamı da xatırlatdı ki, bu il Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun da 85 yaşı tamam olur və əslində, "Ədəbi proses hərəkatı"nın tarixən və tarixi gəlişməsinə, xüsusən də aktuallanmış son beş ilinə ayna tutan hazırkı yaradıcılıq müşavirəsi də il boyu davam tapan həmin yubiley tədbirləri sırasındandır.

Akademik İsa Həbibbəyli çıxışını (habelə Xüsusi buraxılışda dərc olunan "Ədəbi proses hərəkatı..." məqaləsində) həmin prosesin hələ qırx il öncədən start götürən tarixinə qısa bir ekskursla başladı. Ədəbi proses hərəkatının təməli 1976-cı ildə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin müdiri, akademik Məmməd Cəfər Cəfərovun xeyir-duası və ümumi rəhbərliyi ilə, "Müasir ədəbi proses" şöbəsi və şöbəyə başçılıq edən ünlü tənqidçi və ədəbiyyatşünas Yaşar Qarayev tərəfindən qoyulmuş, az qala on il – 1976-1984-cü illərdə, sovet quruluşu ilə birgə proses əvvəlki ölçülərində səngiyib sönənəcən davam tapmışdır. Əslində, bu – bütün ideoloji rəng və retuşları ilə birgə həm də elə müasir ədəbiyyatımızın təməl tapdığı tarixdir. "Ədəbi proses-76", "Ədəbi proses-77", "Ədəbi proses-78", "Ədəbi proses-79", "Ədəbi proses-80", "Ədəbi proses-81-82", "Ədəbi proses-83-84" topluları – ədəbi proses hərəkatının yarandığı dövrün bütöv bir kitabxanasını yaratdı. Akademikin qeyd etdiyi kimi: "Dövrün (hətta sonrakı mərhələlərin də) heç bir nəşrində 1976-1984-cü illərin ədəbi prosesi həmin illərin ədəbi gedişatına həsr olunmuş ədəbi növlər üzrə icmallarda olduğu qədər özünün real, geniş və sistemli əksini tapa bilməmişdir..."

"Hərəkat" eyni zamanda bu mənzərəni analitik şəkildə ədəbi ictimaiyyətə təqdim edə bilən kadrları – bütöv bir tənqidçi korpusunu yetirdi. Akademik İsa Həbəbbəylinin

yada saldığı kimi: "Ədəbi proses müşavirələrində ardıcıl olaraq ədəbi növlər üzrə çıxış etmiş elm adamları... – Yaşar Qarayev ədəbi tənqid, Şamil Salmanov, Şirindil Alışanlı poeziya, Akif Hüseynov, Vaqif Yusifli və Vilayət Quliyev nəsr, Arif Səfiyev dramaturgiya sahəsində ixtisaslaşmış, – ölkə ədəbiyyatında gedən proseslərə təkan verə bilən mütəxəssislər kimi qəbul olunmuşlar..." Həmin köhnə qvardiyanı 4 iyun 2018-ci il tarixli elmi tədbirdə filologiya elmləri doktoru Şirindil Alışanlı təmsil edirdi və o cümlədən çıxışında həmin tarixi dövrün bir az da doğru-dürüst bərpasına cəhd etdi. Doğrudur, o zamanlar ədəbi proses hərəkatını Kommunist Partiyasının özü, MK bürosunun "Ədəbi tənqid haqqında" qərarı ilə başlatmışdı, ol zamanlar başqa cür olmurdu da; amma həmişəki təki qərar və qətnamələrdən özünəxas şəkildə yararlanan milli cəmiyyətimiz və ədəbiyyatımız olmuşdu. Çıxışçı müqayisə üçün, o zamanlardakı senzura, həcm və fikir qəliblərini də yada saldı. İndi olmayan yerdən söz deməyə nə var, ol zamanlar, demə, olan yerdən deyilən sözlərə görə hətta cəzalandırırmışlar da; və faktik olaraq Məmməd Cəfər müəllimin onu təqiblərdən necə qurtardığını yada saldı. Çıxışda: hanı ol zamanlar, - deyə, zəif bir nostalji də duyulurdu; "Ədibin evi"nin bugünlərdə keçirdiyi Mir Cəlal adına hekayə müsabiqəsinin sözçüsü kimi də danışan Şirindil Alışanlı müsabiqəyə 300-dən artıq daxil olmuş mətnlər içərisində əsl hekayə axtarışının müşküllərini də auditoriya ilə bölüşdü...

Nostalji notları hardasa Məti Osmanoğlunun da çıxışında vardı; həmin 1970-ci illərin ikinci yarısı, "Müasir ədəbi proses" kursunun təhsil sisteminə də girdiyi çağlarda bu fənni ilk dəfə, ol zamanlar yeganə olan universitetdə, tələbələrə Bəxtiyar Vahabzadə tədris etmiş; böyük şairlə başlayan o polemik ruh, ədəbi mübahisələr, tənqid havacatı bu

günəcən də məşhur tənqidçinin nəzərlərindən çəkilməmişdir. Sonrakı çıxışlarda da "hərəkatın tarixi"ni dürüstləşdirmək səyləri oldu; Yaşar Qarayev 1990-cı illərdə İnstitutda "Müasir ədəbi proses" şöbəsini (hazırda "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı") bir daha bərpa etməklə "hərəkat"ı dirçəltməyə cəhd edir, 2000-ci illərdə akademik Bəkir Nəbiyevin zamanında da şifahi müşavirələr şəklində "İlin ədəbi yekunları" ara-sıra rezonanslar doğurur. Və yalnız 2013-cü ildən, İnstitutda akademik İsa Həbibbəyli tərəfindən "Ədəbi tənqid" şöbəsinin yaradılması ilə, "proses" əvvəlki güc və formatda, üstəlik müstəqillik faktorunun artırdığı ikiqat şiddətlə gəlişməyə başlayır: "Ədəbi proses 2013", "Ədəbi proses 2014", "Ədəbi proses 2015", "Ədəbi proses 2016", "Ədəbi proses 2017" topluları getdikcə artan əhatə və siqlətlə işıq üzü görür...

Bir var "proses" barəsində eləcə danışasan, "varmıdır-yoxmudur?" deyib nostalji xəyallara dalasan. Bir də var prosesin özünü yaradasan, performativ olaraq, ilbəil təqdim edəsən, dərininə gedəsən, ardıcıl gəlişdirəsən, bütün sual-cavabları ilə birgə bilavasitə onu hərəkata çevirəsən... Akademik İsa Həbibbəylinin yəmin etdiyi kimi: "Həqiqətən də "Ədəbi proses-2014" geniş mənada ədəbi proses hərəkatında mühüm bir dönüş mərhələsi olmuşdur. "Ədəbi proses 2014"dən başlanan proseslər 2015 və 2016-2017-ci illərin ədəbiyyatının təqdimatında daha da genişlənmiş və dərinləşdirilmiş, sistemli xarakter almışdır. "Ədəbi proses 2015"də janrlar üzrə təhlillərin marafonuna satira, 2016-da uşaq şeiri ilə uşaq nəsrinin ayrı-ayrılıqda təmsil olunması, ədəbiyyatşünaslığın ədəbiyyat nəzəriyyəsi və ədəbi əlaqələr sahələri də qoşulmuşdur. Necə deyərlər, "Ədəbi proses 2017"də artıq "Ədəbi proses" qatarı 19 vaqonla (məruzə ilə) yola çıxmışdır. Bu, ədəbi proses hərəkatının inkişafında

pik nöqtəsidir və ədəbiyyatın dərinliklərinə və ən uzaq hədəflərinə doğru yürüşün müzəffər marafonudur. Məruzələrin sayca çoxluğu yaradıcılıq mühitində ədəbi növlərin demək olar ki, bütün əsas janrlar üzrə yaşadığı keyfiyyət dəyişikliklərini izləməyə imkan açır...”

Akademik İsa Həbibbəyli çıxışında  (habelə “Xüsusi buraxılış”da çap olunmuş geniş nitqində) “hərəkat”ın yalnız tarixini nümayiş etdirməklə qalmadı, nəzəriyyəsinə də vardı, qırx il öncəki “ədəbi proses”lə müstəqillik dövrü hərəkatının fərq və incəliklərinə baş vurmaqla, konkret nəzəri proqramını şərh etdi. Göstərdi ki, ümumən nəzəriyyəsiz “proses” bircə addım da irəliləyə bilməz; elə 2017-ci ilin ədəbi yekunları da bununla seçilirdi ki, əksər məruzələrdə bu və ya digər qədər bir nəzəriyyə duzu vardı...

Artıq mətbuatda dərc olunmuş məruzələr (“Ədəbiyyat qəzeti”nin xüsusi buraxılışı, 2 iyun 2018-ci il) bütün polemik ruhu ilə birgə mənim yadımda ən çox məhz doğurduğu bir sıra nəzəri təəssüratlarla qaldı. Görən, ədəbiyyatımız klassik (Şərq) zəminini unudub tapındığı Qərb stixiyasında çoxmu israr edəcək?; ya hər halda (hazırda yüz illiyini bayram etdiyimiz) klassik sintezmi qalib gələcək? (Elnarə Akimova).“Poeziya, poeziya...” – görən, bugün İrandan da, Turandan da, Amerikadan, Azərbaycandan, Avropadan da yazan şairlərimizin şeirlərində “XXI əsr Azərbaycan insanının öz obrazını görmək” bizə nəsib olacaqmı? (Vaqif Yusifli). Azərbaycan ədəbi tənqidinin “Roma Papasından artıq olmaq” istəyinin sirri, görən, nədədir? (Cavanşir Yusifli). Bəs “çağdaş elmi idrakın mütləq heç nə tanımadığı”hazırkı zamanın həqiqəti nədən ibarətdir? (Maral Yaqubova).Görən, “dünyanın min illər əvvəl sahib olduğu dialoqa girmək, müzakirə müstəvisi yaratmaq mədəniyyəti”nə bizim mental düşüncəmizdə də yer tapılacaqmı? (Aynurə Mustafayeva)

Neçə illərin “model” axtarışlarından sonra ən nəhayət, roman texnologiyalarının nəsrimizdə qələbəsindən danışa bilərikmi? (Nərgiz Cabbarlı) və s.

Məruzələr ümumi razılıqla yanaşı, müəyyən tənqid notları doğurduğu kimi, bir sıra yarımçıq məqamlara, problemlərə, suallara da meydan açdı. Nədən Cənub ədəbiyyatı artıq dünya kontekstində göründüyü, yer aldığı halda biz bu barədə ürək genişliyi ilə danışmırıq? (Pərvanə Məmmədlinin məruzəsindən) Ədəbi gəncliyin yaş senzi nerədən keçir?; nədən bu sıradan eyni adlar, imzalar ildən ilə, məruzədən məruzəyə adlayır, gəncliyin bir “qocalması” da olmurmu ya? (Fidan Abdurəhmanovanın məruzəsinə irad) Ədəbi publisistikanın bir sərhədi varmıdır – bədii, jurnalistik (qəzet), ya elmi publisistika? (Elçin Mehrəliyevin məruzəsinə sual) Bəs esseistikanın: tənqidmi, publisistikamı, yoxsa nəsr? (Çıxışlardan) ... Müzakirələr eninə və dərininə, perspektivlərə də rəvac verdi; yeni məruzə mövzuları irəli gəldi. Klassik ədəbiyyat (janrlar) bugün necə yaşayır? Esseistikanın bugünü ayrıca diqqət istəmirmi? İlin ədəbi tənqidi, ədəbiyyat nəzəriyyəsi hədəfdədirsə, ədəbiyyat tarixçiliyi nədən kənarda qalmalıdır? – və s. kimi.

Sonda hətta məclisin özünün formatı söhbət predmeti oldu. Elmi sessiya, konfrans, ya yaradıcılıq müşavirəsi? Fikir səsləndi ki, Ədəbiyyat İnstitutunda hər il İlin yekunlarına dair müşavirələr elmi problem və məruzələrin siqləti və istiqaməti etibarilə ədəbiyyatşünaslıq konfransına çəkir. Polemik fikrə münasibət bildirən akademik İsa Həbibbəyli ədəbi proses hərəkatının təkcə elmi auditoriyalarla hüdudlanmayıb, daha böyük əhatədə ədəbi ictimaiyyəti ehtiva etdiyini, səciyyəsinə görə konfransdan bir qədər yuxarı, qurultaydan bir az aşağı – məhz yaradıcılıq müşavirəsi formatına uyğun gəldiyini iqrar etdi. Nədən olmasın?!

Doğrudur, səkkiz saata qədər davam edən müşavirədə(n) ədəbi prosesin son bir ilinin, ya beş ilinin, hətta hardasa həm də qırx ilinin irəli sürdüyü, ortaya çıxardığı, həllini axtardığı bütün problemlərə cavab gözləmək qeyri-real olardı. Başlıcası, ortada "hərəkat" vardı, tüm problemlərin həllini də ona etibar etmək olardı. Akademik İsa Həbibbəylinin vurğuladığı kimi: daha çox yeni tənqidçilər nəslinin təmsil olunduğu, tədricən köhnə qvardiyanı əvəz edən "gənc qvardiya"nın aparıcılığı ilə gerçəkləşən "ədəbi proses hərəkatı"na. Hərəkatda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun flaqmanlığı heç kəz heç kəsdə şübhə doğurmurdu.

## AKADEMİK İSA HƏBİBBƏYLİ – BİBLİOQRAFİYADAN GÖRÜNƏN BİOQRAFİYA*

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Akademik İsa Həbibbəyli" (Bakı, 2018) biblioqrafiyası işıq üzü görmüşdür. Biblioqrafiya Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Əməkdar elm xadimi, akademik İsa Əkbər oğlu Həbibbəyliyə (1949) həsr edilmişdir.

Akademik İsa Həbibbəyli akademik humanitar və ictimai elmlər sahəsində, mədəniyyət və cəmiyyət həyatında nüfuzlu ad yaratmış simadır. O, çoxcəhətli elmi fəaliyyət sferasında və ölkədə gedən ictimai-mədəni və elmi-ədəbi proseslərdə yaxından və fəal iştirak etməklə əsl mənada tədqiqatçılıq, ziyalılıq və vətəndaşlıq borcunu ardıcıl olaraq yorulmadan həyata keçirməkdə davam edir. Akademik İsa Həbibbəyli elmdə, mədəniyyət və cəmiyyət həyatında nüfuzlu adını çoxyönlü nadir istedadı, geniş və miqyaslı fəaliyyəti, universal və sanballı elmi yaradıcılığı, tükənməz enerjisi və əməyi sayəsində qazanmışdır. Biblioqrafiyada üç dildə - Azərbaycan, ingilis və rus dillərində bütövlükdə akademikin ömür yolunu, o cümlədən 1964-2018-ci illər arası mətbu fəaliyyətini işıqlandıran 3325 adda göstərici bunu əyani şəkildə göstərir. "Göstərici haqqında" oxuyuruq: "Biblioqrafiyada İsa Həbibbəylinin kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisistik məqalələri, rus və başqa dillərdə çap olunmuş əsərləri, tərcümələri, redaktə etdiyi kitablar, elmi məsləhət-

---

* Məqalə "525-ci qəzet"in 2018-ci il 10 sentyabr tarixli sayında dərc edilmişdir.

çisi, elmi rəhbəri və opponenti olduğu elmi işlər, habelə görkəmli alimin həyat və yaradıcılığı haqqında materiallar öz əksini tapmışdır”.

Biblioqrafiya çağdaş kitabşünaslığa xas mükəmməl giriş hissəsindən başlanır. AMEA-nın müxbir üzvü Kamran Əliyev və filologiya elmləri doktoru, professor Məmməd Əliyevin “Böyük ömrün illəri və əsərləri” adlı zəngin mündəricəli ön sözündə akademik İsa Həbibbəylinin həyat və yaradıcılığı geniş şərh olunur, akademikin Azərbaycan ədəbiyyatşünaslığında yeri, elmə gətirdiyi yeniliklər, ədəbiyyat tarixçiliyi və tənqidşünaslıq əsərləri, nüfuzlu nəzəriyyəçi və Cəlil Məmmədquluzadəşünas alim kimi yorulmaz fəaliyyəti, habelə elm və təhsil təşkilatçısı, ictimai-siyasi xadim olaraq xidmətləri müfəssəl işıqlandırılır, alim şəxsiyyətinə böyük dəyər verilir. Daha sonra “Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri”, “Akademik İsa Həbibbəyli: Mükafatları” bölmələrində alim və ictimai xadimin keçdiyi mənalı həyat yolu, elm və ədəbiyyat naminə əzm və fədakarlığı, ictimai amalı və bu yolda qazandığı zəfərlər fakt və sənədlərdə əksini tapır.

“Akademik İsa Həbibbəylinin fikirlərindən seçmələr”, habelə “Görkəmli şəxsiyyətlər İsa Həbibbəyli haqqında” bölməsi akademikin ömür marafonunun zirvə məqamlarını, elmi-ictimai nüfuzunu, yaradıcılığının ədəbi-tarixi dəyərini daha yaxından görməyə, duymağa və qiymətləndirməyə imkan yaradır. Belə ki, İsa Həbibbəyli haqqında: Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Elçin, Anar, Mahmud Kərimov, Bəkir Nəbiyev, Cavad Heyət, Rasim Əliquliyev, İsmayıl Hacıyev, Rudolf İvanov, Teymur Kərimli, Əziz Mirəhmədov, Yaşar Qarayev, Nizami Cəfərov, Sabir Rüstəmxanlı, Yavuz Akpınar, Vilayət Quliyev, Azad Nəbiyev və b. onlarla görkəmli şəxsiyyətlər, akademiklər, elm xadimlə-

ri, ziyalılar, şair və yazıçılar yüksək fikir söyləmiş, söz demişlər.

Giriş hissəsindən sonra biblioqrafiyanın əsas məndəricəsini qapsayan bölmələr gəlir və hər üç dildə geniş materialı ehtiva edən dörd hissə (I, II, III, IV hissələr), hər hissə bir neçə fəsil, yarımfəsil və bəndlərdən ibarət olmaqla, akademikin hərtərəfli fəaliyyət və yaradıcılığına müəyyən bir rakursdan, ümumiləşmiş baxış bucağı və istiqamətdən nəzər salmağa imkan yaradır və hər dəfə alimin obrazını yenidən, ömür salnaməsinin başqa bir tərəfindən göz önündə canlandırır.

Biblioqrafiyanın I hissəsi "Akademik İsa Həbibbəylinin əsərləri" adlanır və akademiki oxucuya olduqca zəngin məndəricəli, rəngarəng tematikalı, müxtəlif janrlarda kitabları, monoqrafiyaları, elmi, tənqidi, bədii, publisist məqalə və əsərlərindən tanıdır. Bu hissə, təbii ki, ən geniş həcmdə olub,1908 adda göstəricini əhatə edir. Burada akademik İsa Həbibbəylinin "Kitabları" (64 adda), o cümlədən "Xarici dillərdə və xarici ölkələrdə nəşr olunmuş kitabları" ilə (65-dən 86-ya) yanaşı, "Tərtibçi-müəllifi olduğu kitablar" (87-dən 124-ə), "Kitablarda və dövri mətbuatda nəşr edilmiş şeirləri", "Mahnıları", "Ssenariləri" (125-dən 151-ə) haqqında müfəssəl məlumat yer alır; çoxsaylı məqalələri – "Kitablara və toplulara daxil edilmiş məqalələri" (152-dən 547-yə), "Elmi toplularda və jurnallarda dərc olunmuş məqalələri" (548-dən 809-a), "Qəzetlərdə dərc olunmuş məqalələri" (810-dan 1299-a); o cümlədən "Müsahibələri" (1300-dən 1343-ə), "Xarici dillərdə və xarici ölkələrdə nəşr olunmuş məqalələri" – hər ölkə ayrılıqda vurğulanmaqla: Almaniya, Belçika, Bolqarıstan, Çin, Fransa, Gürcüstan, İran, Koreya, Qazaxıstan, Litva, Macarıstan, Misir, Özbəkistan, Pakistan, Polşa, Rumıniya, Rusiya, Türkiyə, Türkmənistan,

Ukraynada (1344-dən 1496-ya) və vətəndə “Xarici dillərdə məqalələri” (1497-dən 1536-ya) geniş əksini tapır; habelə “Redaktoru olduğu və ön söz yazdığı nəşrlər” (1537-dən 1743-ə), “Elmi məsləhətçisi olduğu nəşrlər” (1744-dən 1778-ə), “Rəyçisi olduğu nəşrlər” (1779-dan 1833-ə), “Layihə müəllifi və rəhbəri olduğu nəşrlər” (1834-dən 1846-ya), “Tərcümələri”, “Azərbaycan Respublikası Milli Məclisinin iclas və sessiyalarında çıxışları” barədə (1847-dən 1908-ə) dürüst informasiya verilir. Beləliklə, “Akademik İsa Həbibbəylinin əsərləri” biblioqrafiya aynasında alim ömrünün bütövlükdə siqlətini göstərməklə yanaşı, baş vurduğu sahələrin coğrafiyasının genişliyini, fəth qıldığı üfüqlərin əyaniliyini də ortaya qoyur.

Akademik İsa Həbibbəylinin ilk kitabı 1984-cü ildə çap olunmuş “Romantik lirikanın imkanları” monoqrafiyasıdır. Monoqrafiya İsa Həbibbəylini elmi ictimaiyyətə romantizmşünas alim, problemin nəzəri üfüqlərini genişləndirmiş bir ədəbiyyatşünas kimi tanıtmışdır. Sonrakı kitablarında – “Ədəbiyyat nəzəriyyəsi” (1985), “XX əsr Azərbaycan yazıçıları” (1992), “XX əsrin əvvəlləri Azərbaycan yazıçıları” (2004), “Ədəbi-tarixi yaddaş və müasirlik” (2007), “Ədəbi şəxsiyyət və zaman” (2017) və s., habelə onlarla mətbu məqalələrində bu sahədəki tədqiqlərinin davam etdiyini və geniş işləndiyini görür, milli ədəbiyyat tarixində romantizm, realizm, postmodernizm, magik realizm ədəbi cərəyanlarının müstəsna yerinin müasirlik səviyyəsindən dərk olunmasında akademikin ardıcıl səylərinin səngimədiyinin şahidi oluruq. Təsadüfi deyil ki, akademik İsa Həbibbəyli bu gün Azərbaycan ədəbiyyatşünaslığında “ədəbi cərəyanlar” nəzəriyyəsi üzrə ən nüfuzlu simalardan biri olaraq tanınır.

İsa Həbibbəylinin ədəbi növlərin və janrların yenidən təsnif edilməsi, satiranın müstəqil ədəbi cərəyan kimi təqdim olunmasına dair tədqiqatları da onun ədəbiyyat nəzəriyyəçiliyi istiqamətindəki fəaliyyətinin göstəriciləri kimi diqqəti cəlb edir. Eyni zamanda İsa Həbibbəylinin “Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri”nə dair genişhəcmli tədqiqatı da nəzəriyyəçi təfəkkürü ilə yazılmış tədqiqat işi kimi bu aktual problemi ilk dəfə sistemli şəkildə təqdim etməyə xidmət edir. İsa Həbibbəylinin “Ədəbiyyat nəzəriyyəsi” kitabındakı çoxsaylı təriflər, sxemlər və bölgülər də onun həmin istiqamətdə nəzərə çarpan fəaliyyətinin göstəriciləridir.

“Biblioqfaiya”da akademik İsa Həbibbəylinin ədəbiyyat tarixçiliyi sahəsindəki tədqiqatlar da öz əksini tapmışdır. Əsas ağırlığı XX əsrin əvvəllərinə aid olan bu sahədəki fəaliyyət genişlənərək Nizami Gəncəvidən Məhəmməd Füzuliyə, Mirzə Fətəli Axundzadəyə, Cəlil Məmmədquluzadəyə, Məhəmməd ağa Şahtaxtlıya və Səməd Vurğuna... qədərki çoxəsrlik tarixi dövrləri əhatə edir.

Azərbaycan ədəbiyyatının klassiki Cəlil Məmmədquluzadə haqqında “Cəlil Məmmədquluzadə” adlı ilk məqaləsini İsa Həbibbəyli 11 avqust 1976-cı il tarixində “Azərbaycan müəllimi” qəzetində dərc etdirmiş, daha sonra “Bir şəklin izi ilə (Cəlil Məmmədquluzadənin müasirləri ilə əlaqələrinin öyrənilməsi haqqında)” tədqiqat-yazısı ilə “Azərbaycan” jurnalının 1981-ci il 8-ci sayında, “Cəlil Məmmədquluzadənin seminariya müasirləri” məruzəsi ilə isə 1982-ci ildə Cənc alimlərin Respublika konfransında çıxış etmişdir. Bu informasiyanı bizə biblioqrafik göstəricilər verir. Bu gün bizim ədəbiyyatşünaslıqda, yüz ildən çox yaşı olan Cəlil Məmmədquluzadəşünaslığın son mərhələsi və ən böyük uğurları akademik İsa Həbibbəylinin adı ilə bağlıdır.

“Cəlil Məmmədquluzadə və mühiti” münasibətlərini araşdırmaqla ədəbiyyatşünaslığımıza yeni bir istiqamət gətirmiş İsa Həbibbəyli həm özünəqədərki Cəlil Məmmədquluzadəşünaslığın köklü postulatlarını (Mirzə Cəlil realizmi və Molla Nəsrəddinçiliklə bağlı) dərinləşdirməyə nail olmuş, həm də əsasını qoyduğu “mühitşünaslığ”ın işığında Mirzə Cəlil irsinin açılmamış qatlarına yollar açmışdır.

Belə ki, bütün 1980-ci illər ərzində yazıçının bioqrafiyasına ayna tutan yeni materiallarla mətbuatda çıxış edərək, İsa Həbibbəyli “Ədəbiyyat və incəsənət” qəzetinin 1990-cı il 20 aprel sayında dərc etdirdiyi “Cəlil Məmmədquluzadə nə vaxt anadan olmuşdur?”araşdırması ilə klassikin ömür yaşını üç il cavanlaşdırmağa nail olmuş, Cəlil Məmmədquluzadənin 1866-cı ildə deyil, 1869-cu ildə doğulduğunu dəlil və sənədlərlə sübuta yetirmişdir. Eyni zamanda Mirzə Cəlilin bu gün bütün dünyaya dağılmış nəsil şəcərəsinin izinə düşərək, İranda, Fransada və Polşada yaşayan nəvələri ilə görüşə bilmiş, “Ədəbiyyat qəzeti”nin 12 iyun 1998-ci il sayında ilk dəfə “Mirzə Cəlilin nəticəsi ilə müsahibə” dərc etdirmişdir. Onu da vurğulamaq yerinə düşər: hazırda Cəlil Məmmədquluzadə barəsində hansısa bir informasiyanın varlığı güman olunan dünyanın elə bir arxivi yoxdur ki, akademik İsa Həbibbəylinin iti nəzərlərindən yayınmış olsun.

Akademik İsa Həbibbəyli böyük klassik haqqında “Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının əsas tarixləri” adlı ilk kitabını 1986-cı ildə çap etdirmiş, bununla da Mirzə Cəlilşünaslıq kitabxanasını zənginləşdirən neçə-neçə nəşrlərinə rəvac vermişdir: “Cəlil Məmmədquluzadə” (1987), “Cəlil Məmmədquluzadə və ədəbi mühiti: metodik vəsait” (1990), “Zamanın dühası” (1992), “Əsrin dühası: fotoalbom” (1993), “Cəlil Məmmədquluzadə” (1994), “Cə-

lil Məmmədquluzadə: mühiti və müasirləri" (1997), "Cəlil Məmmədquluzadə" (2002), "Cəlil Məmmədquluzadə: biblioqrafik göstərici" (2005), "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Təkmilləşdirilmiş 2-ci nəşri" (2009), "Cəlil Məmmədquluzadə: tanıtma kitabı" (2009). Bundan əlavə, akademik İsa Həbibbəylinin klassiklərə və müasirlərə həsr etdiyi neçə-neçə kitablarında, habelə mətbuatda, qəzet və jurnallarda Mirzə Cəlil haqqında onlarla məqalə və tədqiqatları yer almışdır.

Akademik İsa Həbibbəylinin "tərtibçi-müəllifi olduğu kitablar"ın sırasında da ilk yerdə Mirzə Cəlil adı gəlir. İlk dəfə o, 1990-cı ildə Cəlil Məmmədquluzadənin geniş ədəbi-mədəni ictimaiyyətə məlum olmayan dram əsərlərindən ibarət "Pyeslər" kitabını çap etdirmiş, daha sonralar da ədibin 300-ə qədər yeni əsərlərini üzə çıxararaq, "Cəlil Məmmədquluzadə. Cümhuriyyət" (2002), "Mirzə Cəlil və Məmmədquluzadələr. Məktublaşma" (2003), "Cəlil Məmmədquluzadə: taleyi və sənəti" (2007; 2010) kimi orijinal kitablar buraxdırmış, klassikin əsərlərini "Cəlil Məmmədquluzadə. Əsərləri. 4 cilddə" (2004) və "Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri. 2 cilddə" (2009) nəşr etdirmişdir. Akademik İsa Həbibbəylinin hazırladığı dördcildlik bugünəcən Cəlil Məmmədquluzadə külliyyatının ən mükəmməl nəşri hesab olunur. Akademikin Mirzə Cəlil irsini müasir oxuculara tanıdan geniş maarifçilik fəaliyyəti ilə yanaşı, dünya miqyasında alovlu təbliğatçısı kimi ardıcıl çalışmaları da diqqət çəkir. Belə ki, biblioqrafiyada bu nəşrləri görür və əmin oluruq: "İsa Həbibbəyli şəxsi təşəbbüsü ilə Cəlil Məmmədquluzadənin əsərlərini Misirdə ərəb dilində, Pakistanda urdu dilində, Macarıstanda, Litvada, Gürcüstanda və Özbəkistanda yazıçı haqqında müqəddimələrlə birlikdə tərcümə etdirib kitab halında nəşr etdirmişdir" (s. 22-23).

Akademik İsa Həbibbəylinin Cəlil Məmmədquluzadəşünas tədqiqatçı kimi araşdırmaları bütövlükdə "Molla Nəsrəddin" jurnalı, molla nəsrəddinçilik məktəbi və realizm ədəbi cərəyanının öyrənilməsindəki uğurları ilə tamamlanır. "Ədəbi yüksəliş" (1985), "Mirzə Ələkbər Sabirin həyatı və yaradıcılığının əsas tarixləri" (1987), "XX əsr Azərbaycan yazıçıları" (1992), "Ədəbi şəxsiyyət və zaman" (2017) kitabları ilə yanaşı toplularda, habelə müxtəlif mətbuat orqanlarında çap olunan yüzlərlə məqalələri, "Mollanəsrəddinçi karikatura ustası Oskar Şmerlinq" (2002), "Böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadi" (2012) monoqrafik kitabçaları, tərtibçi-müəllifi olduğu "Məmməd Tağı Sidqi. Məktəb hekayətləri" (1996), "Məhəmmədağa Şahtaxtlı. Seçilmiş əsərləri" (2006), "Əziz Şərif. "Molla Nəsrəddin" necə yarandı" (2009), "Məmmədli Qulam. Molla Nəsrəddin: salnamə" (2009), "Əliqulu Qəmküsar: taleyi və sənəti"(2011), "Məmməd Səid Ordubadi: Həyatım və mühitim" (2012), "Eynəli bəy Sultanov. Publisistika (rus dilində)" (2016), "Eynəli bəy Sultanov. Məqalələr" (2017) və s. göstəricilər bu uğurlardan danışır. Biblioqrafiyaya Ön sözünün müəllifləri faktı dəqiq konstatasiya edir: "Ümumiyyətlə, İsa Həbibbəyli böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin onlarla müasiri haqqında ilk dəfə söz açmış, bu maarifçi ziyalıların fəaliyyətinə dair yüzlərlə sənədi üzə çıxarmış, barəsində geniş məlumat vermiş, onların qarşılıqlı əlaqələrinin mahiyyətini elmi şəkildə aydınlaşdırmışdır. Bütövlükdə akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının "Molla Nəsrəddin" epoxasının mükəmməl elmi salnaməsini yaratmışdır" (s. 24-25).

Akademik İsa Həbibbəyli o ədəbiyyatşünaslardandır ki, dəsti-xəttində milli ideologiya, azərbaycançılıq, dövlətçilik ümdə notları təşkil edir. Çağdaş Azərbaycançılıq məf-

kurəsinin təməl prinsipləri və prioritetlərini müəyyən edən Ulu Öndər Heydər Əliyev haqqında ədəbiyyatşünas-alimin "Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti" (1998), "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti" (2002), "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" (2013), "Ədəbiyyatda Heydər Əliyev obrazı: Tarixi gerçəklikdən ideala" (2018) kitabları da həmin qəti oriyentasiyanı bir daha təsdiq edir. İsa Həbibbəylinin "Azərbaycançılıq konsepsiyası haqqında"kı məqaləsində müstəqil dövlətçilik və milli ideologiya məsələləri nəzəri cəhətdən şərh olunur. Bundan başqa, 1997-2005-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, 2005, 2010, 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş, Beşinci çağırış üzrə ölkə parlamentinin Elm və təhsil komitəsinin sədri akademik İsa Həbibbəylinin ictimai-siyasi fəaliyyəti də biblioqrafiya aynasında aydın görünür. Millət vəkilinin "Azərbaycan Respublikası Milli Məclisinin iclas və sessiyalarında çıxışları"nın ayrıca göstəricilərdə əksini tapması, Azərbaycan Respublikasının "Elm haqqında" (2015), "Məktəbəqədər təhsil haqqında" (2016), "Peşə təhsili haqqında" (2017) qanunlarının hazırlanıb qəbul olunmasına dair məlumatlar həmin səmərəli çalışmaları bilavasitə təsdiq edir.

Akademik İsa Həbibbəylinin miqyaslı yaradıcılığında Naxçıvan tematikası məxsusi yer tutur. Maraqlıdır ki, uzaq 1964-cü ildə, hələ orta məktəbin son siniflərində gənc İsa Həbibbəylinin ilk mətbu qələm təcrübələri publisistikadan başlanır. "Pambıqçı uşaqlar", "Danzik kənd klubu" (1966), "Bəhmən baba", "Həkimsiz məntəqə" (1967), "Naxçıvan tərənnüm olunur" (1969), "Naxçıvan abidələri" (1970), "Arpaçayı daşa bilməz" (1974) və s. onlarla məqaləsi "Azərbaycan

pioneri", "İşıqlı yol", "Şərq qapısı", "Gənc müəllim", "Azərbaycan gəncləri", "Kommunist" və s. qəzetlərdə dərc olunaraq, bütün 60-cı və 70-ci illər ərzində doğma yurdun qaynar həyatına, problemlərinə, mənzərələrinə işıq salır. Publisistik yaradıcılığını İsa Həbibbəyli elmi fəaliyyəti ilə daim paralel davam etdirərək, çoxsaylı araşdırma və məqalələrində, elmi-kütləvi janrda qələmə aldığı "Əsrin dörddə biri" (1992), "Naxçıvan Dövlət Universitetinin yetirmələri" (1992), "Araz üstə Universitet" (1996), "Naxçıvan Dövlət Universiteti. Salnamə" (1998), "Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti" (2000), "Mustafa Kamal Atatürk və Naxçıvan" (2006), "İntibahın 15 ili" (2010) və s. kitablarda təqdim edir. İsa Həbibbəyli irihəcmli (804 s.) "Nuhçıxandan Naxçıvana" (2015), "Naxçıvan xalçaçılığı: ənənə və müasirlik" (2017), "Duzdağ mozaikası" (2017) monoqrafik araşdırmalarında çağdaş dövrün əsl "Naxçıvannamə" epopeyasını yarada bilmişdir. Akademik İsa Həbibbəyli eyni zamanda üç clddə hazırlanmış fundamental "Naxçıvan tarixi"nin (2013-2015) həmmüəllifi və elmi redaktorlarından biridir.

Akademik İsa Həbibbəyli 1996-2013-cü illərdə Naxçıvan Dövlət Universitetinin rektoru, təşkilatçısı və qurucusu kimi çalışmış, həmçinin yarım əsrdən artıq pedaqoji fəaliyyəti dövründə respublikada ali təhsil quruculuğunun inkişafında mühüm xidmətlər göstərmişdir. Alimin elm təşkilatçılığı və pedaqoji səyləri biblioqrafik göstəricilərin – dərslik, metodiki vəsait və proqram səciyyəli məqalələrin dili ilə danışır ("Ədəbiyyat nəzəriyyəsi", "Tələbələrin elmi-tədqiqat işlərinin təşkili yolları", "Naxçıvan Dövlət Universiteti əməkdaşlarının elmi əsərləri: biblioqrafik göstərici", "Naxçıvan. Seçmə kurs: metodik göstərici" və s.) Önəmlidir ki, akademik İsa Həbibbəylinin həmmüəllif olduğu

ümumtəhsil məktəblərinin XI sinfi üçün "Ədəbiyyat" dərsliyi bu gün də məktəblərdə uğurla istifadə olunur.

Akademik İsa Həbibbəylinin elm tarixinə və elmin müasir inkişafı problemlərinə, habelə Milli Elmlər Akademiyasının fəaliyyətinə həsr olunmuş tədqiqatları da "Biblioqrafiya"da əhatə olunmuşdur. Bu araşdırmalar elmi mühitdə və Azərbaycan Milli Elmlər Akademiyasında proseslərdə, "Elm haqqında" Qanun ətrafında gedən mübahisələr və müzakirələrdə İsa Həbibbəylinin yaxından iştirak etdiyini, məsuliyyətli bir elmi missiyanı ardıcıl olaraq yerinə yetirdiyini nəzərə çarpdırır. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu haqqında 3 dildə yazılmış tanıtma kitabı, bir sıra görkəmli elm xadimlərinə həsr olunmuş portret-oçerkləri İsa Həbibbəylinin elmi mühitə dair araşdırmalarının genişləndiyini göstərir. Bundan başqa, "Biblioqrafiya"da göstərildiyi kimi, İsa Həbibbəyli AMEA-nın yubiley tədbirlərində rəsmən səsləndirilmiş "Akademiya marşı"nın və "Elm məbədi" adlı sənədli filmin ssenari müəllifidir. Elmi təfəkkürlə yanaşı, bədii təfəkkürə də önəm verən İsa Həbibbəylinin "Əsərləri"nin 10-cu cildinə şeirləri, mahnıları, esseləri, hekayə, etüd, tərcümə və bədii publisistikası daxildir. "Yollar şeirdən başlamışdı" adlanan kitabdakı (2016) yazıların iziylə (1968-2017) biblioqrafiyada ayrıca gedib, müəllifin bədii yaradıcılıq yolunu da soraqlamaq olur.

"Akademik İsa Həbibbəyli" biblioqrafiyasının II hissəsi akademikin elm təşkilatçılığı, elmi kadrların hazırlanması sahəsindəki xidmətlərini, "Elmi məsləhətçisi, elmi rəhbəri və opponent olduğu elmi işlər"i qeydə alır, əks etdirir. Akademik İsa Həbibbəylinin elmi rəhbərliyi ilə 1998-2018-ci illər ərzində Azərbaycan ədəbiyyatşünaslığının köklü problemlərinə həsr olunmuş 66 fəlsəfə doktorluğu, elmi məsləhətçiliyi ilə 6 elmlər doktorluğu dissertasiyaları

müdafiə olunmuş, daha 25 elmlər doktorluğu və 13 fəlsəfə doktorluğu işləri hazırlanır. Bu illər ərzində akademik 15 dissertasiya müdafiəsində rəsmi opponent qismində çıxış etmişdir. Akademik İsa Həbibbəylinin rəhbəri, məsləhətçisi və rəsmi opponenti olduğu alimlər sırası əksərən bugünün Azərbaycan filoloji fikir korpusunu təmsil edir. Və bu yerdə sanki quru rəqəmlərlə danışan göstəricilərin arxasından biz akademikin çağdaş humanitar elmə, milli ədəbiyyatşünaslığa istiqamətverici və hami obrazını görə bilirik. Bütövlükdə 128 göstəricini (1909-dan 2037-yə) ehtiva edən II hissənin özünəməxsusluğu burasındadır ki, akademikin bu sahədəki elmi fəaliyyətinin nəticələri ilə yanaşı, elmi prosesə, perspektiv işlərə qarşı son dərəcə həssaslığı və məsuliyyətini də görükdürə bilir.

Biblioqrafiyanın ən orijinal bölümlərindən biri III hissədir və akademik İsa Həbibbəylinin "Həyat və yaradıcılığı, elmi-ictimai fəaliyyəti haqqında" yazılanları əks etdirir. Nəhəng ədəbiyyat siyahısından ibarət göstəricilərdə (2038-dən 3293-ə) alim haqqında biblioqrafiya və biblioqrafik göstəricilər (1998; 2001; 2004; 2005; 2006, 2010), monoqrafiya və kitablar (T.Kərimli, "Şərqin qapısından dünyaya", 2009; Y.Seyidov, "Akademik İsa Həbibbəyli", 2009, 2014; 2017 (rus dilində); V.Məmmədov, "Böyük alim haqqında kiçik xatirələrim", 2009; A.Şükürov, "Akademik İsa Həbibbəyli", 2016), toplular ("Ömrün illəri və əsərləri", 2 kitabda. 2009, 2011), "Kitablara və elmi toplulara daxil edilmiş məqalələr", "Qəzetlərdə dərc olunmuş məqalələr", "Xarici dillərdə (türk, rus, ingilis dillərində) haqqında yazılanlar", "Akademik İsa Həbibbəyli poetik nümunələrdə" kimi təsnif olunub, sıralanıb akademik İsa Həbibbəyli haqqında söz deyir, fikir yaradır. Biblioqrafiyanı vərəqləyib, yarım əsrin mətbu yazılarını (1967-2018) andıqca göz

önündə dəyərli və miqyaslı bir alimin, şəxsiyyətin, ədəbiyyatşünas və tənqidçinin, elm və maarif fədakarı-təşkilatçının, ictimai-siyasi xadim və mütəfəkkirin, zəngin mənəvi cəhətləri sadalamaqla tükənməyən insanın obrazı canlanır.

Biblioqrafiyanın maraqlı bölümlərindən biri də "Əlavələr" səhifəsidir. "Akademik İsa Həbibbəylinin nəsil şəcərəsi" adlanan oçerk və göstəricidə İsa Həbibbəylinin doğulub başa çatdığı Naxçıvanın Şərur rayonu Danzik kəndinin qədim, orta əsrlər və müasir dövr tarixi, Həbibbəylilər nəslinin kökü orta əsrlərə gedən və əsrdən-əsrə Azərbaycan və Türkiyə torpaqlarını dolaşan taleyi və "bütövlükdə dərin kökləri ilə Naxçıvan mahalına bağlanan" nəsil şəcərəsi təsvir olunur; ağır zəhmət və çətinliklərdən keçsə də, sovet dönəmində də bəylik mənsəbini, buna uyğun rəftar və nüfuzunu qoruyub saxlayan nəslin bugünü izlənir, layiqli sələflərin layiq xələflərini əks etdirən şəcərə göstəricilərdə və əyani illüstrasiyada (təsviri rəsm əsərində) təcəssüm olunur. Digər bir əlavə "Akademik İsa Həbibbəyli təsviri sənətdə" adlanır və alimin portretinin qrafikada, mozaikada, yağlı boyada, xalçaçılıqda, mis döymə üzərində, ağac üzərində oyma və heykəltəraşlıqda, dostluq şarjında rəngarəng təsvirini verən sanballı işlərin göstəricilərini (3294-dən 3325-ə) təqdim edir.

Biblioqrafiya hər bir mükəmməl biblioqrafik nəşrə məxsus "Köməkçi göstəricilər" hissəsi ilə tamamlanır (güman ki, texniki xəta olaraq kitabda "IV" əvəzinə "VI hissə" kimi verilib). Əvvəlki hissələrdə xronoloji qaydada və tematik başlıqlarda izlənən göstəricilər bu dəfə əlifba sırası ilə, özünəxas bir səliqədə: "Əsərlərinin əlifba göstəricisi", "Xarici ölkələrdə nəşr olunmuş əsərlərinin əlifba göstəricisi", "Xarici ölkələrdə nəşr olunmuş məqalələrinin əlifba göstəricisi", "İsa Həbibbəyli haqqında yazan müəlliflərin əlifba

göstəricisi”, “Redaktorların və rəyçilərin əlifba göstəricisi”, “Tərcüməçilərin əlifba göstəricisi” bölümlərində təqdim olunur.

Çağdaş kitabxanaşünaslığın və kitab nəşrinin yüksək standartlarını nümayiş etdirən “Akademik İsa Həbibbəyli” biblioqrafiyasının tərtibçi müəllifləri filologiya üzrə fəlsəfə doktoru Zakirə Əliyeva və filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürovdur. Kitabın elmi redaktorları AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor Teymur Kərimli və professor, Əməkdar mədəniyyət işçisi Kərim Tahirovdur. Mükəmməl nəşrə görə kitabın yaradıcı kollektivi ilə birgə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasını, geniş elmi-ədəbi ictimaiyyəti, çoxsaylı filoloq və ədəbiyyatsevər oxucu auditoriyalarını təbrik etmək olar.

***Avqust, 2018***

## MÜNDƏRİCAT

Yubileydən yubileyə uç, romantikam! (*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illiyinə*).. 3
İsa Həbibbəyli məktəbi............................................. 22
Ədəbiyyat İnstitutu biblioqrafiya güzgüsündə........... 33
Bizdə Dissertasiya Şurası *(reportajvari passaj)*......... 37
Aktual elmi-ədəbi gənclik.......................................... 46
Elmi uzaqgörənliklə *(Akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi konsepsiyası" layihəsi üzərinə)*.................................. 56
"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyinə rezüme............................................................. 66
Ədəbiyyat tarixçiliyi: universal akademizmdən akademik universaliyaya................................................. 75
Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala............................................................... 92
Ədəbi proses hərəkatı: praktikadan gerçəkliyə........... 102
Akademik İsa Həbibbəyli – Biblioqrafiyadan görünən Bioqrafiya......................................................... 113

Nəşriyyat direktoru: **professor Nadir MƏMMƏDLİ**

Nəşriyyat redaktorları: **fil.ü.f.d. Töhfə TALIBOVA**
**Maral POLADOVA**
**Mehparə AXUNDOVA**

Texniki redaktor: **Rəşid KƏRİMLİ**

Korrektorlar: **Zərin VƏLİYEVA**
**Mətanət ABDUNOVA**

Çapa imzalanıb: 7.11.2018
Şərti çap vərəqi: 8. Formatı: 64x80 1/16
Tiraj: 300 nüsxə.

========================================
"Elm və təhsil 1" nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.

***E-mail:*** elm.ve.tehsil@mail.ru
***Tel:*** 497-16-32; 050-311-41-89
***Ünvan:*** Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.